RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 148 (9893) 20 iyul 2025-ci il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüş keçirilib




## Prezident İlham Əliyev görüşdə iştirak edib

**İyulun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xankəndidə "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü olub.**




AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev forum iştirakçılarının suallarını cavablandırıb.

Şuşa Qlobal Media Forumunun artıq ənənəyə çevrildiyini vurğulayan dövlətimizin başçısı gələcəkdə iştirakçıların sayının və coğrafi əhatəsinin artacağına ümid etdiyini bildirib. Dövlətimizin başçısı həmçinin açıq müzakirələrin vacibliyini qeyd edərək, yalnız media ilə bağlı deyil, qlobal məsələlərin də azad və şəffaf mühitdə müzakirə olunmasının önəmini vurğulayıb.

Prezident İlham Əliyev Azərbaycanın qlobal iqlim gündəliyinə verdiyi töhfəni yüksək qiymətləndirib və ölkəmizin ekoloji baxımdan düzgün yol seçdiyini, kömürdən istifadə etmədiyini, elektrik enerjisini əsasən hidro və Günəş enerjisindən əldə etdiyini bildirib. Dövlətimizin başçısı əlavə edib ki, bu sahədə böyük potensial mövcuddur və artıq bir sıra mühüm investisiya müqavilələri imzalanıb.

Azərbaycan Prezidenti Zəngəzur dəhlizinin regional əhəmiyyətini vurğulayaraq, ilkin mərhələdə dəhlizin 15 milyon ton yük potensialına malik olacağını bildirib. Prezident İlham Əliyev əlavə edib ki, Zəngəzur dəhlizi "Şimal-Cənub" nəqliyyat dəhlizinin yeni istiqamətini yaradacaq.

Ermənistanın Zəngəzur dəhlizi ilə bağlı fəaliyyətsizliyini tənqid edən dövlətimizin başçısı bildirib ki, son beş ildə Ermənistan bu istiqamətdə heç bir iş görməyib və mövzunu qəsdən gündəmdən çıxarır. Azərbaycan Prezidenti vurğulayıb ki, əgər bu yanaşma davam edərsə, Ermənistanın tranzit ölkəyə çevrilmək şansı sıfra enəcək və bu, onu nəqliyyatla yanaşı, siyasi təcridə də aparacaq.

Prezident İlham Əliyev bildirib ki, Qarabağ münaqişəsinin başa çatmasından sonra regionda sabitlik və təhlükəsizlik artıb, bu da inkişaf və bağlantı layihələri üçün daha geniş imkanlar açır.

ABŞ-Azərbaycan münasibətlərinə də toxunan Prezident İlham Əliyev bildirib ki, iki ölkə arasında güclü tərəfdaşlıq münasibətləri mövcuddur və Vaşinqtondan müsbət mesajlar alınır. Bu əməkdaşlığın zəngin tarixə malik olduğunu qeyd edən dövlətimizin başçısı həmçinin Prezident Donald Trampın Cənubi Qafqazda sülh proseslərinə töhfə verdiyini vurğulayıb və gələcəkdə Azərbaycan-ABŞ əlaqələri fonunda daha çox müsbət xəbərlərin gözlənildiyini bildirib.

Prezident İlham Əliyev Azərbaycanın ədalətli və qəti Qələbəsinin əldə olunmasında əzmli və davamlı mübarizənin rolunu vurğulayıb. Cəmiyyətin konsolidasiyasını mühüm amil kimi dəyərləndirən dövlətimizin başçısı xalqın dəstəyinin ona Ali Baş Komandan kimi mənəvi güc verdiyini və bunun Vətən müharibəsində Qələbədə həlledici rol oynadığını qeyd edib.

Azərbaycan Prezidenti çıxışı zamanı İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) daha güclü və səmərəli quruma çevrilməsinə ehtiyac olduğunu bildirib. Qeyd edib ki, üzv ölkələrin potensialı məlumdur, lakin onların ECO-ya yanaşmaları fərqlidir - bəziləri ikitərəfli əməkdaşlığı fəal şəkildə dəstəkləyir, digərləri isə daha passivdir. Azərbaycan isə çoxtərəfli tərəfdaşlıq modelini dəstəkləyir və hazırda təşkilata sədr kimi öhdəliklərini yerinə yetirir. Prezident əminliyini ifadə edib ki, bu səylər uğurlu nəticələr verəcək.

Prezident İlham Əliyev deyib ki, Azərbaycan beynəlxalq səhnədə fəallığını artırır və müxtəlif ölkələr arasında vasitəçilik səyləri ilə regional məsələlərin həllində daha əhəmiyyətli rol oynamağa çalışır.

Azərbaycan Prezidenti bildirib ki, Ermənistan konstitusiyasına dəyişiklik və ATƏT-in Minsk qrupunun buraxılması məsələləri həll olunduqdan sonra sülh müqaviləsini imzalamaq mümkündür. Dövlətimizin başçısı Azərbaycanın artıq Əbu-Dabidə bu təkliflə çıxış etdiyini deyib və sülh müqaviləsinin imzalanmasına yaxın olduqlarını vurğulayıb.

Qəzaya uğrayan AZAL təyyarəsi ilə bağlı sualı cavablandıran Prezident İlham Əliyev bildirib ki, Rusiya rəsmilərindən hələ də hər hansı cavab alınmayıb. Dövlətimizin başçısı Rusiya tərəfinin günahını etiraf etməsini, səbəbkarların cəzalandırılmasını və qəzada zərər çəkənlərə təzminat ödənilməsini tələb etdiklərini deyib.

Azərbaycan ilə Çin arasında ticarət əlaqələrinin genişləndirilməsi üçün böyük potensialın mövcud olduğunu bildirən Prezident İlham Əliyev vurğulayıb ki, Çindən Azərbaycana və Azərbaycan vasitəsilə Qərbə konteyner qatarlarının sayı ildən-ilə əhəmiyyətli dərəcədə artır və yaxın gələcəkdə bu göstəricinin dəfələrlə yüksələcəyi gözlənilir. Prezident həmçinin qeyd edib ki, Azərbaycan "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyir və ölkədə müvafiq nəqliyyat-logistika infrastrukturu yaradıb.

Forumda Azərbaycan mediasının inkişafından məmnunluğunu ifadə edən Prezident İlham Əliyev bildirib ki, milli mətbuatımız həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə böyük nüfuz qazanıb, dövlət maraqlarını uğurla qoruyur və əsassız ittihamlara arqumentlərlə cavab verir.

❖ ❖ ❖

Qeyd edək ki, iyulun 21-dək davam edəcək forumda 52 ölkədən 140-a yaxın xarici qonaq, o cümlədən 30-dan çox informasiya agentliyi, 7 beynəlxalq təşkilat və 80-ə yaxın media qurumu, həmçinin sahə üzrə əlaqəli digər təşkilatlardan nümayəndələr iştirak edirlər. Forumun iştirakçıları arasında əcnəbi media təmsilçiləri ilə yanaşı, Azərbaycanın media nümayəndələri, ekspertlər və rəsmilər də var. Açılış mərasimindən sonra forum işini sessiyalarla davam etdirir.

**(Forum haqqında daha geniş material veriləcək).**

## Xilaskarlıq taleyinin qisməti idi



Keçən əsrin 90-cı illərində böhran içində olan Azərbaycanı yada salaq. O illər xalq hər gün torpaqlarını, qəhrəman övladlarını, ən pisi isə ümidini itirirdi. Hər yanda səfalət, cinayət, xəyanət hökm sürürdü. Faktiki olaraq Vətənimizin bir hissəsi Ermənistanın və onun Qarabağda yaratdığı separatçı rejimin nəzarəti altına keçmişdi. Belə bir zamanda – 1990-cı il iyulun 20-də Ulu Öndər Azərbaycana qayıtdı. Bu adi qayıdış yox, bir xalqın, bir millətin özünə dönüşünün başlanğıcı idi. Bu qayıdış təsadüfi də deyildi. Onu şərtləndirən çoxsaylı amillər var idi. M.Qorbaçovu SSRİ-nin rəhbərliyinə gətirən ermənilərin planı belə idi ki, Qarabağı, hətta Naxçıvanı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək üçün Heydər Əliyevi tutduğu yüksək vəzifədən kənarlaşdırsınlar. Ulu Öndər SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsindən və Siyasi Büro üzvlüyündən istefa verdikdən sonra – 1990-cı il yanvarın 20-də ermənilərin planına uyğun, bilavasitə M.Qorbaçovun göstərişi ilə Bakıda dinc əhaliyə qarşı qanlı qırğın törədildi.

6

## Belçika Nümayəndələr Palatasının qətnaməsinə Azərbaycan Respublikası Milli Məclisinin münasibəti

Belçika parlamenti üzvlərinin Azərbaycanı "müharibə cinayətlərində" və "insan hüquqlarının pozuntularında" ittiham etmək cəhdləri əsassızdır və siyasi motivlərlə bağlıdır. Qətnamədə Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən 30 il ərzində işğal altında saxlanılmasının, bu dövrdə dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş çoxsaylı cinayətlərin, soyqırımı aktlarının, etnik təmizləmə nəticəsində 750 min azərbaycanlının öz vətənində didərgin salınmasının, şəhər və kəndlərimizin dağıdılmasının, milli, mədəni, dini və tarixi mirasımızın talan və təhqir edilməsinin üzərindən sükutla keçilmişdir. Əvəzində isə öz torpağında sülhü və ədaləti bərqərar etməyə çalışan Azərbaycan haqsız hücumlara məruz qoyulmuşdur.

4

## Dövrün çağırışları və milli mətbuatımız



Kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən qanunvericilik bazasının təkmilləşdirilməsi, media sahəsində strateji islahatların həyata keçirilməsi, qəbul olunmuş normativ-hüquqi aktlar və qərarlar onun institusional dayanıqlığını və funksionallığını artırır. Nəticə etibarilə ölkəmizdə mətbuatın inkişafı üçün zəruri olan hüquqi baza və praktiki zəmin artıq ən yüksək səviyyədə formalaşdırılmışdır.

Prezident İlham Əliyevin hələ 2008-ci il 31 iyul tarixli "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında" Sərəncamı ölkədə media sektorunun inkişafına dövlət səviyyəsində göstərilən davamlı diqqətin bariz nümunəsi olmaqla, bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi baxımından da mühüm əhəmiyyət kəsb etmişdir.

7

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I); 2024, №1, maddə 18, №2, maddə 135, № 4, maddə 362, № 5 (I kitab), maddələr 487, 489, 492, 503, № 7, maddələr 750, 768, 771, 772, № 12 (I kitab), maddə 1280, (II kitab), maddələr 1330,1350; 2025, №1, maddələr 1, 15, № 2, maddə 99, № 3, maddə 217; Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 138-VIIQD nömrəli, 7 mart tarixli 152-VIIQD nömrəli, 11 aprel tarixli 178-VIIQD nömrəli və 1 may tarixli 189-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 18.5-ci və 18.6-cı maddələrdə "127-4.5-ci" sözləri "127-3.6-cı" sözləri ilə əvəz edilsin;

1.2. 38.6-cı maddə, 9-cu fəslin adı və 45-ci maddə aşağıdakı redaksiyada verilsin:

"38.6. İnzibati tənbeh vermə haqqında elektron qərar (bu Məcəllənin 122.1-ci maddəsində nəzərdə tutulmuş inzibati tənbeh vermə haqqında elektron qərara münasibətdə isə həmçinin onun əlavəsi (foto və ya video materiallar), habelə səlahiyyətli orqanlar (vəzifəli şəxslər) tərəfindən inzibati xəta haqqında iş üzrə nömrələnmiş blanklarda tərtib edilmiş qərar 24 saat müddətində şəxs üçün internet informasiya resursunda yaradılan elektron kabinetdə yerləşdirilmədikdə, şəxs (əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər istisna olmaqla) inzibati məsuliyyətə cəlb oluna bilməz.";

**"FƏSİL 9**

**İnzibati xətalar haqqında işlər barədə elektron informasiya ehtiyatları və sistemləri və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi";**

**"Maddə 45. İnzibati xətalar haqqında işlər barədə elektron informasiya ehtiyatları və sistemləri**

45.1. Törədilmiş inzibati xətalar və həmin xətaları törətmiş şəxslər barədə məlumatların uçotu, sistemləşdirilməsi, saxlanılması, habelə inzibati xətalar haqqında işlərə baxılması ilə əlaqədar proseslərin həyata keçirilməsi məqsədilə inzibati xətalar haqqında işlərə baxmağa və inzibati xətalar haqqında protokol tərtib etməyə səlahiyyətli orqanlar (vəzifəli şəxslər) inzibati xətalar haqqında işlər barədə elektron informasiya sistemlərini (ehtiyatlarını) (bu Məcəllənin Ümumi hissəsinin məqsədləri üçün bundan sonra - informasiya sistemi) yaradırlar və həmin informasiya sistemlərinin fəaliyyətini təmin edirlər.

45.2. Səlahiyyətli orqanlar (vəzifəli şəxslər) baxdıqları inzibati xəta haqqında iş üzrə nömrələnmiş blanklarda tərtib edilmiş qərar barəsində aşağıdakı məlumatların 24 saat müddətində (bu Məcəllənin 45.6-cı maddəsində nəzərdə tutulan hallar istisna olmaqla) informasiya sisteminə daxil edilməsini təmin etməlidirlər:

45.2.1. inzibati xəta törətmiş şəxs haqqında məlumat (fiziki və ya vəzifəli şəxslərin soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi (əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin müvəqqəti, yaxud daimi yaşamaq üçün icazə vəsiqələrinin, habelə qaçqın vəsiqəsinin seriyası və nömrəsi), yaşadığı və olduğu yerin ünvanı, hüquqi şəxsin adı, VÖEN-i, hüquqi və faktiki ünvanları);

45.2.2. inzibati xətanın törədildiyi yer, vaxt və bu xətanın mahiyyəti;

45.2.3. inzibati xətaya görə məsuliyyət nəzərdə tutan bu Məcəllənin müvafiq maddəsi;

45.2.4. inzibati xətanın törədilməsi nəticəsində şəxsin sağlamlığına yüngül bədən xəsarəti yetirilmişdirsə və ya maddi zərər vurulmuşdursa, bu hallar barədə qeydlər;

45.2.5. inzibati xəta haqqında işin baxılması tarixi və yeri;

45.2.6. inzibati xəta haqqında iş üzrə qərarı çıxarmış vəzifəli şəxsin vəzifəsi, soyadı, adı, atasının adı, kollegial orqanın adı və tərkibi;

45.2.7. inzibati xəta haqqında iş üzrə qərarın tarixi və nömrəsi;

45.2.8. tətbiq edilmiş inzibati tənbeh haqqında məlumat;

45.2.9. tətbiq edilmiş inzibati tənbehin icrası barədə məlumat;

45.2.10. inzibati xəta haqqında iş üzrə icraat üçün zəruri olan digər məlumatlar.

45.3. Səlahiyyətli orqanlar (vəzifəli şəxslər) inzibati xəta haqqında işə baxarkən nömrələnmiş blanklarda tərtib edilənqərardadlar barədə bu Məcəllənin 118.1-ci maddəsində nəzərdə tutulan məlumatların 24 saat müddətində (bu Məcəllənin 45.6-cı maddəsində nəzərdə tutulan hal istisna olmaqla) informasiya sisteminə daxil edilməsini təmin etməlidirlər.

45.4. İnzibati xəta haqqında protokol tərtib etməyə səlahiyyətli orqanlar (vəzifəli şəxslər) nömrələnmiş blanklarda tərtib edilmiş inzibati xəta haqqında protokol barədə bu Məcəllənin 100.5-ci maddəsində nəzərdə tutulan məlumatların həmin protokol baxılması üçün göndərilməzdən əvvəl, lakin hər bir halda tərtib olunduğu vaxtdan 24 saatdan gec olmayaraq (bu Məcəllənin 45.6-cı maddəsində nəzərdə tutulan hallar istisna olmaqla) informasiya sisteminə daxil edilməsini təmin etməlidirlər.

45.5. Səlahiyyətli orqanlar (vəzifəli şəxslər) inzibati xəta haqqında protokol tərtib etdikləri iş üzrə məhkəmə tərəfindən çıxarılmış inzibati xəta haqqında iş üzrə qərarla bağlı məlumatların bu Məcəllənin 117.3-cü maddəsində nəzərdə tutulmuş qaydada informasiya sisteminə daxil edilməsini təmin etməlidirlər.

45.6. Bu Məcəllənin 124.4-cü maddəsinə uyğun olaraq bort-kompüter vasitəsilə tərtib edilmiş protokol və qərar, habelə informasiya sistemləri vasitəsilə tərtib edilmiş protokol və qərar (qərardad) bu Məcəllənin 45-2.3-cü maddəsində nəzərdə tutulmuş qaydada çap edildikdən dərhal sonra səlahiyyətli orqanın informasiya sistemində yerləşdirilir.

45.7. Səlahiyyətli orqanların informasiya sistemlərində tərtib olunmuş inzibati xəta haqqında elektron protokollar və inzibati xəta haqqında iş üzrə elektron qərarlar bu Məcəllənin 45-2.3-cü maddəsində nəzərdə tutulmuş qaydada təsdiq olunduqdan dərhal sonra həmin orqanın informasiya sistemində yerləşdirilir.";

1.3. aşağıdakı məzmunda 45-1-ci və 45-2-ci maddələr əlavə edilsin:

**"Maddə 45-1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi**

45-1.1. İnzibati xəta haqqında protokolların və inzibati xəta haqqında iş üzrə qərarların (qərardadların) mərkəzləşdirilmiş qaydada uçotunu və izlənilməsini təmin etməklə bu Məcəlləyə əsasən tətbiq edilmiş cərimələrin dövlət büdcəsinə və (və ya) inzibati cərimə növündə inzibati tənbeh vermə barədə qərar (elektron qərar) qəbul etmiş səlahiyyətli orqanların hesablarına hesablanan və köçürülən hissəsinə dair məlumatların təhlil edilməsi və həmin məlumatların düzgünlüyü üzrə nəzarətin həyata keçirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi (bundan sonra - "İCMAL" informasiya sistemi) yaradılır.

45-1.2. İnzibati xəta haqqında protokolların və inzibati xəta haqqında iş üzrə qərarların (qərardadların), o cümlədən elektron protokol və elektron qərarların unikal nömrə verilməklə izlənilməsinin təmin edilməsi üçün həmin sənədlər barədə məlumatlar bu Məcəllənin 45-2-ci maddəsində nəzərdə tutulmuş qaydada "İCMAL" informasiya sisteminə ötürülür.

45-1.3. Cərimə növündə inzibati tənbeh tətbiq etməni nəzərdə tutan inzibati xəta haqqında iş üzrə qərarlara, o cümlədən elektron qərarlara "İCMAL" informasiya sistemi vasitəsilə unikal nömrə verilmədən həmin qərarların icra olunması (o cümlədən dəbbə pulunun hesablanması) tələb edilə bilməz.

45-1.4. "İCMAL" informasiya sisteminin saxlanılması, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və maddi təminatının yaxşılaşdırılması məqsədilə bu Məcəlləyə əsasən tətbiq edilən cərimələrdən dövlət büdcəsinə daxil olan vəsaitin 5 faizi həmin orqanın xəzinə hesabına köçürülür.

**Maddə 45-2. İnzibati xəta haqqında protokollar və inzibati xəta haqqında iş üzrə qərarlar (qərardadlar) barəsində məlumatların "İCMAL" informasiya sisteminə ötürülmə qaydası**

45-2.1. Bu Məcəllənin 45.2-45.4-cü maddələrinə uyğun olaraq səlahiyyətli orqanın informasiya sisteminə daxil edilmiş inzibati xəta haqqında protokollar və inzibati xəta haqqında iş üzrə qərarlar (qərardadlar) barədə məlumatlar dərhal "İCMAL" informasiya sisteminə ötürülür. Bu məlumatlar əsasında həmin protokola və qərara (qərardada) "İCMAL" informasiya sistemində real vaxt rejimində və avtomatlaşdırılmış qaydada unikal nömrə verildikdən sonra həmin protokol və qərar (qərardad) və həmin sənədlər üzrə informasiya sistemində yerləşdirilmiş məlumat səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən bu Məcəllənin 57-1.1.1-ci və 57-1.1.2-ci maddələrində nəzərdə tutulmuş qaydada barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin məlumatlandırılması üçün dərhal müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə göndərilir.

45-2.2. Məhkəmə tərəfindən çıxarılmış inzibati xəta haqqında iş üzrə qərarla bağlı məlumatların "İCMAL" informasiya sisteminə ötürülməsi bu Məcəllənin 117.3-cü maddəsində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

45-2.3. Səlahiyyətli orqanların informasiya sistemlərində tərtib edilmiş elektron protokol və inzibati tənbeh vermə haqqında elektron qərar gücləndirilmiş elektron imza ilə təsdiq edilməmişdən əvvəl, habelə informasiya sistemləri vasitəsilə və ya bu Məcəllənin 124.4-cü maddəsinə uyğun olaraq bort-kompüter vasitəsilə tərtib edilmiş protokol və qərar isə nömrələnmiş blanklarda çap edilməzdən əvvəl "İCMAL" informasiya sisteminə ötürülür. "İCMAL" informasiya sistemində real vaxt rejimində və avtomatlaşdırılmış qaydada unikal nömrə verilmiş elektron protokol (protokol) və elektron qərar (qərar) səlahiyyətli orqanların informasiya sistemlərinə ötürüldükdən sonra onu tərtib edən şəxs tərəfindən dərhal müvafiq olaraq təsdiqlənir və ya nömrələnmiş blanklarda çap edilərək imzalanır.

45-2.4. Bu Məcəllənin 45-2.3-cü maddəsinə uyğun olaraq unikal nömrə verilməklə tərtib olunmuş sənədlər bu Məcəllənin 57-1.1.1-ci və 57-1.1.2-ci maddələrində nəzərdə tutulmuş qaydada barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin məlumatlandırılması üçün real vaxt rejimində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə göndərilir.

45-2.5. İtirilmiş, zədələnmiş (korlanmış) blanklar, habelə bu Məcəllənin 45-2.3-cü maddəsində nəzərdə tutulmuş qaydada unikal nömrə verildikdən sonra təsdiqlənməmiş və ya nömrələnmiş blanklarda çap edilməmiş sənədlər barədə məlumatlar dərhal, lakin hər bir halda tərtib olunduğu vaxtdan 24 saatdan gec olmayaraq "İCMAL" informasiya sisteminə ötürülür.";

1.4. 54-cü maddə üzrə:

1.4.1. 54.4-cü maddənin üçüncü cümləsində "və ya" sözləri "və" sözü ilə əvəz edilsin;

1.4.2. aşağıdakı məzmunda 54.4-1-ci maddə əlavə edilsin:

"54.4-1. İnzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərar və ya inzibati xəta haqqında işin başlanmasının rədd edilməsi haqqında əsaslandırılmış qərardad "Elektron prokurorluq" informasiya sistemi vasitəsilə elektron sənəd formasında tərtib olunur. Sanksiyasında inzibati cərimə növündə inzibati tənbeh tədbiri nəzərdə tutulmuşinzibati xətalar haqqında işlər üzrə qərar (qərardad) təsdiq edilməmişdən əvvəl "İCMAL" informasiya sisteminə ötürülür. "İCMAL" informasiya sistemində real vaxt rejimində və avtomatlaşdırılmış qaydada unikal nömrə verilmiş qərar (qərardad) "Elektron prokurorluq" informasiya sisteminə ötürüldükdən sonra müvafiq səlahiyyətli əməkdaşın gücləndirilmiş elektron imzası ilədərhal təsdiqlənir.";

1.4.3. 54.5-ci maddənin ikinci cümləsinə "(vəzifəli şəxsə)" sözlərindən sonra "Elektron prokurorluq" informasiya sistemi vasitəsilə" sözləri əlavə edilsin;

1.5. 57-ci maddə üzrə:

1.5.1. aşağıdakı məzmunda 57.5-1-ci maddə əlavə edilsin:

"57.5-1. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin (əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər istisna olmaqla) məlumatlandırılması üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə göndərilmiş inzibati xəta haqqında protokollar, o cümlədən elektron protokollar, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərarlar (qərardadlar), o cümlədən elektron qərarlar aşağıdakı hallarda da rəsmi qaydada verilmiş hesab olunur:

57.5-1.1. inzibati xəta törətmiş şəxsin elektron kabinetində olan mobil telefon nömrəsinə inzibati xəta haqqında bu Məcəllənin 57-1.1.2-ci maddəsində nəzərdə tutulan qaydada SMS məlumat çatdırıldığı vaxtdan;

57.5-1.2. inzibati xəta törətmiş şəxs bu Məcəllənin 57-1.1.1-ci maddəsində nəzərdə tutulan qaydada onun elektron kabinetinə yerləşdirilmiş sənədlər və onların əlavələri ilə tanış olduğu vaxtdan (elektron kabinetdə mobil telefon nömrəsi olmadığı halda).";

1.5.2. 57.6.1-ci, 57.6.2-ci və 57.7-ci maddələr ləğv edilsin;

1.6. aşağıdakı məzmunda 57-1-ci maddə əlavə edilsin:

**"Maddə 57-1. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin sənədlər barədə məlumatlandırılması**

57-1.1. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs bu Məcəllənin 45-2-ci maddəsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə göndərilmiş sənədlər (inzibati xəta haqqında protokol, o cümlədən elektron protokol və inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərar (qərardad), o cümlədən elektron qərar barədə bu Məcəllənin 57-1.4-cü maddəsi nəzərə alınmaqla aşağıdakı qaydada məlumatlandırılır:

57-1.1.1. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi vasitəsilə bu Məcəllənin 57-1.1-ci maddəsində göstərilən sənədlər və onların əlavələri barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin elektron kabinetində dərhal yerləşdirilir və elektron ünvanına (olduğu halda) göndərilir;

57-1.1.2. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi vasitəsilə şəxsin elektron kabinetində olan mobil telefon nömrəsinə inzibati xəta törətməsi, törətdiyi xətanın qısa məzmunu, xətanın törədildiyi yer və vaxt, bu Məcəllənin hansı maddəsinə əsasən inzibati məsuliyyətə cəlb olunması, tətbiq edilmiş inzibati tənbeh haqqında məlumat, o cümlədən cərimənin məbləği və ödənilməsi qaydası barədə məlumat, bu Məcəllənin 57-1.1-ci maddəsində göstərilən müvafiq sənədin nömrəsi, həmin sənədlə və ona əlavə edilmiş materiallarla tanış ola biləcəyi elektron kabinetin internet ünvanı və daxilolma qaydası barədə ödənişsiz SMS məlumatı dərhal göndərilir;

57-1.1.3. səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərar (qərardad), o cümlədən elektron protokol və elektron qərar əlavə edilmiş materiallarla birlikdə səlahiyyətli orqanlar (vəzifəli şəxslər) tərəfindən kağız daşıyıcıda çap olunaraq, bu Məcəllənin 57.1-57.5-ci maddələrində nəzərdə tutulmuş rəsmi qaydada verilməsi üçün 2 iş günü müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) göndərilir.

57-1.2. İnternet informasiya resursunda yaradılmış elektron kabinetdə şəxsin hansı tarixdə inzibati xəta haqqında protokol və inzibati tənbeh vermə haqqında qərar barədə bu Məcəllənin 57-1.1-ci maddəsində nəzərdə tutulmuş qaydada məlumatlandırılması haqqında qeyd yerləşdirilməlidir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi bu Məcəllənin 57-1.1.2-ci maddəsində nəzərdə tutulmuş SMS məlumatın şəxsə çatdırıldığı vaxt barədə və bu Məcəllənin 57-1.1.1-ci maddəsində nəzərdə tutulan qaydada onun sənəd və onun əlavələri ilə tanış olduğu vaxt barədə məlumatları "İCMAL" informasiya sisteminə və həmin sənədləri tərtib etmiş səlahiyyətli orqanların informasiya sistemlərinə göndərməli, həmçinin həmin məlumatları şəxsin elektron kabinetinə yerləşdirməli və onun elektron ünvanına (olduğu halda) göndərməlidir.

57-1.3. Səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərarın (qərardadın), o cümlədən elektron protokol və elektron qərarın bu Məcəllənin 57.1-57.5-ci maddələrində nəzərdə tutulmuş qaydada "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sifarişli poçt göndərişi vasitəsilə rəsmi çatdırılması barədə məlumatlar 1 gün müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən səlahiyyətli orqanların informasiya sistemlərinə və "İCMAL" informasiya sisteminə göndərilir.

57-1.4. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barəsində inzibati xəta haqqında protokol və inzibati xəta haqqında iş üzrə qərar nömrələnmiş blankda tərtib edildikdə, həmin sənədlərin kağız daşıyıcıda surəti onlara yerində verilir (iş materialları və bu Məcəllədə nəzərdə tutulan hüquqları barədə məlumatlarla tanış ola biləcəyi internet ünvanı şəxsə bildirilir). Əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin səlahiyyətli orqanların informasiya sistemlərində tərtib edilmiş elektron protokollar və elektron qərarlar barədə məlumatlandırılması, olduğu halda onların mobil telefon nömrəsinə bu barədə SMS məlumatı göndərilməklə və ya bu Məcəllənin 57-1.3-cü maddəsinə uyğun olaraq həyata keçirilir.";

1.7. 58.0.5-ci maddəyə "olmama," sözündən sonra "sənədi qəbul etməkdən imtina," sözləri əlavə edilsin;

1.8. 76.1-ci maddənin ikinci cümləsindən "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemində, habelə digər" sözləri çıxarılsın;

1.9. 81-1-ci maddə üzrə:

1.9.1. 81-1.1-ci maddədən "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminin, habelə digər" sözləri çıxarılsın;

1.9.2. 81-1.2-ci maddədə "Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminin, habelə digər" sözləri "İnzibati xətanın aşkarlanmasında istifadə olunan" sözləri ilə əvəz edilsin;

1.10. 89.7-ci maddədə "və ya" sözləri "və" sözü ilə əvəz edilsin;

1.11. 97.5-ci maddədə "surəti" sözü "habelə protokola əlavə kimi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müvafiq informasiya sistemində yerləşdirilir, ikinci nüsxəsi" sözləri ilə əvəz edilsin;

1.12. 99-cu maddə üzrə:

1.12.1. 99.1.1-ci maddədən "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi, habelə digər" sözləri çıxarılsın;

1.12.2. 99.7-ci maddədə "və ya" sözləri "və" sözü ilə əvəz edilsin;

1.13. 100-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 100. İnzibati xəta haqqında protokol**

100.1. Bu Məcəllənin 54-cü maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, inzibati xətanın törədilməsi haqqında protokol tərtib edilir.

100.2. İnzibati xəta haqqında protokol ciddi hesabat sənədi olmaqla, əl ilə və ya informasiya sistemləri vasitəsilə nömrələnmiş blanklarda və ya səlahiyyətli orqanların informasiya sistemlərində elektron qaydada tərtib olunur. Bu Məcəllənin 327-356-cı maddələrində nəzərdə tutulmuş yol hərəkəti qaydaları, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan inzibati xətalarla bağlı protokol inzibati xəta hadisəsi səlahiyyətli vəzifəli şəxs tərəfindən bilavasitə aşkar edildikdə bu Məcəllə ilə müəyyən edilmiş qaydada bort-kompüter vasitəsilə, bort-kompüter olmadıqda isə əl ilə nömrələnmiş blanklarda tərtib olunur.

100.3. Protokol tərtib edilərkən, barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxsə və ya hüquqi şəxsin nümayəndəsinə, habelə inzibati xəta haqqında iş üzrə icraatın digər iştirakçılarına bu Məcəllədə nəzərdə tutulmuş hüquqları və vəzifələri izah edilir.

100.4. Protokol nömrələnmiş blankda tərtib edildikdə onu tərtib etmiş şəxs, barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxs və ya hüquqi şəxsin nümayəndəsi tərəfindən imzalanır və protokolun surəti barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxsə və ya hüquqi şəxsin nümayəndəsinə verilir. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxs və ya hüquqi şəxsin nümayəndəsi protokolu imzalamaqdan imtina etdikdə, bu barədə protokolda müvafiq qeyd aparılır. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxsin və ya hüquqi şəxsin nümayəndəsinin izahatlar və protokolun məzmunu barəsində öz mülahizələrini təqdim etmək, habelə protokolu imzalamaqdan imtina etmələrinin səbəblərini göstərmək hüquqları vardır. Onların bu izahatları və mülahizələri protokola əlavə olunur. İnzibati xəta haqqında iş üzrə zərərçəkmiş şəxsin də inzibati xəta haqqında protokolun surətini almaq hüququ vardır.

100.5. Nömrələnmiş blankda tərtib edilmiş inzibati xəta haqqında protokolda aşağıdakılar göstərilir:

100.5.1. protokolun tərtib edildiyi tarix, vaxt və yer;

100.5.2. protokolu tərtib etmiş şəxsin vəzifəsi, soyadı, adı, atasının adı;

100.5.3. barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs haqqında məlumat (fiziki və ya vəzifəli şəxslərin soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi (əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin müvəqqəti, yaxud daimi yaşamaq üçün icazə vəsiqələrinin, habelə qaçqın vəsiqəsinin seriyası və nömrəsi), yaşadığı və olduğu yerin ünvanı, hüquqi şəxsin adı, VÖEN-i, hüquqi və faktiki ünvanları);

100.5.4. inzibati xətanın törədildiyi yer, vaxt və bu xətanın mahiyyəti;

100.5.5. inzibati xətaya görə məsuliyyət nəzərdə tutan bu Məcəllənin müvafiq maddəsi;

100.5.6. olduğu halda şahidlərin və zərərçəkmiş fiziki şəxslərin soyadı, adı, atasının adı və onların yaşadığı və olduğu yerin ünvanı, hüquqi şəxsin adı, VÖEN-i, hüquqi və faktiki ünvanları;

100.5.7. barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxsin və ya hüquqi şəxsin nümayəndəsinin izahatları;

100.5.8. inzibati xətanın aşkar edilməsində xüsusi texniki vasitələrdən istifadə olunmuşdursa, onların göstəriciləri, habelə istifadə olunmuş xüsusi texniki vasitənin tipi, markası, modeli, yerləşdiyi yer, ölçmə vasitəsinin son dəfə müqayisəli dövlət yoxlamasından keçdiyi vaxt (bunu təsdiq edən sənədin nömrəsi, tarixi) və növbəti yoxlamanın keçirilməli olduğu vaxt barədə məlumatlar;

100.5.9. inzibati xətanın törədilməsi nəticəsində şəxsin sağlamlığına yüngül bədən xəsarəti yetirilmişdirsə və ya maddi zərər vurulmuşdursa, bu hallar barədə qeydlər;

100.5.10. inzibati xəta haqqında iş üzrə icraat üçün zəruri olan digər məlumatlar.

100.6. Yol hərəkəti qaydaları, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan inzibati xətalarla bağlı tərtib edilən inzibati xəta haqqında protokolda bu Məcəllənin 100.5-ci maddəsində nəzərdə tutulanlarla yanaşı aşağıdakılar da göstərilir:

100.6.1. nəqliyyat vasitəsinin markası, dövlət qeydiyyat nişanı;

100.6.2. törədilmiş inzibati xətaya görə nəqliyyat vasitəsini idarə etmək hüququnun məhdudlaşdırılması növündə inzibati tənbehin tətbiq edilməsi nəzərdə tutulduğu halda, götürülən sürücülük vəsiqəsinin seriyası və nömrəsi, nəqliyyat vasitəsini müvəqqəti idarə etmək hüququ verən sənədin seriyası və nömrəsi;

100.6.3. sürücü nəqliyyat vasitəsinin idarə olunmasından kənarlaşdırıldığı halda, kənarlaşdırılma səbəbi.

100.7. Səlahiyyətli orqanların informasiya sistemlərində elektron protokolun tərtib edilmə qaydası, habelə həmin protokolda göstərilən məlumatlar bu Məcəllənin 127-3-cü maddəsi ilə müəyyən edilir.

100.8. Protokolun, o cümlədən elektron protokolun forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.";

1.14. 104-cü maddə üzrə:

1.14.1. 104.4-cü maddədə "qərarın surətini" sözləri "qərarı səlahiyyətli orqanların informasiya sistemləri vasitəsilə, bu mümkün olmadıqda isə onun kağız daşıyıcıda surətini poçt vasitəsilə" sözləri ilə əvəz edilsin;

1.14.2. 104.6-cı maddənin birinci cümləsində "onun surətini" sözləri "Elektron prokurorluq" informasiya sistemi vasitəsilə, bu mümkün olmadıqda isə onun kağız daşıyıcıda surətini poçt vasitəsilə" sözləri ilə əvəz edilsin;

1.15. 105.2-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən qəbul edilmiş inzibati xəta haqqında işin icraatına xitam verilməsi haqqında qərar barədə bu Məcəllənin 57-1.1-ci maddəsində nəzərdə tutulmuş qaydada məlumatlandırılır.";

1.16. 110.3-cü maddədə "mərkəzi" sözü "müəyyən etdiyi orqanın (qurumun) müvafiq" sözləri ilə əvəz edilsin;

1.17. 114-cü maddə üzrə:

1.17.1. 114.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"114.4. Səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərar (qərardad) ciddi hesabat sənədi olmaqla, əl ilə və ya informasiya sistemləri vasitəsilə nömrələnmiş blanklarda, o cümlədən elektron qərar səlahiyyətli orqanların informasiya sistemlərində tərtib olunur. Bu Məcəllənin 327-356-cı maddələrində nəzərdə tutulmuş yol hərəkəti qaydaları, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan inzibati xətalarla bağlı inzibati tənbeh vermə haqqında qərar bu Məcəllə ilə müəyyən edilmiş qaydada bort-kompüter vasitəsilə, bort-kompüter olmadıqda isə əl ilə nömrələnmiş blanklarda tərtib olunur (bu Məcəllənin 122.1-ci maddəsində nəzərdə tutulan hal istisna olmaqla).";

1.17.2. aşağıdakı məzmunda 114.5-ci maddə əlavə edilsin:

"114.5. Səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərarın (qərardadın), o cümlədən elektron qərarın forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.";

1.18. 115.1.5-ci maddədə "və" sözü vergül işarəsi ilə əvəz edilsin və həmin maddəyə "növü" sözündən sonra ", o cümlədən inzibati cərimənin məbləği və ödənilməsi qaydası barədə məlumat" sözləri əlavə edilsin;

1.19. aşağıdakı məzmunda 117.3-cü və 117.4-cü maddələr əlavə edilsin:

"117.3. Məhkəmə inzibati xəta haqqında iş üzrə qərar qəbul etdiyi vaxtdan 3 gün müddətində onu həmin iş üzrə inzibati xəta haqqında protokolu tərtib etmiş səlahiyyətli orqana (vəzifəli şəxsə) və yainzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərar qəbul etmiş prokurora vəbarəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin məlumatlandırılması üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə, habelə həmin qərar barədə məlumatı "İCMAL" informasiya sisteminəgöndərir. Səlahiyyətli orqan (vəzifəli şəxs) və ya prokuror həmin qərar daxil olduğu vaxtdan 3 gün müddətində bu Məcəllənin 115.1-ci maddəsində nəzərdə tutulan məlumatları müvafiq olaraq səlahiyyətli orqanın informasiya sisteminə və ya "Elektron prokurorluq" informasiya sisteminə yerləşdirir.

117.4. Barəsində inzibati xəta haqqında iş üzrə qərar çıxarılmış şəxs məhkəmə tərəfindən çıxarılan inzibati xəta haqqında iş üzrə qərarlar barədə bu Məcəllənin 57-1.1-ci maddəsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq məlumatlandırılır.";

1.20. 122-ci maddə üzrə:

1.20.1. 122.1-ci maddənin birinci cümləsinə "şəklində" sözündən sonra "və bu Məcəllənin 122.1-1-ci maddəsinə uyğun olaraq "İCMAL" informasiya sistemi tərəfindən unikal nömrə verilməklə" sözləri əlavə edilsin;

1.20.2. aşağıdakı məzmunda 122.1-1-ci maddə əlavə edilsin:

"122.1-1. Foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrin məlumatları əsasında tərtib edilmiş inzibati tənbeh vermə haqqında elektron qərar təsdiq edilməmişdən əvvəl unikal nömrə verilməsi üçün "İCMAL" informasiya sisteminə ötürülür və həmin qərara real vaxt rejimində və avtomatlaşdırılmış qaydada unikal nömrə verildikdən sonra təsdiqlənməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müvafiq informasiya sisteminə göndərilir.";

1.20.3. 122.2-ci maddədə "mərkəzi" sözü "müəyyən etdiyi orqanın (qurumun) müvafiq" sözləri ilə əvəz edilsin;

1.20.4. 122.4-cü maddədə "125.2-ci" sözləri "57-1.1-ci" sözləri ilə əvəz edilsin;

1.20.5. 122.6-cı maddədə "125.2.1, 125.2.2 və ya 125.2.3-cü maddələrində" sözləri "57-1.1-ci maddəsində" sözləri ilə əvəz edilsin;

1.20.6. 122.7-ci maddənin birinci cümləsində dördüncü halda "və ya" sözləri "və" sözü ilə əvəz edilsin;

1.21. 123-cü maddə üzrə:

1.21.1. 123.1-ci maddədə "mərkəzi" sözü "müəyyən etdiyi orqanın (qurumun) müvafiq" sözləri ilə əvəz edilsin;

1.21.2. 123.2-ci maddə üzrə:

1.21.2.1. ikinci cümləyə "olmadan" sözündən sonra "bu Məcəllənin 124.4-cü maddəsi ilə müəyyən olunmuş qaydada" sözləri əlavə edilsin;

1.21.2.2. üçüncü cümlədə "İnzibati tənbeh vermə haqqında qərar həmin günün sonunadək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müvafiq informasiya sistemində yerləşdirilir və barəsində" sözləri "Barəsində" sözü ilə, "125.2-ci" sözləri "57-1.1-ci" sözləri ilə əvəz edilsin;

1.22. 124-cü maddə üzrə:

1.22.1. 124.1-ci maddə üzrə:

1.22.1.1. ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Məhkəmənin inzibati xəta haqqında iş üzrə qəbul etdiyi qərarının göndərilməsi, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müvafiq informasiya sisteminə ötürülməsi bu Məcəllənin 117.3-cü maddəsində nəzərdə tutulmuş qaydada və müddətdə həyata keçirilir.";

1.22.1.2.üçüncü cümlə çıxarılsın;

1.22.1.3. dördüncü cümlədə "125.2-ci" sözləri "57-1.1-ci" sözləri ilə əvəz edilsin;

1.22.2. 124.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

*Ardı 3-cü səh.*

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 2-ci səh.*

"124.4. İnzibati tənbeh vermə haqqında qərar və ya inzibati xəta haqqında protokol operativ nəqliyyat vasitəsində quraşdırılmış bort-kompüter vasitəsilə bu Məcəllənin 45-2.3-cü maddəsinə uyğun olaraq "İCMAL" informasiya sistemi tərəfindən unikal nömrə verilməklə tərtib olunur və dərhal müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müvafiq informasiya sistemində yerləşdirilərək, nömrələnmiş blankda çap edilərək imzalanır. Bort-kompüter olmadıqda əl ilə nömrələnmiş blankda tərtib edilmiş protokol və ya qərar 24 saat müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müvafiq informasiya sisteminə daxil edilir və bu Məcəllənin 45-2.1-ci maddəsinə uyğun olaraq bu barədə məlumat dərhal "İCMAL" informasiya sisteminə ötürülür. Bu məlumatlar əsasında həmin protokola və qərara "İCMAL" informasiya sistemində real vaxt rejimində və avtomatlaşdırılmış qaydada unikal nömrə verildikdən sonra həmin protokol və qərar real vaxt rejimində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müvafiq informasiya sisteminə göndərilir.";

1.22.3. aşağıdakı məzmunda 124.4-1-ci maddə əlavə edilsin:

"124.4-1. Bu Məcəllənin 124.4-cü maddəsində nəzərdə tutulmuş qaydada tərtib edilmiş inzibati tənbeh vermə haqqında qərarın və ya inzibati xəta haqqında protokolun kağız daşıyıcıda surəti səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən yerində barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsə, həmçinin belə müraciəti olduqda inzibati xəta haqqında iş üzrə zərərçəkmiş şəxsə verilir. Bu Məcəllənin 124.3-cü maddəsində nəzərdə tutulmuş hallarda inzibati xəta haqqında protokol baxılması üçün yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) göndərilir. Yuxarı səlahiyyətli orqan (vəzifəli şəxs) həmin iş üzrə bu Məcəllənin 124.4-cü maddəsinə uyğun olaraq əl ilə nömrələnmiş blankda tərtib edilmiş qərar qəbul edir.";

1.22.4. 124.5-ci maddənin üçüncü cümləsinə birinci halda "qərar" sözündən sonra "bu Məcəllənin 124.4-cü maddəsində nəzərdə tutulmuş qaydada" sözləri əlavə edilsin və həmin cümlədən "və barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsə həmin qərar barədə bu Məcəllənin 125.2-ci maddəsində nəzərdə tutulmuş qaydada məlumat verilir" sözləri çıxarılsın;

1.22.5. 124.6-cı maddənin üçüncü cümləsinə birinci halda "qərar" sözündən sonra "bu Məcəllənin 124.4-cü maddəsində nəzərdə tutulmuş qaydada" sözləri əlavə edilsin və həmin cümlədən "və barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsə həmin qərar barədə bu Məcəllənin 125.2.1 və 125.2.2-ci maddələrində nəzərdə tutulmuş qaydada məlumat verilir" sözləri çıxarılsın;

1.23. 125-ci maddə üzrə:

1.23.1. 125.1-ci maddədə ", həmçinin müvafiq icra hakimiyyəti orqanının informasiya sisteminə yerləşdirilir" sözləri "inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin məlumatlandırılması üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə göndərilir" sözləri ilə əvəz edilsin;

1.23.2. 125.2-ci maddə üzrə:

1.23.2.1. birinci abzasda "aşağıdakı" sözü "bu Məcəllənin 57-1.1-ci maddəsində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilsin və həmin abzasın sonunda iki nöqtə işarəsi nöqtə işarəsi ilə əvəz edilsin;

1.23.2.2. 125.2.1-125.2.3-cü maddələr ləğv edilsin;

1.23.3. 125.3-cü və 125.4-cü maddələr ləğv edilsin;

1.23.4. 125.6-cı maddədə "mərkəzi" sözü "müəyyən etdiyi orqanın (qurumun) müvafiq" sözləri ilə əvəz edilsin;

1.24. 126-cı maddə üzrə:

1.24.1. 126.1-ci maddənin birinci cümləsində "və ya" sözləri "və" sözü ilə əvəz edilsin;

1.24.2. 126.3-cü maddəyə "qərarlar" sözündən sonra "əl ilə nömrələnmiş blankda tərtib edilərək bu Məcəllənin 124.4-cü maddəsinə uyğun olaraq" sözləri əlavə edilsin və həmin maddədə "125.2-ci" sözləri "57-1.1-ci" sözləri ilə əvəz edilsin;

1.25. 127-ci maddədə "125.2-ci" sözləri "57-1.1-ci" sözləri ilə əvəz edilsin;

1.26. 127-1.1-ci maddənin ikinci cümləsində və 127-1.5-ci maddədə "mərkəzi" sözü "müvafiq" sözü ilə əvəz edilsin;

1.27. 16-1-ci fəslin adı,127-3-cü və 127-4-cü maddələr aşağıdakı redaksiyada verilsin:

**"FƏSİL 16-1**

**Dövlət informasiya sistemlərindən (ehtiyatlarından) istifadə edilməklə aşkar olunmuş inzibati xətalarla bağlı işlərə baxılmanın xüsusiyyətləri";**

**"Maddə 127-3. İnzibati xəta dövlət informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar edildikdə icraatın aparılması qaydası**

127-3.1. Bu Məcəllənin 191.2-ci, 192.1-ci, 192.3-cü, 194-cü, 195.2-ci, 469-1-ci, 477-1.1.2-ci, 477-1.1.4-cü və 540.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar üzrə dövlət informasiya sistemlərindən (ehtiyatlarından) istifadə edilməklə aşkar olunmuş inzibati xətalar haqqında işlərə, bu fəsillə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla, bu Məcəllə ilə müəyyən edilmiş qaydada baxılır.

127-3.2. Bu Məcəllənin 127-3.1-ci maddəsində göstərilən inzibati xətalar dövlət informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar edildikdə, inzibati xətanı törətmiş şəxsin iştirakı olmadan real vaxt rejimində səlahiyyətli orqanların informasiya sistemlərində "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada və bu Məcəllənin 45-2.3-cü maddəsinə uyğun olaraq "İCMAL" informasiya sistemi tərəfindən unikal nömrə verilməklə elektron sənəd şəklində hüquqi şəxslər, o cümlədən onların vəzifəli şəxsləri barəsində inzibati xəta haqqında elektron protokol tərtib olunur, fiziki və vəzifəli şəxslər (hüquqi şəxs barəsində elektron protokol tərtib edilmədiyi halda) barəsində isə inzibati tənbeh vermə haqqında elektron qərar çıxarılır və səlahiyyətli orqanın müvafiq səlahiyyətli əməkdaşının gücləndirilmiş elektron imzası ilə təsdiqlənir.

127-3.3. Səlahiyyətli orqanların informasiya sistemlərində tərtib edilən inzibati xəta haqqında elektron protokolda aşağıdakı məlumatlar göstərilir:

127-3.3.1. protokolun tərtib edildiyi tarix və vaxt;

127-3.3.2. inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan orqanın və həmin protokolu tərtib etmək üçün istifadə edilən dövlət informasiya sisteminin (ehtiyatının) adı;

127-3.3.3. inzibati xətanın törədilməsi ilə bağlı müəyyən edilən (aşkar olunan) məlumatlar;

127-3.3.4. barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan vəzifəli şəxs haqqında (soyadı, adı, atasının adı, vəzifəsi, fərdi identifikasiya nömrəsi və yaşadığı ünvan) və hüquqi şəxs haqqında (adı, VÖEN-i, hüquqi və faktiki ünvanları) məlumatlar;

127-3.3.5. inzibati xətaya görə məsuliyyət nəzərdə tutan bu Məcəllənin müvafiq maddəsi və həmin maddə üzrə cərimənin məbləği;

127-3.3.6. bu Məcəllənin 127-3.6-cı və 127-3.7-ci maddələrinin izahı.

127-3.4. Dövlət informasiya sistemlərindən (ehtiyatlarından) istifadə edilməklə aşkar olunmuş inzibati xətalarla bağlı çıxarılan inzibati tənbeh vermə haqqında elektron qərarda aşağıdakılar göstərilir:

127-3.4.1. qərarın çıxarıldığı tarix və vaxt;

127-3.4.2. inzibati xətalar haqqında işlər üzrə qərar qəbul etmək səlahiyyəti olan orqanın və həmin qərarı çıxarmaq üçün istifadə edilən dövlət informasiya sisteminin (ehtiyatının) adı;

127-3.4.3. inzibati xətanın törədilməsi ilə bağlı müəyyən edilən (aşkar olunan) məlumatlar;

127-3.4.4. barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki və ya vəzifəli şəxs haqqında məlumatlar (soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi (əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin müvəqqəti, yaxud daimi yaşamaq üçün icazə vəsiqələrinin, habelə qaçqın vəsiqəsinin seriyası və nömrəsi), yaşayış yeri və olduğu yer, doğum tarixi, fiziki şəxs işlədiyi halda iş yeri, sahibkarlıq fəaliyyəti ilə məşğul olduqda VÖEN-i, vəzifəli şəxsə münasibətdə habelə vəzifəsi);

127-3.4.5. inzibati xətaya görə məsuliyyət nəzərdə tutan bu Məcəllənin müvafiq maddəsi;

127-3.4.6. inzibati cərimənin məbləği və ödənilməsi qaydası barədə məlumatlar;

127-3.4.7. inzibati tənbeh vermə haqqında elektron qərardan bu Məcəllənin 127-4.1-ci maddəsinə uyğun olaraq şikayətin verilməsi qaydası və müddəti.

127-3.5. Dövlət informasiya sistemlərinin (ehtiyatlarının) məlumatları inzibati xəta haqqında iş üzrə icraat başa çatanadək və hər bir halda barəsində inzibati icraat aparılan şəxs inzibati xəta haqqında iş üzrə qərar barədə bu Məcəllənin 57-1-ci maddəsində nəzərdə tutulmuş qaydada məlumatlandırıldığı vaxtdan üç aydan az olmayan müddətdə saxlanılmalıdır.

127-3.6. Barəsində bu Məcəllənin 127-3.2-ci maddəsində nəzərdə tutulmuş qaydada inzibati xəta haqqında elektron protokol tərtib edilmiş hüquqi şəxs, o cümlədən onun vəzifəli şəxsi qeyd olunan inzibati cəriməni həmin protokol barədə bu Məcəllənin 57-1-ci maddəsində nəzərdə tutulmuş qaydada məlumatlandırıldığı vaxtdan on gün müddətində ödədikdə protokolla razılaşmış olur və həmin protokol eyni məzmunlu inzibati tənbeh vermə haqqında elektron qərar hesab edilir.

127-3.7. Barəsində bu Məcəllənin 127-3.2-ci maddəsində nəzərdə tutulmuş qaydada inzibati xəta haqqında elektron protokol tərtib edilmiş hüquqi şəxs, o cümlədən onun vəzifəli şəxsi bu Məcəllənin 127-3.6-cı maddəsində nəzərdə tutulmuş müddətdə cəriməni ödəmədikdə həmin protokol baxılması üçün iki gün müddətində səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən məhkəməyə göndərilir.

127-3.8. Bu Məcəllənin 127-3.2-ci maddəsinə əsasən inzibati xəta haqqında elektron protokol tərtib edildikdə və yaxud inzibati tənbeh vermə haqqında elektron qərar çıxarıldıqda inzibati cərimənin məbləği həmin inzibati xətaya görə məsuliyyət nəzərdə tutan bu Məcəllənin müvafiq maddəsinin sanksiyasında nəzərdə tutulan cərimənin aşağı həddində müəyyən olunur.

127-3.9. Barəsində inzibati xəta haqqında elektron protokol tərtib edilmiş və ya inzibati tənbeh vermə haqqında elektron qərar çıxarılmış şəxs bu Məcəllənin 57-1-ci maddəsi ilə müəyyən edilmiş qaydada məlumatlandırıldığı vaxtdan təyin olunmuş cəriməni ödəniş kartı və digər ödəmə alətləri vasitəsilə ödəyə bilər.

**Maddə 127-4. Dövlət informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar olunmuş inzibati xəta haqqında iş üzrə çıxarılan inzibati tənbeh vermə haqqında elektron qərardan şikayətə baxılma qaydası**

127-4.1. Barəsində bu Məcəllənin 127-3.2-ci maddəsində nəzərdə tutulmuş qaydada inzibati tənbeh vermə haqqında elektron qərar çıxarılmış fiziki şəxs və ya vəzifəli şəxs qərarla razılaşmadığı hallarda həmin qərar ona bu Məcəllənin 57-ci maddəsi ilə müəyyən olunmuş rəsmi qaydada verildiyi vaxtdan iyirmi gün müddətində yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) və məhkəməyə şikayət verə bilər. Şikayət şəxsən verilə və ya poçt, yaxud internet vasitəsilə elektron qaydada göndərilə bilər.

127-4.2. Dövlət informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar olunmuşinzibati xəta haqqında iş üzrə səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən çıxarılan inzibati tənbeh vermə haqqında elektron qərarlardan şikayət verildikdə, yuxarı səlahiyyətli orqan (vəzifəli şəxs) araşdırma aparmaqla qərarın ləğv edilməsi üçün əsaslar müəyyən edərsə, inzibati xəta haqqında iş üzrə elektron qərarı ləğv edir, belə əsaslar müəyyən olunmadıqda isə inzibati xəta haqqında iş üzrə elektron qərarın dəyişdirilmədən saxlanılması barədə qərar qəbul edir.

127-4.3. Bu Məcəllənin 127-4.2-ci maddəsində nəzərdə tutulmuş qərarlar müvafiq səlahiyyətli orqanın informasiya sistemində yerləşdirilir və həmin qərar "İCMAL" informasiya sisteminə və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.";

1.28. 127-5-ci və 127-6-cı maddələr ləğv edilsin;

1.29. 128.2-ci maddənin birinci abzasında ikinci halda və 128.2.3-cü maddədə"və ya" sözləri "və" sözü ilə əvəz edilsin;

1.30. 130.1-ci maddədə "maddəsində" sözü "və 127-4.1-ci maddələrində" sözləri ilə, "57.1-57.5-ci maddələrində" sözləri "57-ci maddəsində" sözləri ilə əvəz edilsin;

1.31. aşağıdakı məzmunda 136.2-1-ci və 136.2-2-ci maddələr əlavə edilsin:

"136.2-1. İnzibati xəta haqqında iş üzrə qərardan verilən şikayət və ya protest üzrə məhkəmə qərarlarının səlahiyyətli orqana (vəzifəli şəxsə) və prokurora göndərilməsi, müvafiq sistemlərə yerləşdirilməsi, ötürülməsi bu Məcəllənin 117.3-cü maddəsində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

136.2-2. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin və zərərçəkmiş şəxsin yuxarı səlahiyyətli orqanın (vəzifəli şəxsin) inzibati xəta haqqında iş üzrə qərardan verilən şikayət üzrə çıxarılan qərarları barədə məlumatlandırılması bu Məcəllənin 57-1-ci maddəsində nəzərdə tutulmuş qaydada həyata keçirilir.";

1.32. 150-ci maddə üzrə:

1.32.1. aşağıdakı məzmunda 150.1-1-ci maddə əlavə edilsin:

"150.1-1. İnzibati cərimə növündə inzibati tənbeh vermə haqqında səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarı qanuni qüvvəyə mindiyi gündən 10 gün müddətində icra edilərsə, tətbiq olunan cərimənin 10 faizi məbləğində ödənişdən azadolma tətbiq edilir.";

1.32.2. 150.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"150.4. İnzibati cərimə ödəniş kartı və digər ödəmə alətləri vasitəsilə ödənilir. Cərimənin ödənilməsi qaydası barədə müvafiq məlumat inzibati xətanı törətmiş şəxsə bu Məcəllənin 57-1.1-ci və 57-1.4-cü maddələrinə uyğun olaraq verilir. İnzibati cərimənin ödənilməsi ilə əlaqədar məlumatlar real vaxt rejimində elektron qaydada səlahiyyətli orqanların informasiya sistemlərinə və "İCMAL" informasiya sisteminə göndərilir.";

1.32.3. 150.5-ci maddədə "qərarın" sözü "qərar elektron qaydada, bu mümkün olmadıqda isə onun kağız daşıyıcıda" sözləri ilə əvəz edilsin;

1.32.4. 150.11-ci maddənin yeddinci cümləsi çıxarılsın;

1.32.5. 150.13-1-ci maddəyə "göndərilir" sözündən sonra "və bu barədə məlumat "İCMAL" informasiya sisteminə ötürülür" sözləri əlavə edilsin;

1.32.6. 150.14-cü maddə ləğv edilsin;

1.32.7. aşağıdakı məzmunda 150.17-ci maddə əlavə edilsin:

"150.17. İnzibati cərimələrin qaytarılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.";

1.33. 339.5-ci maddənin dispozisiyası üzrə:

1.33.1. "123.2,", ", 125.4" və ", 125.3" rəqəmləri çıxarılsın;

1.33.2. ikinci halda "Məcəllənin" sözündən sonra "57-1.3," rəqəmləri, üçüncü halda "Məcəllənin" sözündən sonra "57-1.2," rəqəmləri əlavə edilsin;

1.33.3. "mərkəzi" sözü "müəyyən etdiyi orqanın (qurumun) müvafiq" sözləri ilə əvəz edilsin.

**Maddə 2. Keçid müddəalar**

2.1. Bu Qanun 2025-ci il avqustun 1-dən qüvvəyə minir.

2.2. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 45-ci maddəsində nəzərdə tutulan inzibati xətalar haqqında işlər barədə elektron informasiya ehtiyatları və sistemləri mövcud olmayan səlahiyyətli orqanlar öz elektron informasiya ehtiyatının və sisteminin yaradılmasını təmin edənə qədər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemində həmin orqanlar üçün yaradılmış elektron kabinetlərdən istifadə edirlər.

2.3. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 45-1-ci maddəsində nəzərdə tutulan informasiya sistemi fəaliyyətə başlayana qədər inzibati xəta haqqında protokollar və səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərarlar (qərardadlar) bu Qanun qüvvəyə mindiyi tarixədək qüvvədə olan Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən olunmuş qaydada tərtib və icra olunur.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2025-ci il*

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 225-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 225-VIIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 9-cu fəslinin və 45-1-ci maddəsinin adlarında, 45-1.1-ci, 45-1.4-cü maddələrində, 45-2.1-ci maddəsinin ikinci cümləsində, 45-2.4-cü maddəsində, 57.5-1-ci- və 57-1.1-ci maddələrinin birinci abzaslarında, 57-1.1.1-57-1.1.3-cü maddələrində, 57-1.2-ci maddəsinin ikinci cümləsində, 57-1.3-cü, 97.5-ci, 100.8-ci, 110.3-cü, 114.5-ci maddələrində, 117.3-cü maddəsinin birinci cümləsində, 122.1-1-ci, 122.2-ci, 123.1-ci maddələrində, 124.1-ci maddəsinin ikinci cümləsində, 124.4-cü maddəsinin birinci-üçüncü cümlələrində, 125.1-ci (ikinci halda), 125.6-cı (birinci halda), 127-4.3-cü,150.17-ci və 339.5-ci (birinci halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 100.8-ci, 114.5-ci və 150.17-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 9-cu fəslinin və 45-1-ci maddəsinin adlarında, 45-1.1-ci və 45-1.4-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 45-2.1-ci maddəsinin ikinci cümləsində, 45-2.4-cü maddəsində, 57.5-1-ci və 57-1.1-ci maddələrinin birinci abzaslarında, 57-1.1.1-ci, 57-1.1.2-ci maddələrində, 57-1.2-ci maddəsinin ikinci cümləsində, 117.3-cü maddəsinin birinci cümləsində, 125.1-ci, 127-4.3-cü maddələrində "orqanın (qurumun) informasiya sistemi" və 124.1-ci maddəsinin ikinci cümləsində "orqanın (qurumun) müvafiq informasiya sistemi" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN ödəniş" informasiya sistemi nəzərdə tutulur;

1.5. həmin Məcəllənin 57-1.1.3-cü və 57-1.3-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Məcəllənin 97.5-ci, 110.3-cü, 122.2-ci, 123.1-ci, 125.6-cı maddələrində, 127-1.1-ci maddəsinin ikinci cümləsində, 127-1.5-ci və 339.5-ci maddələrində "orqanın (qurumun) müvafiq informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi nəzərdə tutulur;

1.7. həmin Məcəllənin 122.1-1-ci maddəsində və 124.4-cü maddəsinin birinci-üçüncü cümlələrində"orqanın (qurumun) müvafiq informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi, Bakı şəhərinin inzibati ərazisində parklanma qaydalarının pozulmasına münasibətdə isə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "AYNA" informasiya sistemi nəzərdə tutulur;

1.8. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 225-VIIQD nömrəli Qanununun 2.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.9. həmin Qanunun 2.2-ci maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN ödəniş" informasiya sistemi nəzərdə tutulur.

2. "İnzibati Cərimələrin Mərkəzi Avtomatlaşdırılmış Lövhəsi" (bundan sonra - "İCMAL") informasiya sistemi yaradılsın.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 225-VIIQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. "İCMAL" informasiya sistemi haqqında əsasnamənin layihəsini hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.3. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 150.17-ci maddəsinə uyğun olaraq, inzibati cərimələrin qaytarılması qaydasını altı ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklikedilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 225-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

4.1. "İCMAL" informasiya sisteminin formalaşdırılması, aparılması, fəaliyyətinin təşkili və inkişaf etdirilməsi üçün zəruri tədbirlər görsün;

4.2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə "İCMAL" informasiya sisteminin Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq "Hökumət buludu"nda yerləşdirilməsi, aparılması və təkmilləşdirilməsi, habelə "İCMAL" informasiya sisteminin "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görsün.

5. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

6. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi:

6.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 45.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər barədə elektron informasiya ehtiyatları və sistemləri mövcud olmayan səlahiyyətli orqanlar üçün "ASAN ödəniş" informasiya sistemində- müvafiq elektron kabinetlərin yaradılmasını və onlarınfəaliyyətini təmin etsin;

6.2. "ASAN ödəniş" informasiya sisteminin infrastrukturunun təkmilləşdirilməsi və fəaliyyətinin təşkili ilə bağlı xərclərin maliyyələşdirilməsinə dair təkliflərini hər ilin dövlət büdcəsində nəzərə alınması üçün "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş müddətdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin.

7. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948, № 12 (I kitab), maddə 1294, (II kitab), maddələr 1359, 1378, 1384; 2025, № 2, maddə 127, № 3, maddə 231, № 4 (I kitab), maddələr 325, 338, № 6, maddələr 541, 561; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 may tarixli 401 nömrəli Fərmanı) 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

7.1. 4.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"4.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 40.0.3, 42.2, 43.1 (birinci-üçüncü hallarda), 43.2, 43.3-cü maddələrində, 9-cu fəslinin və 45-1-ci maddəsinin adlarında, 45-1.1, 45-1.4-cü maddələrində, 45-2.1-ci maddəsinin ikinci cümləsində, 45-2.4-cü maddəsində, 54.2-ci maddəsinin birinci cümləsində, 54.2-1-ci (hər iki halda) maddəsində, 57.5-1 və 57-1.1-ci maddələrinin birinci abzaslarında, 57-1.1.1-57-1.1.3-cü maddələrində, 57-1.2-ci maddəsinin ikinci cümləsində, 57-1.3, 81.2, 97.1-ci maddələrində, 97.3-cü maddəsinin birinci və üçüncü cümlələrində, 97.5, 100.8, 110.3, 114.5-ci maddələrində, 117.3-cü maddəsinin birinci cümləsində,122.1-ci maddəsinin birinci və üçüncü cümlələrində, 122.1-1, 122.2-ci maddələrində, 122.5-ci maddəsinin ikinci cümləsində, 123.1-ci maddəsində, 124.1-ci maddəsinin ikinci cümləsində, 124.4-cü maddəsinin birinci-üçüncü cümlələrində, 124.5-ci maddəsinin üçüncü cümləsində, 124.6-cı maddəsinin üçüncü cümləsində, 125.1 (hər iki halda), 125.6 (birinci halda), 126.3-cü maddələrində,127-1.1-ci maddəsinin ikinci cümləsində (hər iki halda), 127-1.2, 127-1.3, 127-1.5 (hər iki halda), 127-1.8, 127-4.3, 150.13-1, 150.17, 152.3, 162.3, 162-1.1, 184.6, 184.9, 192.3, 220.7, 220.10 (hər iki halda), 231.2,275.2, 293.12, 294-3.2, 294-3.3, 295.6, 307.4 (hər iki halda), 307.5, 326-2.3, 339.5 (birinci halda), 350.2, 354.0.8, 362-3.1, 363.2, 393-1.4, 393-1.6, 394.0.7 (ikinci halda), 394.0.8, 395.1-ci (ikinci halda) maddələrində, 395-ci maddəsinin "Qeyd" hissəsində (ikinci halda), 395.1-1, 403-1.1.1, 403-1.1.2, 403-1.2, 405-1.2, 428.7.3, 429.0.2, 445-1.2, 445-1.3 (hər iki halda), 445-1.4, 462.1, 477-1.1.7 (hər iki halda), 477-2.1.2, 538-1.4-538-1.6, 540.2, 540.3-cü (hər iki halda) maddələrində, 552-ci maddəsinin adında və mətnində, 562.1, 562.2, 562-1.1, 562-1.2 (hər iki halda), 576.3 (hər iki halda), 576.4, 602-2.5-ci (hər iki halda) maddələrində və 606-cı maddəsinin "Qeyd" hissəsinin 1-ci bəndində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

7.2. 4.3-cü bənddə "94.11, 100.5, 114.4-cü" sözləri "94.11-ci" sözləri ilə əvəz edilsin;

7.3. 4.3-1-ci bəndə "Məcəllənin" sözündən sonra "100.8-ci, 114.5-ci, 150.17-ci," sözləri əlavə edilsin;

7.4. 4.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

"4.8. həmin Məcəllənin 97.5, 110.3, 122.2, 123.1,125.6-cı maddələrində, 127-1.1-ci maddəsinin ikinci cümləsində, 127-1.5 və 339.5-ci maddələrində"orqanın (qurumun) müvafiq informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi nəzərdə tutulur;";

7.5. 4.8-2-ci bənd üzrə:

7.5.1. "123.2-ci maddəsinin üçüncü cümləsində" sözləri "122.1-1-ci maddəsində" sözləri ilə əvəz edilsin;

7.5.2. "birinci və dördüncü" sözləri "birinci-üçüncü" sözləri ilə əvəz edilsin;

7.5.3. ", 125.2.3-cü maddələrində, 125.3-cü maddəsinin ikinci cümləsində və 126.3-cü maddəsində" sözləri "və 126.3-cü maddələrində" sözləri ilə əvəz edilsin;

7.6. 4.9-cu bənddən "124.1-ci maddəsinin ikinci və üçüncü cümlələrində," sözləri çıxarılsın;

7.7. 4.14-cü bənddən "125.1, 125.2.1, 125.2.2, 125.3," rəqəmləri çıxarılsın;

7.8. 4.14-1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"4.14-1. həmin Məcəllənin 45-2.1-ci maddəsinin ikinci cümləsində, 45-2.4-cü maddəsində, 57.5-1 və 57-1.1-ci maddələrinin birinci abzaslarında, 57-1.1.1, 57-1.1.2-ci maddələrində, 57-1.2-ci maddəsinin ikinci cümləsində, 117.3-cü maddəsinin birinci cümləsində, 125.1, 127-4.3-cü maddələrində "orqanın (qurumun) informasiya sistemi" və 124.1-ci maddəsinin ikinci cümləsində"orqanın (qurumun) müvafiq informasiya sistemi" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN ödəniş" informasiya sistemi nəzərdə tutulur;";

7.9. 4.15-ci bənddən "125.2.3 (ikinci halda),125.4 (birinci halda)," sözləri çıxarılsın;

7.10. 4.15-2-ci bənd ləğv edilsin;

7.11. 4.15-4-cü bənddə"127-5.1.3-cü (ikinci halda) və 127-5.3-cü maddəsində (birinci halda)" sözləri "57-1.1.3 və 57-1.3-cü" sözləri ilə əvəz edilsin;

7.12. 4.16-cı bənd ləğv edilsin;

7.13. 4.20-1-ci bənddən "127-4.1-ci (üçüncü halda), 127-4.6-cı," sözləri çıxarılsın;

7.14. 4.20-2-ci və 4.20-3-cü bəndlər ləğv edilsin;

7.15. 4.55-ci bənddə "462.1-ci maddəsində" sözləri "9-cu fəslinin və 45-1-ci maddəsinin adlarında, 45-1.1, 45-1.4 və 462.1-ci maddələrində" sözləri ilə əvəz edilsin.

8. Bu Fərmanın 1-ci və 7-ci hissələri 2025-ci il avqustun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 iyul 2025-ci il*

## Azərbaycan Respublikasının ərazisində təyinatından asılı olmayaraq yerinə yetirilən bütün növ geodeziya, qravimetriya, topoqrafiya, kartoqrafiya və kadastr işlərində yeni koordinat sisteminin tətbiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, geodeziya və kartoqrafiya sahəsinin dünya geodeziya şəbəkəsinə inteqrasiyası və geodeziya koordinat sisteminin vahidliyinin təmin edilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının ərazisində təyinatından asılı olmayaraq yerinə yetirilən bütün növ geodeziya, qravimetriya, topoqrafiya, kartoqrafiya, kadastr işlərində UTM-ə (xəritə proyeksiyası) əsaslanan WGS-84 (beynəlxalq koordinat sistemi) tətbiq edilsin.

2. Digər geodeziya koordinat sistemləri ilə icrasına başlanılmış və tamamlanmamış layihələr üzrə yerinə yetirilən geodeziya, qravimetriya, topoqrafiya, kartoqrafiya və kadastr işləri başa çatanadək həmin koordinat sistemlərinin tətbiqi davam etdirilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 iyul 2025-ci il*

## "Dövlət İnvestisiya Proqramına daxil edilən investisiya layihələrinin icrasının monitorinqi və nəticələrinin qiymətləndirilməsi Qaydaları"nın təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 215** **Bakı şəhəri, 16 iyul 2025-ci il**

"Dövlət investisiya proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 dekabr tarixli 257 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Dövlət İnvestisiya Proqramına daxil edilən investisiya layihələrinin icrasının monitorinqi və nəticələrinin qiymətləndirilməsi Qaydaları"təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi aidiyyəti dövlət orqanları ilə birlikdə Dövlət İnvestisiyalarının İdarəedilməsi İnformasiya Sisteminin yaradılması və tətbiqi istiqamətində tədbirlər görsün.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 yanvar tarixli 4 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tikintilərin Dövlət reyestrinə daxil edilən məlumatların tərkibi, həmin məlumatların təqdim edilməsi və reyestrin aparılması Qaydaları"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 216** **Bakı şəhəri, 16 iyul 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2181 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 dekabr tarixli 276 nömrəli Fərmanının 6.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 1, maddə56 (Cild I); 2024, № 4, maddə 440, № 6 (II kitab), maddə 730, № 9, maddə 1090) ilə təsdiq edilmiş "Tikintilərin Dövlət reyestrinə daxil edilən məlumatların tərkibi, həmin məlumatların təqdim edilməsi və reyestrin aparılması Qaydaları"nın 2.1-ci bəndinə "qeyri-yaşayış binalarını" sözlərindən sonra "(infrastruktur obyektlərini)" sözləri, 4-1.1.1-ci, 4-1.1.2-ci, 4-1.1.4-4-1.1.9-cu yarımbəndlərinə "qeyri-yaşayış binasının" sözlərindən sonra "(infrastruktur obyektinin)" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 217** **Bakı şəhəri, 17 iyul 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 373 (Cild I); 2024, № 4, maddə 451, № 7, maddə 900, № 10, maddə 1169; 2025, № 2, maddə 182, № 4 (II kitab), maddə 412) 2-ci hissəsində "iyulun" sözü "oktyabrın" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Belçika Nümayəndələr Palatasının qətnaməsinə Azərbaycan Respublikası Milli Məclisinin münasibəti

**Azərbaycan Respublikasının Milli Məclisi Belçika Nümayəndələr Palatasının 2025-ci il iyulun 17-də qəbul etdiyi birtərəfli və qərəzli qətnamə ilə əlaqədar kəskin etirazını bildirir və qətnamədə ölkəmizə qarşı irəli sürülən əsassız ittihamları qətiyyətlə rədd edir.**



Yoxlanılmamış, yanlış və birtərəfli məlumatlar üzərində qurulan bu sənədin müəllifləri son dövrdə Cənubi Qafqaz regionunda təşəkkül tapmış siyasi, hüquqi və humanitar şəraiti görməzdən gəlir, beynəlxalq hüquq prinsiplərinə və normalarına etinasızlıq göstərir, hər bir parlamentin rəhbər tutmalı olduğu ədalət və obyektivlik meyarlarını saya salmırlar.

Qətnamədə Azərbaycan Respublikasının öz ərazi bütövlüyünü bərpa etmək kimi qanuni və suveren hüququ, əslində, inkar edilir. 2023-cü ilin sentyabrında Azərbaycanın həyata keçirdiyi antiterror əməliyyatı yalnız Qarabağ ərazisində fəaliyyət göstərən Ermənistan ordusunun qalıqlarına və qeyri-qanuni silahlı dəstələrə qarşı yönəlmişdi və beynəlxalq hüquqa tam uyğun idi. Bu əməliyyatın gedişində heç bir mülki şəxsə ziyan vurulmamış, dini və ya mədəni abidələr zədələnməmişdir.

Belçika parlamenti üzvlərinin Azərbaycanı "müharibə cinayətlərində" və "insan hüquqlarının pozuntularında" ittiham etmək cəhdləri əsassızdır və siyasi motivlərlə bağlıdır. Qətnamədə Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən 30 il ərzində işğal altında saxlanılmasının, bu dövrdə dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş çoxsaylı cinayətlərin, soyqırımı aktlarının, etnik təmizləmə nəticəsində 750 min azərbaycanlının öz vətənində didərgin salınmasının, şəhər və kəndlərimizin dağıdılmasının, milli, mədəni, dini və tarixi mirasımızın talan və təhqir edilməsinin üzərindən sükutla keçilmişdir. Əvəzində isə öz torpağında sülhü və ədaləti bərqərar etməyə çalışan Azərbaycan haqsız hücumlara məruz qoyulmuşdur.

Qətnamənin "qanunsuz həbslər" ilə bağlı hissəsinə gəlincə, xatırlatmaq yerinə düşər ki, hazırda Bakıda məhkəmə istintaqına cəlb edilən erməni milliyyətli şəxslər Azərbaycan ərazisində hərbi təcavüz, müharibə cinayətləri, zorakılıqla yoxa çıxarma, işgəncə vermə, terrorçuluq və s. kimi cinayətlər törətməkdə təqsirləndirilirlər. Onların müvafiq hüquqları təmin edilir, məhkəmə prosesi şəffaf aparılır və amansız rəftarla bağlı heç bir şikayət yoxdur. Bunun əksinə olan iddiaların irəli sürülməsi suveren dövlətin daxili işlərinə qarışmaqdan başqa bir şey deyildir.

Bu da təəssüflə qeyd edilməlidir ki, qətnamədə Ermənistandan kütləvi surətdə deportasiya edilmiş və ya zorla qovulmuş yüz minlərlə azərbaycanlının dinc yolla ata-baba torpaqlarına qayıtmaq hüququnu nəzərdə tutan "Qərbi Azərbaycan" anlayışı ilə bağlı təxribatçı və yanlış təfsirə yol verilmişdir. Bu anlayış tarixi yaddaşına sadiq olan xalqımızın haqq-ədalət istəyini ifadə edir və beynəlxalq hüquqa tam uyğundur.

Qətnamədə bəyan edilmiş məqsədlərə zidd olaraq, bu sənəd sülh yaradılması səylərinə heç də kömək göstərmir. Son vaxtlar sülh gündəliyinin irəli aparılması üçün ciddi addımların atıldığı bir şəraitdə Belçika, İsveçrə kimi ölkələrin parlamentlərində, Avropa Parlamentində erməni diasporu ilə əlaqəsi olan qüvvələr sülh prosesini pozmağa, regionda yeni gərginlik ocağı yaratmağa çalışırlar.

Azərbaycan Respublikasının Milli Məclisi Belçika Nümayəndələr Palatasının üzvlərini obyektiv yanaşmaya əsaslanmayan bu cür sənədlərin qəbulu praktikasından əl çəkməyə, beynəlxalq hüquq prinsiplərinə və normalarına, regionun bütün xalqlarının hüquqlarına hörmətlə yanaşmağa, vəziyyəti gərginləşdirə bilən addımlardan çəkinməyə çağırır.

# Şuşa Qlobal Media Forumunun iştirakçıları Füzuli rayonuna gəliblər

**Milli mətbuatımızın 150 illiyi münasibətilə Şuşa şəhərində keçiriləcək "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" adlı Qlobal Forumun iştirakçılarının Azərbaycanın mədəniyyət paytaxtına səfəri başlayıb.**

AZƏRTAC xəbər verir ki, forum iştirakçıları təyyarə ilə Füzuli Beynəlxalq Hava Limanına gəliblər.

Qeyd edək ki, 3-cü Şuşa Qlobal Media Forumunda 52 ölkədən 140-a yaxın xarici qonağın, o cümlədən 30-dan çox informasiya agentliyi, 7 beynəlxalq təşkilat və 80-ə yaxın media qurumu, həmçinin sahə üzrə əlaqəli digər təşkilatlardan nümayəndələrin iştirakı gözlənilir. Forumun iştirakçıları arasında əcnəbi media təmsilçiləri ilə yanaşı, Azərbaycanın media nümayəndələri, ekspertlər və rəsmilər də var.

Açılış mərasimindən sonra forum işini sessiyalarla davam etdirəcək.

Forum iyulun 21-dək davam edəcək.





# Azərbaycanın və Pakistanın xarici işlər nazirləri telefonla danışıblar

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Pakistan İslam Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Məhəmməd İshaq Dar arasında telefon danışığı olub.**




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı iki ölkə arasında mövcud strateji tərəfdaşlıq münasibətlərindən irəli gələn məsələlər, ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyinin genişləndirilməsi imkanları, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə edilib.

Qarşılıqlı həmrəylik, dostluq və qardaşlıq münasibətlərinə əsaslanan Azərbaycan-Pakistan strateji tərəfdaşlığının siyasi, iqtisadi, təhlükəsizlik, humanitar aspektlərindən bəhs edilib, əməkdaşlığın daha da gücləndirilməsi istiqamətində mövcud imkanlardan istifadənin vacibliyi qeyd olunub.

Regional və beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq məsələləri müzakirə edilib.

Telefon danışığında həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# YAP nümayəndə heyəti Şimali Kipr Türk Respublikasının parlamentini ziyarət edib

**Şimali Kipr Türk Respublikasının parlamentinin sədri Ziya Öztürklər 20 İyul - Sülh və Azadlıq Günü münasibətilə Lefkoşada səfərdə olan Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü Musa Quliyevi və onu müşayiət edən nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüş zamanı iki qardaş ölkə arasında siyasi əməkdaşlığın dərinləşməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Şimali Kipr Türk Respublikası ilə Azərbaycan arasında partiyalararası əlaqələrin inkişafının əhəmiyyətindən danışan Z.Öztürkler Şimali Kiprin Milli Birlik Partiyası ilə Yeni Azərbaycan Partiyası arasındakı təmaslardan məmnunluğunu ifadə edib, bu əməkdaşlığın türk



dünyasının siyasi həmrəyliyinə töhfə verdiyini vurğulayıb.

YAP İdarə Heyətinin üzvü Musa Quliyev öz növbəsində parlament sədrinə Sülh və Azadlıq Günü münasibətilə təbriklərini çatdırıb.

# Türkiyə səfiri Quba Soyqırımı Memorial Kompleksində olub

**İyulun 19-da Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün Quba Soyqırımı Memorial Kompleksini ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, səfir 1918-ci ildə Qubada cinayətkar erməni hərbi dəstələri tərəfindən törədilmiş soyqırımı qurbanlarının dəfn olunduğu yerdə ucaldılmış abidəni ziyarət edərək, erməni-bolşevik birləşmələrinin törətdikləri soyqırımı haqqında ətraflı məlumatlandırılıb.

Səfirin diqqətinə çatdırılıb ki, Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksi 2013-cü il sentyabrın 18-də açılıb. Kompleksdə XX əsrin əvvəllərində Quba şəhərinin müxtəlif ərazilərinin görüntüləri, o zaman burada aparılan tikinti-quruculuq işləri, əhalinin həyat tərzi haqqında fotolar var. Burada quraşdırılmış sensor ekranlı monitordakı xüsusi xəritədə ermənilərin ötən əsrdə xalqımıza qarşı respublikamızın müxtəlif bölgələrində həyata keçirdikləri soyqırımı aktları barədə bir neçə dildə məlumat əldə etmək mümkündür.



Bildirilib ki, Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkarlanıb. Bundan sonra Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən kütləvi məzarlıqda geniş tədqiqat işləri aparılıb. Tədqiqatlar nəticəsində məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdikləri soyqırımı ilə bağlı olduğu müəyyən edilib.

Səfir Birol Akgün Quba Soyqırımı Memorial Kompleksinin Xatirə kitabına ürək sözlərini yazıb.



# "Ağlasam, məni qınamayın, sevinc göz yaşlarıdır"

## Prezident İlham Əliyev keçmiş məcburi köçkünlərin Qarabağa qayıdış sevinclərini onlarla birlikdə yaşayır

**"...Ən ağır vəziyyətdə yaşayanlar siz olmusunuz. Bütün bu otuz il ərzində yenə də, necə deyərlər, öz iradənizi göstərərək inanırdınız ki, bu tarixi gün gələcək və biz bu torpaqlara qayıdacağıq və qayıtmışıq. Həm 2020-ci ilin Vətən müharibəsi, həm də 2023-cü ilin antiterror əməliyyatı bizim şanlı qələbələrimizdir. Allah şəhidlərimizə rəhmət eləsin. Bundan sonra biz burada əbədi yaşayacağıq. Daha heç kim bizi bu yerlərdən çıxara bilməz".**

Prezident İlham Əliyevin Xocalı rayonunun Təzəbinə və Xanyurdu kəndlərinə köçən sakinlərlə görüşü zamanı dediyi kimi, nə qədər maddi-mənəvi əziyyətlər çəksələr də, ötən 30 illik zaman dilimində keçmiş məcburi köçkünlər bir an da olsun doğma torpaqlarına qovuşacaqları ümidlərini itirmədilər. Bu böyük inamı isə onlara Prezident İlham Əliyevin milli maraqlarımızın təmini uğrunda yürütdüyü qətiyyətli siyasət aşılamışdı. Azərbaycana rəhbərlik etdiyi ilk gündən dövlətimizin başçısı İlham Əliyevin qarşısına qoyduğu əsas vəzifə torpaqlarımızı azadlığına qovuşdurmaq, keçmiş məcburi köçkünlərin yurd həsrətinə son qoymaq olub.

Prezident işğal illərində diqqəti, qayğısı ilə daim keçmiş məcburi köçkünlərimizin yanında olub. İstər bayramlarda, özəl günlərdə, tədbirlərdə, istərsə də adi günlərdə onlarla görüşüb, problemləri ilə maraqlanıb, həllinə göstərişlər verib. Dədə-baba yurdlarından didərgin düşmüş keçmiş məcburi köçkün vətəndaşlarımızla olan bütün görüşlərində Prezident İlham Əliyev onlara mütləq öz yurdlarına qayıdacaqlarını qətiyyətlə söyləyib.

İndi qalib Azərbaycan xalqı həmin tarixi günləri yaşamağın qüruru içərisindədir. Ərazi bütövlüyümüz, suverenliyimiz tam təmin olunub, Qarabağ və Şərqi Zəngəzura yenidən həyat qayıdıb.

İşğaldan azad edilən torpaqlarımızda əbədi xoşbəxt həyata başlayan keçmiş məcburi köçkünlər - şuşalılar, xocalılılar, füzulililər, laçınlılar... öz evlərində xilaskar lider İlham Əliyevi əziz qonaqları kimi qarşılayır, sevinclərini, xoşbəxtliklərini bölüşürlər.

Mütəmadi olaraq Qarabağ və Şərqi Zəngəzura səfər edən Prezident İlham Əliyev burada gerçəkləşdirilən quruculuq və bərpa işləri ilə tanış olur, açılışlar edir, yeni bünövrələr qoyur. Qayıdış köçləri ilə el-obalarına dönən keçmiş məcburi köçkünlərlə doğma evlərində görüşmək, onlarla söhbət etmək, yurd sevinclərini bölüşmək də dövlət başçısının adətinə çevrilib. İki gün öncə Xocalının Təzəbinə və Xanyurdu kəndlərinə köçən sakinlərlə keçirilən görüşdə olduğu kimi.

Xanyurdu kəndi Xocalı rayonunun Ballıca kənd inzibati ərazi dairəsinə daxildir. Kənddə 40 fərdi ev artıq əsaslı bərpa olunub, ilin sonunadək daha 65 fərdi evin bərpası nəzərdə tutulub. 2026-cı ildə isə daha 93 fərdi ev təmir və bərpa olunacaq. Bu il iyulun 14-də 33 ailə, ümumilikdə 122 nəfər doğma Xanyurdu kəndinə qayıdıb. Rayonun Təzəbinə kəndinə isə ilk mərhələdə 28 ailə olmaqla, 125 nəfər keçmiş məcburi köçkün dönüb.

Ötən cümə günü Prezident İlham Əliyev Xanyurdu kəndinə qayıdan Rasim Cavadovun və Kərəm Abbasovun evlərində oldu. Eyni zamanda dövlətimizin başçısı Təzəbinə və Xanyurdu kəndlərinə köçən sakinlərlə görüşdü, onlarla söhbət etdi. Sakinlərlə söhbət zamanı həm sevincli, həm də duyğulu anlar yaşandı. Təkcə sakinlərdən birinin ürəyindən keçənləri ifadə etdiyi bu fikirləri 30 illik ayrılıqdan sonra ana torpağına qovuşan keçmiş məcburi köçkünlərimizin yaşadıqları hiss və duyğuları çatdırmağa yetir: "Bu günümüzə şükür, Allah xanımınızı qorusun! Allah Sizi qorusun! Bu günü bizə yaşatdığınız üçün Allah üstünüzdə yar olsun! 200 neçə illik qara buludu üstümüzdən götürdünüz. Ağlasam, məni qınamayın, sevinc göz yaşlarıdır".

Səmimi söhbət zamanı sakinlərin hər biri onları bu xoşbəxt günlərə qovuşduran Prezident İlham Əliyevə sonsuz minnətdarlıqlarını bildirdilər. Xocalılılardan biri minnətdarlıq hisslərini bu sözlərlə dilə gətirdi: "Hörmətli Prezidentimiz, eşq olsun Sizə! Allah Sizi qorusun! Allah Sizin üstünüzdə yar olsun! Bizim burada olmağımızın səbəbkarı sizsiniz. Bu, Sizin gərgin əməyinizin nəticəsidir".

Xocalının Təzəbinə və Xanyurdu kəndlərinin sakinləri ilə Prezident İlham Əliyev arasındakı səmimi dialoq zamanı Azərbaycan xalqının, dövlətinin, ordusunun birliyinin simvoluna çevrilən və düşmənlərimizin qorxulu röyası olan "dəmir yumruq" da xatırlandı. Sakinlərdən biri söylədi ki, çox sağ olun, cənab Prezident, bu yumruğunuz həmişə düşmənlərin üstündə olsun.

Prezident İlham Əliyevin qayıdış karvanları ilə Qarabağ və Şərqi Zəngəzura dönən insanlarımızı daim diqqətdə saxlaması, evlərinin qonağı olması, onlarla bir süfrə arxasında oturması, səmimi söhbət etməsi sakinlərimizin sevinclərini birəmin artırır. Təzəbinə və Xanyurdu sakinləri də bu qayğı və diqqətdən doğan hisslərini Prezidentlə görüşləri zamanı səmimi şəkildə dilə gətirdilər: "Allah Sizi, xanımınızı qorusun. Var olun. Bu gün Sizinlə burada üz-üzə durmaqdan qiymətli heç nə yoxdur".

Prezident İlham Əliyevin iki onillik ərzində qarşılaşdığı bütün maneələrə, siyasi güclərin təzyiqlərinə baxmayaraq, milli maraqlarımız naminə həyata keçirdiyi qətiyyətli, uzaqgörən və müdrik siyasət Azərbaycanı, onun vətəndaşlarını bügünkü qürur zirvəsinə daşıyıb. Dədə-baba yurdlarından zorla qovulmuş, faciələr yaşamış, maddi-mənəvi əzablarla üzləşmiş keçmiş məcburi köçkünlər əbədi xoşbəxt günlərə qədəm qoyublar. Təzəbinə və Xanyurdu kəndlərinə köçən sakinlərlə görüşü zamanı Prezident İlham Əliyev də məhz bu məqama vurğu etdi: "Burada rahat yaşayın, xoşbəxt yaşayın, siz buna layiqsiniz. Siz uzun illər çətin şəraitdə yaşamısınız - çadır şəhərciklərində, vaqonlarda, yataqxanalarda, uşaq bağçalarında, məktəblərdə, orada-burada, çox çətin şəraitdə. Amma inamınızı itirməmisiniz. İnanırdınız ki, doğma Vətənə qayıdacaqsınız. O gün də gəldi. İndi də belə gözəl, mənzərəli, səfalı yerlərdə yaşayırsınız və bu onu göstərir ki, ədalət hər zaman zəfər çalmalıdır. Amma ədaləti təmin etmək üçün gərək gücün və yumruğun olsun".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Ədliyyə naziri Qubada vətəndaşlarla görüşüb

**Ədliyyə naziri Fərid Əhmədov iyulun 18-də Quba şəhərində vətəndaşlarla görüşüb.**



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdən əvvəl nazir Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Qəbulda Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayon sakinlərinin ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib. Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib. Qeyd edək ki, qəbul mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilib.

# "Vizasız rejim Azərbaycan və Çin arasında münasibətləri dərinləşdirəcək"

**Xəbər verildiyi kimi, bu il aprelin 23-də Prezident İlham Əliyevin Çin Xalq Respublikasına səfəri çərçivəsində iki ölkə arasında bir sıra sənədlər imzalanmışdır. Onlardan biri də "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında ümumvətəndaş pasportlarına malik vətəndaşların vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş" idi. Saziş iyulun 16-dan qüvvəyə minib.**



Beləliklə, Azərbaycan və Çinin etibarlı ümumvətəndaş pasportlarına malik vətəndaşları digər ölkə ərazisinə daxil olmaq, oranı tərk etmək və yaxın tranzit keçmək üçün hər səfər ərzində 30 gündən çox olmamaqla və 180 günlük dövr ərzində ümumilikdə 90 gün müddətini aşmamaqla viza tələbindən azad ediliblər.

Milli Məclisin deputatı Vüqar Bayramov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, Çin və Azərbaycan arasında vizasız rejimin tətbiqi iki ölkə arasında münasibətlərin daha da dərinləşməsinə imkan verəcək: "Yeni saziş bir tərəfdən ölkələr arasında iqtisadi əlaqələrin daha da möhkəmlənməsinə, digər tərəfdən isə sərmayə qoyuluşlarının genişləndirilməsinə şərait yaradır. Xüsusən son dövrlər iki ölkə arasında ticarət dövriyyəsinin artması Çinin Azərbaycanın idxalda əsas ticarət tərəfdaşına çevrilməsinə imkan yaradıb. Uzun müddət Rusiya Azərbaycanın idxal ticarətində əsas tərəfdaş idi, artıq Çin ilk sıraya keçib. Bu da ondan xəbər verir ki, iki ölkə arasında strateji münasibətlər idxal və ixrac əməliyyatlarına birbaşa təsir göstərir. Beləliklə, əməliyyatların həcmində artım müşahidə olunur".

Deputat qeyd edib ki, vizasız rejim həmçinin turizm sahəsində əməkdaşlığın genişləndirilməsinə imkan yaradacaq: "Azərbaycana gələn çinli turistlərin sayında artım var, Azərbaycandan da Çinə gedənlərin sayının artması gözlənilir. Bu, turizm sahəsində əməkdaşlığın gücləndirilməsi baxımından vacibdir. Yalnız 2025-ci ilin yanvar-may aylarında Çindən ölkəmizə gələn turistlərin sayı 1,5 dəfə artıb. Praktik olaraq bu, ondan xəbər verir ki, Azərbaycana gələn turistlərin sayında, turizm strukturunda da Çinin payı artmaqdadır".

V.Bayramov onu da vurğulayıb ki, vizasız rejim həm də sərmayələrin təşviq edilməsi və qarşılıqlı investisiya qoyuluşları baxımından önəmlidir: "Bu, birmənalı şəkildə ölkələrin qarşılıqlı olaraq sərmayə portfelinin genişlənməsinə, investisiya qoyuluşları vasitəsilə yeni iş yerlərinin yaradılmasına imkan yaradacaq".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Qiyaslı kənd məscidinin bərpası mədəni irsimizə böyük diqqət və qayğının növbəti təzahürüdür

**2021-ci ildə Prezident İlham Əliyev Ağdama səfəri çərçivəsində Qiyaslı məscidində olmuşdu. Bundan sonra Prezidentin tapşırığı əsasında 2022-2025-ci illərdə Heydər Əliyev Fondu tərəfindən Qiyaslı məscidi bərpa edilib. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığı əsasında həyata keçirilən işlər Qarabağda tarixi və dini abidələrin bərpası layihəsi çərçivəsində reallaşıb. İyulun 18-də Prezident İlham Əliyevin iştirakı ilə Qiyaslı kəndindəki tarixi məscidin binasının bərpadan sonra açılışı mədəni irsimizə böyük diqqət və qayğının növbəti təzahürüdür.**





Heydər Əliyev Fondunun nümayəndəsi Elvin Aslanov AZƏRTAC-a bildirib ki, Qarabağda erməni vandalizminə məruz qalan tarixi-dini abidələrimizdən biri Qiyaslı məscidi idi.

Ağdam rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı mal-qara tövləsi kimi istifadə edilən məscid binası ciddi dağıntılara məruz qalıb, dam örtüyü və günbəzlər tamamilə dağıdılmışdı. Ağdam rayonu erməni işğalından azad edildikdən sonra 2022-ci ildən Qiyaslı məscidində Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılıb. Bərpa layihəsi hazırlanarkən məscidin ilkin görkəmini qorumaq məqsədilə arxiv materiallarından və videoqrafik mənbələrdən istifadə olunub. İnteryerində mühafizə olunmuş burma pilləkən məscidin cənub tərəfində qoşa minarələrin mövcud olduğunu göstərirdi. Bu səbəbdən ənənəyə əsaslanaraq məscidin cənub divarında minarələr inşa edilib. Əyilmiş daş sütunlar xüsusi qurğular vasitəsilə bərpa olunub, daş tağlar və günbəzlər yenidən qurulub. Divarlarda ilkin görkəmini itirmiş, tökülmüş suvaq təmir olunub, yararsız hala düşmüş mehrab bərpa edilib. Fasad daşları xüsusi kimyəvi maddələrlə yuyulub, köhnə daşlar arasındakı tikişlər təmizlənib. Məscidin ətrafında köməkçi tikililər inşa olunub", - deyə Elvin Aslanov vurğulayıb.

Qiyaslı məscidi Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə 2001-ci ildən yerli əhəmiyyətli daşınmaz tarixi və mədəniyyət abidələri siyahısındadır.

# Xanyurdu kəndində 40 ev əsaslı bərpa olunub

**Xocalı rayonunun Xanyurdu kəndində 40 fərdi ev artıq əsaslı bərpa olunub, ilin sonunadək daha 65 fərdi evin bərpası nəzərdə tutulub. 2026-cı ildə isə 93 fərdi ev təmir və bərpa olunacaq. Bu il iyulun 14-də 33 ailə, ümumilikdə 122 nəfər doğma Xanyurdu kəndinə qayıdıb.**

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Afət Telmanqızı AZƏRTAC-a bildirib ki, hazırda kəndin sosial infrastrukturunun müasir səviyyədə qurulması üçün zəruri işlər görülür. 14 kilometr uzunluğunda 10 kV-luq elektrik xətti təmir-bərpa edilib, sayğaclaşdırma prosesinə başlanılıb, 10 kilometrdən çox uzunluğu olan təbii qaz xətti çəkilib, 4 kilometr uzunluğunda mövcud xətt bərpa olunub, artezian quyusu, həcmi 400 kubmetr olan su anbarı və içməli su şəbəkəsi təmir edilib, 10,4 kilometr uzunluğunda rabitə xətti çəkilib, abonentlərin stasionar telefon, internet və İPTV xidmətləri ilə əhatə edilməsi təmin olunub. İki kilometrdən çox uzunluğu olan kənddaxili yollar asfaltlanıb. Ümumtəhsil müəssisəsinin binasının təmir-bərpası ilə bağlı hazırlıq işləri görülür, ambulatoriya mərkəzi və market üçün nəzərdə tutulan bina əsaslı təmir edilir. Kənddə bir hektar sahədə istirahət parkı salınıb.

# "Prezidentlə görüş heç vaxt unutmayacağım tarixi an oldu"

**"Çox şadam ki, doğma Qarabağa qayıtmışıq. Prezidentimizə minnətdarlığımı bildirirəm. Ona görə ki, bizi torpaqlarımıza qaytardı. Dünən Prezidentimiz burada oldu, sakinlərlə görüşdü, evlərə baxış keçirdi. Allah Prezidentimizi qorusun. Mən fəxr edirəm ki, belə bir Prezidenti olan ölkənin vətəndaşıyam".**



Bunu AZƏRTAC-a Xanyurdu kənd sakini Vüsalə Abbasova söyləyib.

O, Prezident İlham Əliyevlə görüşün xoş təəssüratlarını ifadə edərək deyib: "36 yaşım var, ilk dəfədir Prezidentlə görüşdə oluram. Çox həyəcanlı və çox sevincli idim. Mənim üçün heç vaxt unutmayacağım tarixi an oldu".

# "Prezidentin bizimlə görüşü bir sevincimizi iki etdi"

**"Prezidentlə görüşümüz çox yaddaqalan hadisə oldu. Çox həyəcanlı idim. Prezidentin bizimlə görüşü bir sevincimizi iki etdi".**



Bu sözləri AZƏRTAC-a Təzəbinə kəndinin sakini Məhəmməd Fərəcov deyib.

"Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə cansağlığı diləyirəm. Allah Ali Baş Komandanımızın canını sağ, ömrünü uzun eləsin. Evimizin şəraiti çox gözəldir. Beş nəfərlik ailə üzvlərimlə burada yaşayıram. Demək olar ki, bərpa-quruculuq işləri zamanı hər şərait yaradılıb", - deyə Təzəbinə kənd sakini bildirib.

# "Kəndə köçəndən sonra ilk qonağımız Prezident oldu "

**"Öncə Prezidentimizə minnətdarlığımı bildirirəm. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Onların sayəsində doğma torpaqlarımıza qayıtdıq. Mənim uşaqlığım burada keçib. Buranı tərk edəndə 13 yaşım var idi. Artıq doğulduğum, uşaqlığımın keçdiyi torpağımıza qayıtmışam".**



Bunu AZƏRTAC-a Xanyurdu kənd sakini Rasim Cavadov söyləyib.

"Bura gələndən o qədər sevinc hissi keçiririk, gah kövrəlirik, ağlayırıq, gah sevinirik, gülürük. Xanyurdu kəndinə köçəndən sonra ilk qonağımız Prezident oldu. Bizimlə çox səmimi görüşdü, söhbət elədi, xatirə şəkli çəkdirdi. Prezidentin gəlişi sevincimizə sevinc qatdı", - deyə Xanyurdu sakini bildirib.



# Xilaskarlıq taleyinin qisməti idi

## Naxçıvanı məhv olmaqdan xilas edən Heydər Əliyev 1993-cü ildən sonra bu missiyasını bütün Azərbaycan miqyasında davam etdirdi

**Adları təmsil olunduqları xalqların şərəfli tarixinə çevrilən, əməlləri ilə dövlətini dünyaya tanıdan şəxsiyyətlər elə də çox deyillər. Yüz ildə, bəzən də min ildən bir doğulurlar.**

Bəzən xalqlar tarixi sınaq qarşısında qalanda sanki Tanrı belə dahi şəxsiyyətləri bir xilaskar obrazında əta edir. Öz tarixi missiyalarını şərəflə yerinə yetirən, mənsub olduğu xalqların və dövlətlərin taleyində köklü dəyişiklik etməyi bacaran bu dahilər də əməlləri ilə əbədiyaşarlıq ömrü qazanırlar. Xalqımızın böyük oğlu, Azərbaycanı dünyaya tanıdan, ən böyük azərbaycanlı, xalqımızın və dövlətimizin xilaskarı, bütün mənalı həyatını canından artıq sevdiyi doğma xalqına həsr edən Heydər Əliyev belə nadir şəxsiyyətlərdəndir.

Ulu Öndərin dünyaya gəlişi bir evin, bir ailənin sevinci idisə, həyatı, fəaliyyəti bütöv bir xalqın bəxti idi. Böyük dövlət adamı və siyasi xadim, heyrətamiz intellekt və zəka sahibi Heydər Əliyev adı millətinin və ölkəsinin adı ilə qoşa çəkilən nadir tarixi şəxsiyyətlərdəndir. Ulu Öndərin müdrik qərarları, təhdidlərə sinə gərən əzmi sayəsində Azərbaycan parçalanmaq, dağılmaq təhlükəsi ilə üz-üzə qalan bir ölkədən dünyada söz sahibi olan, qüdrətli bir dövlətə çevrildi. Bu gün dünyada sabitliyin mərkəzi, iqtisadi inkişafın ünvanı kimi tanınan qüdrətli Azərbaycan həqiqətən Heydər Əliyev zəkasının şah əsəridir.

Keçən əsrin 90-cı illərində böhran içində olan Azərbaycanı yada salaq. O illər xalq hər gün torpaqlarını, qəhrəman övladlarını, ən pisi isə ümidini itirirdi. Hər yanda səfalət, cinayət, xəyanət hökm sürürdü. Faktiki olaraq Vətənimizin bir hissəsi Ermənistanın və onun Qarabağda yaratdığı separatçı rejimin nəzarəti altına keçmişdi. Belə bir zamanda – 1990-cı il iyulun 20-də Ulu Öndər Azərbaycana qayıtdı. Bu adi qayıdış yox, bir xalqın, bir millətin özünə dönüşünün başlanğıcı idi. Bu qayıdış təsadüfi də deyildi. Onu şərtləndirən çoxsaylı amillər var idi. M.Qorbaçovu SSRİ-nin rəhbərliyinə gətirən ermənilərin planı belə idi ki, Qarabağı, hətta Naxçıvanı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək üçün Heydər Əliyevi tutduğu yüksək vəzifədən kənarlaşdırsınlar. Ulu Öndər SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsindən və Siyasi Büro üzvlüyündən istefa verdikdən sonra – 1990-cı il yanvarın 20-də ermənilərin planına uyğun, bilavasitə M.Qorbaçovun göstərişi ilə Bakıda dinc əhaliyə qarşı qanlı qırğın törədildi.

Bu ağır günlərdə xalqımızın böyük oğlu Heydər Əliyev cəsarət nümunəsi göstərərək, həyatını təhlükəyə atdı, qətliamı törədənlərə etirazını bildirmək üçün ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək haqq səsini ucaltdı. Bu cəsarətli addımı ilə əsl həqiqətləri bütün dünyaya çatdıran Ulu Öndər 20 Yanvar faciəsi ilə bağlı informasiya blokadasını yardı. İstər xalqımıza qarşı məkrli planlar quran erməni lobbisi, istərsə də onların əlində oyuncağa çevrilmiş M.Qorbaçov olsun, Azərbaycana qarşı məkrli planlarını həyata keçirmək yolunda ən böyük maneənin Heydər Əliyev olduğunu bir daha dərk etdilər. Məhz Ümummilli Lider belə bir mürəkkəb zamanda Bakıya qayıtmaq, vətənimizin, xalqımızın ən çətin vaxtlarında yanında olmaq qərarını verdi.

Şübhəsiz ki, bu qayıdış ovaxtkı hakimiyyətin arzulamadığı qərar idi. Xatırladaq ki, Ulu Öndərin 1990-cı ildə Moskvadan Bakıya qayıdışı bir neçə dəfə təxirə salınmışdı. Bir zamanlar Heydər Əliyevin Azərbaycanda yüksək vəzifəyə gətirdiyi adamlar da təşviş içində idilər. Moskvanın diktəsi ilə hərəkət edən, vəzifələrinin əsiri olan yerli "rəhbər"lər hər vəchlə bu dönüşü əngəlləməyə çalışırdılar. SSRİ rəhbərliyinə yarınmaq üçün sapı özümüzdən olan baltalar yerli və mərkəzi mətbuatda Heydər Əliyevə qarşı "qara piar" aparır, Bakıdan Moskvaya qalaq-qalaq "zəhmətkeş" məktubları göndərirdilər. "Zəhmətkeş"lər həmin şikayət məktublarında Ulu Öndərin respublikaya rəhbərlik etdiyi dövrün statistik məlumatlarını qəsdən saxtalaşdırır, çürük təxəyyüllərinə uyğun o dövrün mənzərəsini "yaradırdılar".

Dövrün "siyasi texnoloq"ları hər cür yaramaz üsuldan istifadə etməyə çalışırdılar ki, Ulu Öndər Bakıya dönmək qərarından vaz keçsin. Gah Heydər Əliyevin Bakıya qayıdacağı halda ona sui-qəsd olacağı barədə yalan məlumatlar yayır, gah da Ulu Öndərin Azərbaycana qayıdışına "zəhmətkeşlərin etiraz" mitinqlərini təşkil edirdilər. İşıqdan qorxan yarasalar belə hesab edirdilər ki, bu cür ucuz, cəfəngiyyat utancverici əməlləri ilə Heydər Əliyevi Bakıya dönmək qərarından çəkindirə bildi. Bütün bunlara baxmayaraq, Ulu Öndər Vətəndə, xalqının yanında olmaqda qərarlı idi. Onu bu yoldan nə SSRİ rəhbərliyinin boş planları, nə hədə-qorxu, nə də naşı rejissorların hazırladığı "komik" meydan tamaşaları çəkindirə bildi. Heydər Əliyev 1990-cı il iyulun 20-də Vətənə qayıtdı. Bu, yalnız bir şəxsin yox, bütövlükdə milli ruhun, düşüncənin, dirçəlişin, vətən sevgisinin, xalq təəssübkeşliyinin dönüşü idi.

Heydər Əliyevin məziyyətlərindən danışarkən onun uzaqgörənliyi, hadisələri düzgün təhlil edib ən doğru qərar qəbuletmə qabiliyyəti qeyd edilməlidir. Moskvanın tapşırıqlarını can-başla yerinə yetirməyə çalışan o zaman respublika rəhbərliyi Heydər Əliyevin varlığını öz hakimiyyətləri üçün ciddi təhlükə hesab edirdilər. Vəzifəni vətənin taleyindən üstün tutanların hər cür riyakarlıqları gözlənilən idi. Belə bir şəraitdə Ulu Öndərin Bakıda qalması onun həyatı üçün olduqca təhlükəli idi.

Doğma yurdu Naxçıvana üz tutan Ulu Öndəri yerli əhali duz-çörəklə qarşıladı. Bu qədim diyarın sakinləri dəstə-dəstə axışıb Heydər Əliyevin görüşünə gəlir, qurbanlar kəsir, əsl bayram ovqatı ilə Böyük qayıdışı el bayramına çevirirdilər. 1990-cı il iyulun 22-də bütölükdə Naxçıvan şəhəri insan selinə qərq olmuşdu. Hadisənin şahidləri qeyd edirlər ki, Azadlıq meydanında təşkil olunmuş mitinqdə elə bir izdiham var idi ki, Ulu Öndərin kürsüyə çıxması üçün polis işə qarışıb yol açmaq məcburiyyətində qaldı.

Sonralar Heydər Əliyev Naxçıvan sakinləri ilə görüşündə demişdir: "Mən Naxçıvana gələndə Naxçıvan ayağa qalxdı, Naxçıvan məni qucaqladı, bağrına basdı. Son illərdə çəkdiyim bütün əzab-əziyyəti unutdum". Xalqın Heydər Əliyevin ətrafında yaratdığı birlik, öz gələcəyini Ulu Öndərin fəaliyyətində görmək istəyi mərkəzi hakimiyyətin və onu yerli icraçılarının Heydər Əliyevin həyatı ilə bağlı planlaşdırdıqları bütün arzuolunmaz cəhdlərin qarşısını aldı, dahi şəxsiyyətə qarşı hazırlanan bütün çirkin planlar fiaskoya uğradı.

Naxçıvanlılar Heydər Əliyevi dərin məhəbbətlə bağrına basıb, qorudular. Heydər Əliyev də müdrik qərarları və uzaqgörən siyasi fəaliyyəti ilə Naxçıvanın müdafiə olunması və blokadanın çətinliklərinin dəf edilməsində misilsiz rol oynadı. Ulu Öndər Heydər Əliyevin müdrik rəhbərliyi sayəsində naxçıvanlılar təcavüzkar erməni silahlı birliklərinə qarşı əzmlə döyüşərək bir qarış torpağını da itirmədi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycanın mədəniyyət paytaxtı Şuşadan Azərbaycan xalqına müraciət edərkən bildirmişdir: "Heydər Əliyevin gələcək fəaliyyəti üçün Naxçıvan dövrünün böyük əhəmiyyəti var. Xalq məhz onu özünə rəhbər seçdi, bu, demokratiyanın əsl təntənəsi idi. ...Naxçıvan, demək olar ki, blokadada boğulurdu, onlar isə Naxçıvana qarşı təxribatlar törədirdilər, desant göndərirdilər, çevrilişə cəhd edirdilər. Sanki istəyirdilər ki, Naxçıvan da işğal altına düşsün. Ancaq xalq buna imkan vermədi, öz lideri ətrafında sıx birləşdi və bir daha demək istəyirəm, məhz Heydər Əliyevin qətiyyəti, fəaliyyəti nəticəsində Naxçıvan torpaqları erməni işğalına məruz qalmadı".

1990-cı ilin payızında Heydər Əliyev Babək rayonunun Nehrəm kəndindən Azərbaycan Respublikasının Ali Sovetinə, eyni zamanda Naxçıvan Ali Sovetinə deputat seçildi. Muxtar Respublika Ali Sovetinin 17 noyabr 1990-cı ildə keçirilən ilk sessiyasına sədrlik Heydər Əliyevə həvalə olundu. Sessiyada Ulu Öndərin təşəbbüsü ilə Naxçıvan Ali Sovetinin adı dəyişdirilərək Naxçıvan Respublikasının Ali Məclisi adlandırıldı. O zamanlar hələ çoxlarının tanımadığı Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət bayrağı olmuş üçrəngli müqəddəs bayrağımız 1920-ci il 28 aprel işğalından sonra ilk dəfə Naxçıvan Ali Məclisində qaldırıldı. Bununla da müstəqilliyə gedən yolun əsası qoyuldu.

Ulu Öndərin yolunu uğurla davam etdirən Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sözügedən qərarının taleyüklü əhəmiyyətini qeyd edərək deyib: "Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Ali Sovetinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Naxçıvanda dövlət bayrağı kimi təsdiq edildi... Bizim müstəqilliyə gedən yolumuz o gündən başlamışdır. Məhz Xalq Cümhuriyyətinin bayrağının dövlət bayrağı kimi qəbul olunması Azərbaycanı müstəqilliyə daha da yaxınlaşdırmış və ölkəmizdə gedən proseslərə güclü təkan vermişdir".

Bu gün ən yüksək zirvələrdə dalğalanan bayrağımız dövlətimizin gücünü və xalqımızın milli birliyini, həmrəyliyini bütün dünyaya nümayiş etdirir. Dövlətimizin başçısı İlham Əliyevin dediyi kimi: "Bayrağımız mübarizə əzmimiz, zəfər sorağımız, istiqlaliyyət salnaməmizdir".

Ulu Öndərin Vətənə qayıdışı ilə müstəqillik uğrunda mübarizənin yeni mərhələsi başlandı. Böyük siyasətçinin çağırışı ilə 1991-ci il martın 17-də keçmiş Sovet İttifaqının saxlanması ilə bağlı keçirilən referendumda Naxçıvanın iştirak etməməsi Azərbaycan xalqında müstəqillik ideyalarının gerçəkləşməsinə olan inamını, insanların mübarizə əzmini artırdı.

1991-ci il sentyabrın 3-də Naxçıvan Ali Məclisinin Sədri seçilən Heydər Əliyev qardaş Türkiyənin siyasi rəhbərliyi ilə təmasların gücləndirməsi nəticəsində blokada şəraitində yaşayan muxtar respublikanı erməni təcavüzündən, aclıqdan, səfalətdən qorudu. Ümumiyyətlə, birmənalı olaraq, deyə bilərik ki, Ulu Öndər Naxçıvandakı fəaliyyəti ilə Azərbaycanın müstəqilliyinə və xoşbəxtliyinə gedən yolun təməlini qoydu. Ulu Öndərin Naxçıvandakı fəaliyyəti Azərbaycan tarixinə milli dirçəlişin və dövlət müstəqilliyinə gedən yolun başlanğıcı kimi həkk olundu.

Naxçıvanı xilas edən Heydər Əliyev növbəti mərhələdə - 1993-cü ildən sonra xilaskarlıq missiyasını bütün Azərbaycan miqyasında davam etdirdi. 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə respublikanın siyasi hakimiyyətinə qayıdan Heydər Əliyev xaosa, anarxiyaya, iqtisadi tənəzzülə son qoydu və Azərbaycanı inkişaf yoluna çıxardı.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Ersin TATAR: «Prezident İlham Əliyev bizə hər zaman sahib çıxıb və dəstək olub»



**Azərbaycan Prezidenti İlham Əliyevin gələcəyə ünvanlanmış və hərtərəfli düşünülmüş uğurlu siyasəti nəticəsində Azərbaycanın beynəlxalq aləmdə nüfuzu günü-gündən artmaqdadır. Bunu həm xarici dövlət başçıları, həm də görkəmli siyasi xadimlər etiraf edirlər.**

Bu günlər bir daha bunun şahidi olduq. Türkiyənin və BMT-nin vasitəçiliyi ilə Kipr mövzusunda Nyu Yorkda keçirilən geniş formatda qeyri-rəsmi toplantıdan sonra Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) prezidenti Ersin Tatar verdiyi müsahibəsində dövlətimizin başçısnın ünvanına dəyərli və qiymətli sözlər deyib: "Prezident İlham Əliyevə təşəkkür edirəm, o hər zaman bizə sahib çıxıb və dəstək olub".

Şimali Kipr Türk Cümhuriyyətinin prezidenti Ersin Tatar müsahibəsi zamanı ölkələrimiz arasındakı sıx əlaqələrdən və son vaxtlar yaranmış isti münasibətdən, xoş atmosferdən ətraflı söz açıb. Bildirib ki, Azərbaycan ilə ŞKTC arasında münasibətlər son illər yeni mərhələyə qədəm qoyub. Qeyd edib ki, ŞKTC-nin Türk Dövlətləri Təşkilatına müşahidəçi statusu ilə qəbul edilməsi bu yaxınlaşmanın ən önəmli addımlarından biri olub: "Kipr türklərinin problemləri çoxdur, bu, asan məsələ deyil. Biz müxtəlif embarqolar, izolyasiya və siyasi basqılarla mübarizə aparırıq. Amma Azərbaycan bizə qardaş dövlət kimi sahib çıxır. Biz Şimali Kiprdə "Bir millət, üç dövlət" deyirik: Kipr, Türkiyə və Azərbaycan. Bu qardaşlığı hər zaman hiss edirik".

Prezident müsahibəsində, həmçinin ölkəmizə olan səfərlərinə də toxunub, keçirilən görüşlərdən, aparılan səmərəli danışıqlardan söz açıb. Azərbaycanın dünyada qazandığı uğurları böyük sevgi və məhəbbətlə yaxından izlədiklərini dilə gətirib. ŞKTC-nin lideri açıqlamasında bildirib ki, son illər Azərbaycana bir neçə dəfə səfər edib. "Prezident İlham Əliyev, sağ olsun, məni yüksək səviyyədə, rəsmi protokolla qarşılayıb. Prezident səviyyəsində çox səmərəli görüşlərimiz baş tutub. Artıq Azərbaycan xalqı da Şimali Kipr Türk Cümhuriyyətini daha yaxından tanıyır. Biz də Azərbaycanı həmişə yaxından və böyük sevgi ilə izləyirik".

Prezident Ersin Tatar səmimiyyət dolu müsahibəsində gələcək planlara da toxunub. Yaxın illərdə Türkiyə və Azərbaycanla qurulacaq iqtisadi əməkdaşlıqdan, bu əməkdaşlığın daha da genişlənəcəyindən söz açıb. Xüsusi vurğulayıb ki, qarşıdakı dövrdə Türkiyə, Azərbaycan və ŞKTC arasında iqtisadi sahələrdə əməkdaşlıq genişlənəcək və bu, xüsusən, gənc nəsillərə yeni ümidlər və imkanlar yaradacaq.

Ersin Tatar jurnalistin suallarını cavablandırarkən Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə etdiyi səfərini də xatırlayıb və orada qatıldığı beynəlxalq tədbirdən danışıb. İşğaldan sonra Qarabağda aparılan böyük quruculuq işlərini yüksək qiymətləndirən E.Tatar bildirib ki, Qarabağa getdim və gördüm ki, orada genişmiqyaslı yenidənqurma işləri aparılır: "Mən orada çıxış edərkən İqtisadi Əməkdaşlıq Təşkilatının iclasında dedim ki, Azərbaycan - Qarabağ, Qarabağ - Azərbaycandır. Bu sözlərimdən sonra Prezident İlham Əliyev mənə baxaraq əlini sinəsinə qoydu və bununla da mənim haqlı olduğumu təsdiqlədi. 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi tarixi zəfərdir".

ŞKTC-nin prezidenti Azərbaycan xalqının Qarabağ müharibəsində böyük igidlik və qəhrəmanlıq göstərdiyini və döyüşlər zamanı verdiyi itkilərdən də danışıb: "Çox sayda şəhid verdiniz, siz də bizim kimi ağır itkilər yaşadınız. Mən bütün şəhidlərimizi rəhmətlə anıram. Sizin vasitənizlə Azərbaycanın qəhrəman xalqını salamlayıram və o zəfərin fatehi Prezident İlham Əliyevi bir daha təbrik edirəm".

Şimali Kipr Türk Cümhuriyyətinin liderinin Azərbaycan Prezidenti İlham Əliyev haqqında dediyi bu qürurverici, iftixar dolu xoş sözlər dövlətimizin başçısının yürütdüyü siyasətə, gördüyü böyük işlərə verilən yüksək qiymətdir. Bu qiymət onu sübut edir ki, dövlətimizin başçısının həyata keçirdiyi uğurlu siyasət nəticəsində dostlarımız çoxalır, dünyanın aparıcı dövlətləri ilə iqtisadi, mədəni və siyasi əlaqələrimiz daha da genişlənir.

Şimali Kipr liderinin müsahibəsini oxuduqca Azərbaycan Prezidentinin 2024-cü il fevralın 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimində dediyi sözlər yada düşür: "Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır".

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

اَكينچى

# Azərbaycan Milli Mətbuatı - 150

**“İnsanlar bütün məlumatı mətbuatdan alırlar. Ona görə, hər bir ölkədə, o cümlədən Azərbaycanda mətbuat qərəzsiz olmalıdır, çevik, operativ fəaliyyət göstərməlidir, insanları məlumatlarla tam şəkildə təmin etməlidir. Hesab edirəm ki, biz bunu Azərbaycanda görürük. Çünki bu gün Azərbaycan mətbuatı artıq yüksək səviyyəyə qalxıbdır. Mən həm operativlik, həm milli maraqların müdafiə edilməsi sahəsində mətbuatın fəaliyyətini yüksək qiymətləndirirəm”.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



# Dövrün çağırışları və milli mətbuatımız

**Böyük fikir adamı Həsən bəy Zərdabinin 1875-ci ilin 22 iyulunda “Əkinçi” qəzeti ilə təməlini qoyduğu Azərbaycan milli mətbuatının 150 illiyi təkcə bir qəzetin, yaxud milli mətbuatımızın 150 yaşa gəlib çatması deyil. Bu, həmçinin mətbuat səhifələrində sənədləşərək əbədiləşən bir əsryarımlıq tariximizin canlı salnaməsi, ictimai fikrin bu qədər müddəti əhatə edən ayrı-ayrı mərhələləri arasında qırılmaz bağlılıq, nəsillərin bir-biri ilə əlaqəsidir. Qeyd etdiyimiz 150 il, eyni zamanda Azərbaycan jurnalistikasının keçdiyi böyük bir inkişaf yolu, formalaşdırdığı zəngin təcrübədir.**

Bu gün cəmiyyətimizin mədəni inkişaf səviyyəsi, ölkəmizdə mövcud olan söz və ifadə azadlığı, kütləvi informasiya vasitələrinin bolluğu, bu əsryarıma bərabər müddətin həyatımıza gətirdiyi nailiyyətlərdir. Onların hər birində “Əkinçi”nin nuru, işığı görünür. Həsən bəy Zərdabinin, Mirzə Cəlilin, Ə.Ağaoğlunun, Üzeyir bəy Hacıbəylinin, Ceyhun bəyin, Ömər Faiq Nemanzadənin, Şəfi bəy Rüstəmbəylinin, Xəlil İbrahimin, Əlimərdan bəy Topçubaşovun və digər mütəfəkkirlərimizin ruhları duyulur. Çünki bütün nailiyyətlər tarixin müasir çağında xalqa xidməti, ölkənin inkişafına nail olmağı özünə şərəf bilən belə şəxsiyyətlərimiz hesabına qazanılıb və bu missiya indi də davam edir. Bir sözlə xalq olaraq müxtəlif strateji dövrlərin milli hədəflərinə çatmağımızda, ümummilli məqsədləri gerçəkləşdirə bilməyimizdə 150 illik mətbuat tariximizə borcluyuq.

## Milli oyanışda mətbuatın rolu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında” 25 aprel 2025-ci il tarixli Sərəncamında xüsusi vurğulanır ki, “Əkinçi”dən sonra onun ənənələrini davam etdirən çoxsaylı nəşrlər dövrün vətənpərvər ziyalılarını, maarifçilərini eyni məslək ətrafında birləşdirərək, milli oyanış prosesinin aparıcı vasitələrindən biri kimi ümummilli məqsədlərin gerçəkləşməsində mühüm rol oynamışlar.

Azərbaycan milli mətbuatı öz tarixi missiyasını bu gün də uğurla davam etdirir, ölkə rəhbərliyinin mətbuata qayğısı, bu sahənin böyük ənənələr işığında müasir çağırışlara uyğun şəkildə inkişafına zəmin yaradır.

Azərbaycan Prezidenti İlham Əliyev bu istiqamətdə də Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi strateji kursa sadiqdir. Hələ sovet Azərbaycanına rəhbərliyi dövründə milli mətbuatımızın inkişafı üçün o zamanın reallıqları şəraitində misilsiz işlər görən, daim jurnalistlərin dostu, hamisi kimi tanınan Ulu Öndər müstəqil Azərbaycana rəhbərliyi illərində də cəmiyyət həyatında apardığı demokratik islahatlarla ölkəmizdə söz və məlumat azadlığının, fikir plüralizminin və digər demokratik dəyərlərin bərqərar olmasını təmin etmişdir. Ümummilli Lider kütləvi informasiya vasitələrinin inkişafını dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi dəyərləndirmiş, medianın fəaliyyətini tənzimləyən hüquqi-normativ bazanın formalaşdırılması, onun qarşısında duran süni maneələrin aradan qaldırılması, maddi-texniki təminatının gücləndirilməsi məqsədilə ardıcıl və məqsədyönlü qərarlar qəbul etmişdir. Ümummilli Lider, həmçinin dövlət və media arasında sağlam, qarşılıqlı etimada əsaslanan münasibətlər sisteminin formalaşdırılmasına və mütərəqqi ənənələrin bərqərar olmasına mühüm töhfələr vermişdir.

Ötən əsrin 80-ci illərinin sonlarında baş verən proseslər ölkəmizdə çoxsaylı kütləvi informasiya vasitələrinin yaranmasına səbəb oldu. Yeni mətbuat ənənələri formalaşdı. Azərbaycan dövlət müstəqilliyinin bərpasına nail olduqdan sonra Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən demokratik, hüquqi dövlət quruculuğu prosesləri müasir dövrün çağırışlarına uyğun kütləvi informasiya vasitələrinin formalaşması və inkişafı üçün geniş imkanlar yaratdı. 1993-cü ildən başlayaraq Ulu Öndərin rəhbərliyi ilə həyata keçirilən və cəmiyyət həyatının bütün sahələrini əhatə edən köklü islahatlar nəticəsində ölkədə senzura, söz və məlumat azadlığını məhdudlaşdıran digər süni maneələr aradan qaldırıldı. Medianın fəaliyyətini tənzimləyən mütərəqqi qanunvericilik bazası yaradıldı.

Xüsusən Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında söz və mətbuat azadlığının təməl prinsip olaraq əksini tapması ölkədə medianın azad və güclü bir cəmiyyət institutu kimi formalaşmasına təkan verdi.

Mətbuatın problemlərinin həlli, iqtisadi müstəqilliyinin gücləndirilməsi, vətəndaş cəmiyyəti quruculuğunda rolunun yüksəldilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirildi. Ümummilli Lider Heydər Əliyevin müharibə şəraitində yaşayan ölkədə son dərəcə böyük cəsarətlə əvvəlcə hərbi senzuranı, 1998-ci ilin avqustunda isə bütövlükdə KİV üzərində dövlət senzurasını ləğv etməsi, müxalif mövqeli mətbu orqanlarda ölkə rəhbərliyi haqqında yazılan qeyri-obyektiv, bir çox hallarda isə hətta etik normaları aşan fikirlərə tolerant münasibəti və başqalarına da bu fikirləri aşılaması, jurnalistlərin lazımi məlumatları ilkin mənbədən almasına yaratdığı şərait, tez-tez media nümayəndələri ilə ünsiyyətdə olub onların çoxsaylı suallarına cavabları ilə yaratdığı şəxsi nümunə, milli mətbuat tariximizin yeni dövrünün unudulmaz faktları kimi yaddaşlarda qalıb.

## Mətbuatımızın inkişafında yeni keyfiyyət mərhələləri

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin uğurları sayəsində bu gün tarixinin ən qüdrətli çağlarına gəlmiş, ərazi bütövlüyünün, suverenliyinin təmin edilməsinə nail olmuş Azərbaycanda da mətbuatın dinamik inkişafını təmin edən əsas amillərdən biri dövlət tərəfindən bu sahəyə göstərilən yüksək diqqət və dəstəkdir. Eyni zamanda media nümayəndələrinin söz, fikir və ifadə azadlığından sərbəst şəkildə istifadə etmələri üçün yaradılmış hüquqi və institusional mühitdir.

Ölkəmizdə söz, fikir və ifadə azadlığı Konstitusiya ilə təsbit olunmuşdur, yazılı və elektron kütləvi informasiya vasitələri öz hüquq və azadlıqlarından maneəsiz şəkildə istifadə etmək imkanına malikdirlər. Belə bir amil təkcə Azərbaycan mediasının davamlı inkişafına təkan vermir, eyni zamanda bu sahədə keyfiyyət baxımından zaman-zaman yeni mərhələlərə keçidi təmin edir.

Kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən qanunvericilik bazasının təkmilləşdirilməsi, media sahəsində strateji islahatların həyata keçirilməsi, qəbul olunmuş normativ-hüquqi aktlar və qərarlar onun institusional dayanıqlığını və funksionallığını artırır. Nəticə etibarilə, ölkəmizdə mətbuatın inkişafı üçün zəruri olan hüquqi baza və praktiki zəmin artıq ən yüksək səviyyədə formalaşdırılmışdır.

Prezident İlham Əliyevin hələ 2008-ci il 31 iyul tarixli “Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında” Sərəncamı ölkədə media sektorunun inkişafına dövlət səviyyəsində göstərilən davamlı diqqətin bariz nümunəsi olmaqla, bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi baxımından da mühüm əhəmiyyət kəsb etmişdir.

Həmin sərəncamla yanaşı, kütləvi informasiya vasitələrinin “Azərbaycan” nəşriyyatına olan borclarının tamamilə silinməsi də mətbuatın maliyyə yükünün azaldılmasına yönəlmiş strateji addımlardan biri kimi yadda qalmışdır. Xatırladaq ki, Ümummilli Lider Heydər Əliyevin tapşırığı ilə həmin borclar illər əvvəl dondurulmuş, sonradan isə Prezident İlham Əliyevin təşəbbüsü və siyasi iradəsi ilə tamamilə ləğv edilmişdir. Bu addım Azərbaycan mediasının iqtisadi dayanıqlığının təmin olunmasında tarixi bir mərhələ idi.

Eyni zamanda 2008-ci ildə “Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası”nın qəbul edilməsi ilə medianın sistemli və davamlı inkişafını təmin edəcək hüquqi və strateji çərçivələr müəyyən edilmişdir. Konsepsiyada mətbuatın inkişafı istiqamətində həyata keçiriləcək əsas vəzifələr, eləcə də milli maraqlara xidmət edən prioritetlər aydın şəkildə əksini tapmışdır.

Bu siyasətin məntiqi davamı olaraq, Prezident İlham Əliyevin 2009-cu il 3 aprel tarixli Sərəncamı ilə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) yaradılması müstəqil Azərbaycan mediasının inkişaf tarixində yeni bir mərhələnin başlanğıcı olmuşdur. Bu, dövlət-media münasibətlərinin institusional əsaslar üzərində qurulması və bu sahəyə sistemli dəstəyin göstərilməsi baxımından strateji əhəmiyyət daşıyır.

Azərbaycan Prezidenti mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində də ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirmişdir. Dövlətin göstərdiyi diqqət yalnız qanunvericilik və institusional dəstək ilə məhdudlaşmamış, həm də jurnalistlərin həyat şəraitinin yaxşılaşdırılması və əməyinin layiqincə qiymətləndirilməsi ilə müşayiət olunmuşdur.

Bu çərçivədə mətbuat nümayəndələrinə fəxri adların verilməsi, onların fəaliyyətinin obyektivlik, peşəkarlıq və milli maraqlara xidmət prinsipləri əsasında qiymətləndirilməsi xüsusi önəm daşıyır. Eyni zamanda Azərbaycan bu sahədə beynəlxalq miqyasda unikal nümunə formalaşdırmışdır.

Mətbuat, jurnalistika zamanın çağırışları ilə nəfəs alan, dəyişikliklərin tərcümanı olan ictimai təsisatdır. Zamanın dinamik dəyişməsi, hər dövrün öz reallıqlarının meydana gəlməsi, təbii ki, mətbuat qarşısında da yeni vəzifələr müəyyənləşdirir. Azərbaycan dövlətinin bugünkü inkişafı, həm regionda, həm qlobal məkanda oynadığı əhəmiyyətli rol, önümüzdəki böyük milli hədəflər, mətbuatımız qarşısında da yeni vəzifələr qoyur. Prezident İlham Əliyev çıxışlarında bu xüsusda demişdir: “Bu gün Azərbaycan mətbuatı müasir informasiya cəmiyyəti quruculuğunda, sosial ədalət və şəffaflığın təmin edilməsində, milli həmrəyliyin və tolerantlığın möhkəmləndililirilməsində, demokratik özünüdərkin, siyasi mədəniyyətin inkişafında, milli-mənəvi və ümumbəşəri dəyərlərin qorunub saxlanılması və təbliğində mühüm rol oynamalı, tədris və maarifləndirmə sahəsində fəaliyyətini gücləndirməlidir. Azərbaycan jurnalistikası peşəkarlıq, obyektivlik, qərəzsizlik, yüksək milli şüur və vətənpərvərlik prinsiplərinə dönmədən əməl etməli, söz və məlumat azadlığından sui-istifadənin qarşısı qətiyyətlə alınmalıdır".

## Zəfər tariximizin salnaməsi

Son bir neçə il ərzində Azərbaycanda və ümumən regionda baş verən mühüm proseslər milli mətbuat tariximizə də əbədi həkk olunmuşdur. Azərbaycan 2020-ci ilin 44 günlük Vətən müharibəsindəki tarixi Zəfərimiz, ardınca 2023-cü ilin sentyabrında həyata keçirilən lokal antiterror tədbirləri nəticəsində öz ərazi bütövlüyünü, suverenliyini tam təmin etmişdir.

Bu proseslər zamanı Azərbaycan mediası yüksək vətənpərvərlik mövqeyi nümayiş etdirmiş, informasiya müharibəsi müstəvisində fəal iştirak etmişdir. Milli mətbuat orqanlarımız və jurnalistlərimiz haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması, düşmən tərəfinin və onun informasiya dəstəkçilərinin dezinformasiyalarının ifşa olunması istiqamətində mühüm rol oynamış, Azərbaycan Ordusunun rəşadəti və qəhrəmanlığı ilə bağlı zəngin və dəyərli salnamə yaratmışlar. Hər birimiz üçün böyük qürurdur ki, ötən əsrin 90-cı illərinin əvvəllərində faciələrimizin, itkilərimizin tarixini sənədləşdirən mətbuatımız bu gün Zəfər salnaməmizi əbədiləşdirir. Azərbaycan Prezidentinin milli mətbuatımızın 150 illiyi ilə bağlı sərəncamında bu məqamlar xüsusilə qeyd olunur: “Müharibə dövründə mediamız əsl vətənpərvərlik, həmrəylik nümunəsi ortaya qoymuş, haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması, düşmənin və onun havadarlarının saxta məlumatlarının ifşası üçün xüsusi səy göstərmiş, Milli Ordumuzun, əsgər və zabitlərimizin rəşadəti, qəhrəmanlığı ilə bağlı zəngin salnamə yaratmışdır”.

Vətən müharibəsində qazanılmış Qələbədən sonra başlanmış genişmiqyaslı islahatlar çərçivəsində ölkə mediasının inkişafı istiqamətində də ardıcıl addımlar atılır. Dövlət başçısının “Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında” 12 yanvar 2021-ci il tarixli Fərmanı bu baxımdan ölkəmizdə informasiya siyasətinin təkmilləşdirilməsi, media mühitində şəffaflığın artırılması, peşəkar və dayanıqlı media sisteminin formalaşdırılması istiqamətində yeni bir dövrün əsasını qoymuşdur.

2022-ci ildə qüvvəyə minən “Media haqqında” Qanun, ölkəmizdə media fəaliyyətinin, xüsusilə də rəqəmsal dövrün çağırışlarına uyğunlaşdırılmasına və informasiya mühitinin sağlamlaşdırılmasına yönəlmiş strateji addımlardan olmuşdur.

Yeni qanunvericilik çərçivəsi ilə paralel olaraq, media subyektlərinin və jurnalistlərin fəaliyyətinə iqtisadi və sosial dəstəyin artırılması məqsədilə bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. Xüsusilə vergi azadolmalarının tətbiqi, qəzet və jurnallar üçün əlavə dəyər vergisinin ləğvi, habelə jurnalistlərə güzəştli ipoteka kreditləri vasitəsilə mənzil əldə etmək imkanının yaradılması bu sahədə görülən sistemli və məqsədyönlü addımlardandır.

Bütün tədbirlər informasiya resurslarının iqtisadi müstəqilliyinin möhkəmləndirilməsinə, eyni zamanda media nümayəndələrinin sosial rifahının yaxşılaşdırılmasına xidmət edərək, bu sektorda dayanıqlılıq və peşəkarlığın yüksəldilməsi prosesinə əhəmiyyətli töhfə vermişdir.

Müvafiq fərman əsasında Medianın İnkişafı Agentliyinin (MEDİA) yaradılması Azərbaycan mediasının sürətli irəliləyişinə dövlət dəstəyinin yeni və daha səmərəli institusional mexanizmlərlə təmin olunmasına geniş imkanlar açmışdır. Agentlik, əvvəlki dövrlərdə həyata keçirilən tədbirləri sistemləşdirərək, daha çevik, nəticəyönümlü və müasir tələblərə uyğun fəaliyyət modeli qura bilmişdir.

Agentliyin əsas fəaliyyət istiqamətləri sırasında media subyektlərinin hüquqi və iqtisadi mühitdə fəaliyyətinin tənzimlənməsi, informasiya təhlükəsizliyinin möhkəmləndirilməsi, jurnalistikanın peşəkarlıq səviyyəsinin yüksəldilməsi, medianın özünütənzimləmə imkanlarının artırılması, həmçinin ictimai maraqlara və milli təhlükəsizliyə xidmət edən medianın inkişafına dəstək göstərilməsi xüsusi yer tutur.

Azərbaycan Prezidentinin yerli və xarici jurnalistlərə mütəmadi müsahibələri, onların çoxsaylı suallarına verdiyi əhatəli cavablar, ölkə və dünya ictimaiyyəti ilə media vasitəsilə qurduğu effektiv kommunikasiya cənab İlham Əliyevin mətbuata verdiyi mühüm dəyərdir.

Dövlətimizin başçısı bütün çıxışlarında söz azadlığının təmin olunmasını prioritet məsələ hesab edir və bununla bağlı böyük siyasi iradə nümayiş etdirərək lazımi addımları atır. “Azərbaycanda aparılan siyasi islahatların əsas mənası, məqsədi ondan ibarətdir ki, ölkəmiz hərtərəfli inkişaf etsin, ölkədə yaşayan hər bir vətəndaş bütün azadlıqlardan istifadə etsin. Azərbaycanda o cümlədən mətbuat azadlığı da mövcuddur. Biz bu məsələdə çox ciddi addımlar atırıq. Söz azadlığının, mətbuat azadlığının təmin olunması bizim prioritet məsələmizdir və deyə bilərəm ki, Azərbaycan bu sahədə böyük uğurlara nail olmuşdur", - deyə Prezident İlham Əliyev bildirir. Və bunu demokratiyanın fundamental şərti kimi dəyərləndirir.

Milli mətbuatımızın yubiley ildönümlərində bu əlamətdar tarixlərin qeyd edilməsi ilə bağlı Azərbaycan Prezidentinin imzaladığı sərəncamlar, o cümlədən “Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında” Prezidentin sərəncamı da dövlət rəhbərimizin mətbuatımıza, jurnalistlərə diqqət və qayğısının daha bir təzahürüdür.

150 yaşlı mətbuatımız milli dövlətimizlə birgə gələcəyə doğru irəliləyir, güclənir, inkişaf edir, tarixin ən qüdrətli Azərbaycanının yüksəliş salnaməsini yazır.

***İradə ƏLİYEVA,***
***“Azərbaycan”***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## BMT-nin Yüksək Səviyyəli Siyasi Forumunda Azərbaycana dair təqdimatlar olub

**ABŞ-nin Nyu-York şəhərində keçirilən Birləşmiş Millətlər Təşkilatının (BMT) Yüksək Səviyyəli Siyasi Forumunda Azərbaycanda dayanıqlı inkişaf məqsədləri (DİM) üzrə əldə edilən nəticələr haqqında məlumat verilib.**

Nyu-York şəhərində BMT-nin 2025-ci il üzrə Yüksək Səviyyəli Siyasi Forumu keçirilir. "BMT-nin 2030-cu ilədək İnkişaf Gündəliyi və dayanıqlı inkişaf məqsədləri üzrə bərpa, sürətlənmə və bərabərlik üçün sübutlara əsaslanan həllərin inkişafı" mövzusunda keçirilən Forumda Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının katibi, İqtisadiyyat Nazirliyinin Dayanıqlı inkişaf və sosial siyasət şöbəsinin müdiri Hüseyn Hüseynov ölkəmizi təmsil edib.



Tədbir çərçivəsində "DİM 3: Sağlam həyat və rifah", "DİM 5: Gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi, "DİM 8: Layiqli məşğulluq və davamlı iqtisadi artım", "BMT-nin 2030-cu ilədək İnkişaf Gündəliyinin icrasına maraqlı tərəflərin cəlb edilməsi" mövzularında keçirilmiş sessiyalarda Azərbaycanda bu sahələrdə həyata keçirilən islahatlar və əldə olunan nəticələr barədə təqdimatlar edilib. Qlobal çağırışlar fonunda ölkəmizin davamlı iqtisadi inkişafı, makroiqtisadi sabitliyi, əhalinin rifah səviyyəsinin yüksəldilməsi, qeyri-neft-qaz sektorunun gücləndirilməsi, rəqəmsal iqtisadiyyatın inkişafı və digər istiqamətlərdə reallaşdırılan tədbirlər beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılıb.

## Azərbaycan nefti ucuzlaşıb

**AZƏRTAC xəbər verir ki, dünya bazarında Azərbaycan nefti ucuzlaşıb.**

"Azeri Light" markalı neftin bir barelinin qiyməti 0,49 dollar və ya 0,67 faiz azalaraq 72,18 dollar olub. Qeyd edək ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

# Uzaq məsafə yaxın münasibət

## Azərbaycanla Vyetnam arasında iqtisadi əlaqələrin genişləndirilməsi üçün imkanlar çoxdur

**Müasir dünyanın mürəkkəb və sürətlə dəyişən iqtisadi-siyasi mənzərəsində ölkələr getdikcə daha çox qarşılıqlı əməkdaşlığa üstünlük verirlər. Qlobal oyun qaydalarının yenidən yazıldığı bir dövrdə regional əməkdaşlıq formatları dövlətlər arasında körpü rolunu oynayaraq strateji tərəfdaşlıqların əsasını qoyur.**



Bu baxımdan Azərbaycan ilə Vyetnam arasındakı İqtisadi-Ticarət və Elmi-Texniki Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya sadəcə bir struktur deyil, iki dost ölkənin ortaq məqsədlər istiqamətində irəliləmək əzminin rəmzidir. Platforma həm iqtisadi əlaqələrin yeni nəfəs qazanmasına, həm də elmi və texnoloji dialoqun dərinləşməsinə xidmət edir. İki ölkənin uzaq coğrafiyalarda yerləşmsinə baxmayaraq, yaxın mövqelərdən çıxış etməsi əməkdaşlığın nə qədər dəyərli və perspektivli olduğunu bir daha sübut edir.

Xatırladaq ki, Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında diplomatik münasibətlər 1992-ci ildə qurulub. Coğrafi uzaqlıq və fərqli inkişaf sisteminə baxmayaraq, iki ölkə arasında iqtisadi, texnoloji əməkdaşlığın daha təşkilatlanmış formaya salınmasına uzun illər ehtiyac olmuşdu. Nəhayət, 2014-cü ildə iki ölkə arasında İqtisadi-Ticarət və Elmi-Texniki Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya yaradıldı. Komissiyanın hüquqi bazasını ikitərəfli protokollar, çərçivə sazişləri və hökumətlərarası razılaşmalar təşkil edir.

Belə ümumi əməkdaşlıq çərçivəsində ən son fəaliyyətlərdən biri kimi bu günlər Hanoyda Vyetnam-Azərbaycan Hökumətlərarası Komissiyanın 3-cü iclası ərəfəsində Vyetnam-Azərbaycan Birinci Biznes Şurası və Biznes-Forumu keçirilib. Biznes-forumun əsas məqsədi Azərbaycan və Vyetnam arasında ticarət və investisiya əlaqələrinin genişləndirilməsi, işgüzar dairələr arasında əlaqələrin möhkəmləndirilməsi və qarşılıqlı faydalı əməkdaşlığın yeni imkanlarının müəyyənləşdirilməsi idi. Tədbir həm hökumət nümayəndələrinin, həm də iş adamlarının bir araya gəldiyi platforma olaraq konkret layihələrin müzakirəsi, əməkdaşlıq perspektivlərinin müəyyənləşdirilməsi üçün əvəzsiz rol oynadı.

Energetika, kənd təsərrüfatı, sənaye və xidmət sektorlarında qarşılıqlı investisiyaların artırılması forumun prioritetləri sırasında yer aldı. Burada qarşılıqlı ticarət dövriyyəsinin artırılması, ixracyönümlü məhsulların təbliği, biznes-forumlar və sərgilərin təşkil olunması kimi məsələlər müzakirə olundu. Elmi-texniki əməkdaşlıq sahəsində isə yüksək texnologiyalar, rəqəmsal transformasiya və innovasiyalar, elmi tədqiqat institutları arasında birgə layihələr diqqətdən kənarda qalmadı. Enerji sektorunda neft və qazla yanaşı, alternativ enerji layihələrinin inkişafı, sənaye parklarında birgə investisiyalar üçün imkanların yaradılması da geniş şəkildə müzakirə edildi.

Biznes Şurası və Forumun açılışında Vyetnam Sosialist Respublikasının sənaye və ticarət nazirinin müavini Nquyen Hoanq Lonq və Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov çıxış etdilər. "Vyetnam şirkətləri üçün Azərbaycan yalnız 10 milyonluq daxili bazar deyil, həmçinin Qafqaz, Mərkəzi Asiya və Avropa regionlarına çıxış üçün strateji qapıdır. Eyni zamanda Azərbaycan şirkətləri üçün Vyetnam sürətlə inkişaf edən, innovasiyalara açıq və strateji əhəmiyyət kəsb edən Asiya bazarıdır. Sahibkarları Azərbaycan və Vyetnamda investisiya mühiti, iqtisadi zonalar, sənaye parkları, yüksək texnologiyalar, kənd təsərrüfatı, karbohidrogenlər və bərpaolunan enerji sahələrində informasiya mübadiləsinə qoşulmağa, qarşılıqlı biznes missiyaları təşkil etməyə, mövcud imkanlardan faydalanmağa, birgə müəssisələr yaratmağa və konkret layihələrə sərmayə yatırmağa dəvət edirik", - deyə nazir Pərviz Şahbazov vurğulayıb. Azərbaycan–Vyetnam Biznes Şurasının ilk iclasında çıxış edən KOBİA sədri Orxan Məmmədov isə bildirib ki, bu yeni platforma qarşılıqlı iqtisadi əlaqələrin dərinləşdirilməsinə, sahibkarlar arasında bilavasitə əlaqələrin qurulmasına və qarşılıqlı səfərlərin təşkili ilə biznes imkanlarının daha da artırılmasına xidmət edəcək.

Forum çərçivəsində bir neçə əhəmiyyətli razılaşmalar əldə olunub, həmçinin gələcəkdə əməkdaşlığı genişləndirmək üçün işçi qruplarının yaradılması qərara alınıb. VINEN və AZPROMO, "Phong Phu Corporation" və "GP Cotton Holdings", "Tuong Vu JSC. CO" və "Fresh – Meat", "ANC Group" MMC və "7 Center", həmçinin Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi ilə "ROX Group" SC arasında əməkdaşlıq sənədləri imzalanıb. BOEMDA ilə "ROX Group" SC arasında imzalanmış bərpaolunan enerji sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu batareya saxlama sistemləri, şəbəkədənkənar və şəbəkəyə qoşulan günəş enerjisi sistemləri, quruda və dənizdə külək enerjisi, hidrogen və ammonyak istehsalı sahəsində əməkdaşlığı nəzərdə tutur. B2B formatında keçirilən görüşlərdə isə Azərbaycan və Vyetnamdan olan şirkətlər öz məhsul və xidmətlərini təqdim ediblər. Azərbaycan tərəfindən Ələt Azad İqtisadi Zonasının nümayəndələri, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, habelə Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi tərəfindən təqdimatlar həyata keçirilib. Tərəflər arasında imzalanmış sənədlər və müzakirə olunan mövzular yaxın illərdə Azərbaycan və Vyetnam arasında iqtisadi münasibətlərin daha da güclənəcəyini göstərir.

Azərbaycan və Vyetnam arasında yaradılmış Hökumətlərarası Komissiya iki ölkənin strateji maraqlarının uzlaşdığı vacib bir platformadır. Bu əməkdaşlıq formatı yalnız iqtisadi-ticari əlaqələrin deyil, həm də elmi, texnoloji və humanitar sahələrin inkişafı üçün zəmin yaradır. Qlobal çağırışlar fonunda belə mexanizmlər iki ölkənin potensialından qarşılıqlı fayda əldə etmək üçün əhəmiyyətli alətdir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Ənənəvi innovasiyalar daha çox mənfəətə yönəldiyi üçün...

## BU GÜN HƏM DƏ SOSİAL İNNOVASİYALARA EHTİYAC VAR

**Müasir dünyada iqtisadi inkişaf və sosial rifaha qovuşmaq yeni yanaşma tələb olunur. Çünki indi elə bir dövrdə yaşayırıq ki, zəngin təbii sərvətlər olmadan da iqtisadiyyatı inkişaf etdirməklə insanların həyat şəraitini yaxşılaşdırmağa imkanlar var. Məsələn, dünya bazarına yüksək gəlir gətirən məhsullar çıxarmaqla xammal ixracından çox qazanc əldə etmək olar. Yaxud innovativ texnologiyalardan geniş istifadə etməklə də sosial rifaha nail olmaq mümkündür.**

Ancaq bir problem də var ki, iqtisadiyyatda innovativ texnologiyalardan geniş istifadə hər zaman sosial rifahın təminatına və sosial bərabərliyin yaranmasına zəmanət vermir. Bu da insan amillərindən qaynaqlanır. Götürək sahibkarları. Onlar əksər hallarda daha çox gəlir əldə etmək üçün sosial sahəyə və ətraf mühitə vəsait xərcləməkdə xəsislik edirlər. Ona görə də sosial rifaha ən çox müsbət təsir göstərən səbəb iqtisadi inkişafdır.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "Enterprise Azerbaijan" portalının rəhbəri İsa Qasımov bildirir ki, qabaqcıl iqtisadiyyatlarda biliyə verilən əhəmiyyət və bu sahəyə qoyulan investisiyalar hər il artır: "Bilikdən istifadə innovasiyaların inkişafı üçün əlverişli zəmin hazırlayır. Yeni ideyalar, innovativ texnologiyalar, kreativ məhsullar və ya xidmətlər – bunların hamısı innovasiya proseslərinin nümunələridir. Bazar iqtisadiyyatı şəraitində innovasiyalara qlobal texnosahibkarlar daha böyük investisiyalar qoyur. Şirkətlər innovativ fəaliyyətləri ilə yeni məhsullar ərsəyə gətirir, bazar payını artırmağa çalışır və daha çox gəlir əldə etməyi hədəfləyirlər. Amma bu cür innovasiyalar həmişə cəmiyyətin ümumi rifahının yaxşılaşmasına böyük təsir göstərmir".

İ.Qasımov qeyd edir ki, innovasiyalar bəzən iqtisadi artıma səbəb olsa da, bunun əvəzində sosial problemlər öz həllini yetərincə tapa bilmir, cəmiyyətlərdə bərabərsizlik qalır (bəzən artır), həyat səviyyəsi gözlənildiyi kimi yüksəlmir.

Mütəxəssisin sözlərinə görə, qlobal bazarda özəl sektor innovasiyaların ən böyük lokomotivlərindəndir. İnnovasiyalara əhəmiyyət verən şirkətlər bazarda rəqabət aparmaq, müştərilərin tələblərinə cavab vermək və şirkətin gəlirlərini artırmaq üçün daim yeni məhsullar və ya xidmətlər formalaşdırırlar. İnnovasiya proseslərinə əhəmiyyət verən iqtisadiyyatlar daha güclü olur. Bir sözlə, bilikdən istifadəni daha çox təmin etməklə daha çox əlavə dəyər formalaşdıran iqtisadiyyatlar rəqabətdə ön plana çıxır. Bunun nəticəsində dünyanın tədqiqat və inkişaf xərcləri 2023-cü ildə təqribən 3 trilyon dollar olub ki, bu da əvvəlki illərlə müqayisədə daha yüksək göstəricidir".



Məlum olduğu kimi, özəl sektorun əsas məqsədi yüksək qazanc əldə etməkdir. Buna görə də innovasiyalar daha çox məhsul və ya xidmət satmağa, istehlakı artırımağa yönəlir. Bu zaman sosial rifah və ya ətraf mühitin qorunması kimi məsələlər arxa plana keçə bilər. Məsələn, şirkətlər biznes fəaliyyətlərində daha çox məhsul satmağa, yüksək gəlir qazanmağa fokuslanır ki, bu da ehtiyacdan artıq istehlakın formalaşmasına gətirib çıxarır. Beləliklə, özəl sektorun innovasiya fəaliyyəti iqtisadi artıma səbəb olsa da, bu artım heç də həmişə cəmiyyətin ümumi rifahına bərabər səviyyədə təsir etmir.

İsa Qasımovun sözlərindən məlum olur ki, innovasiya sahəsində uzunmüddətli və dayanıqlı inkişafın təminatı elm və təhsilə investisiyaların artırılmasıdır: "Elm yalnız yeni texnologiyalar formalaşdırmaqla kifayətlənmir, həm də cəmiyyətin müxtəlif problemlərinin həll yollarını tapmağa çalışır. Tarix göstərir ki, çox böyük və təsirli innovasiyalar məhz elmi tədqiqatlar nəticəsində yaranıb. Məsələn, internetin özü dövlət və elmi institutların birgə səyi ilə inkişaf etdirilib. Peyvəndlər və digər tibbi kəşflər insan sağlamlığını xeyli yaxşılaşdırıb. Təhsil sahəsində inkişaf edən yeni üsul və texnologiyalar isə daha çox insana biliyə çıxış imkanı verir".

Müasir dövrün tələblərinə görə, elm və təhsil müəssisələri innovasiya prosesində risk almağa və uzunmüddətli layihələrə yönəlməyə hazır olmalıdırlar. Onların məqsədi yalnız qazanc deyil, həm də ictimai fayda, biliklərin paylaşılması və davamlı inkişafdır. III nəsil universitetlərin məqsədləri təhsil, tədqiqat və bilikdən istifadə olmalıdır. Bu məqsədlərin formalaşdırdığı əlavə dəyər isə təhlil və analitik bacarıqlara malik mütəxəssislər, eləcə də sosial sahibkarlardır. Həmin proseslərdə elm və özəl sektor arasındakı əlaqə olduqca vacibdir. Hər iki sahə bir-birini tamamlayaraq daha uğurlu və genişmiqyaslı innovasiyaların yaranmasına şərait yaradır. Lakin bu işdə universitetlər zəif qaldığı halda, istənilən biznes bazardakı mövqeyini qorumaq üçün yollar axtarırlar. Universitetlərdən intellektual dəstək ala bilməyən sektor belə vəziyyətdən əziyyət çəksə də, güclü bizneslər öz maraqlarına uyğun innovasiya prosesini qurmağa cəhdlər edə bilirlər. Nəticədə innovasiyalara müstəqil nail ola bilən tərəflər daha da güclənir və bazar payının artırılması istiqamətində startegiyalar tətbiq edirlər. Proseslərin belə davam etdiyi şəraitdə sosial bərabərsizlik artır və cəmiyyət daha çox istehlakçı mövqeyində qalır.

İsa Qasımov hesab edir ki, bazar iqtisadiyyatı şəraitində ənənəvi innovasiyalar çox vaxt yalnız mənfəətə yönəlir: "Amma bu gün daha çox sosial məsuliyyət daşıyan, cəmiyyətin və ətraf mühitin rifahını əsas götürən innovasiya modellərinə ehtiyac var. Belə yanaşmaya sosial innovasiyalar deyilir. Sosial innovasiyalar yalnız biznesin uğuru üçün deyil, həm də sosial problemlərin həlli, davamlığın və bərabərliyin artırılması, ekoloji davamlığın təmin olunması kimi məsələlərə fokuslanır. Burada əsas məqsəd cəmiyyətə real fayda verərək biznesin davamlığına nail olmaqdır. Bu cür yanaşmalar sosial sahibkarlığı inkişaf etdirir. Sosial sahibkarlar həm sosial, həm də iqtisadi məqsədləri birləşdirir, cəmiyyətin ehtiyaclarına cavab verən, davamlı həllər təklif edir. İnnovasiyalara əhəmiyyət verməyən təşkilatlar bazarda dayanıqlıq göstərə bilmirlər. Elm və təhsil ilə məşğul olan bilik müəssisləri (universitetlər və tədqiqat institutları) bazardan olan biznes tərəfdaşları ilə birlikdə daha effektiv təsirlər formalaşdıra bilirlər. Şübhəsiz ki, bu əməkdaşlıq olmadığı halda, bizneslər bilik müəssisələrindən ayrı da olsa (qlobal bazar tendensiyalarının tələbinə uyğun), innovasiya etməyə cəhdlər edə bilərlər. Ancaq bu zaman əldə edilən nəticələr sosial rifahla yox, yalnız iqtisadi artımla müşahidə olunar".

Bütün bunlardan belə nəticə çıxarmaq olar ki, bilik istehsalı ilə məşğul olan müəssislərin (beyin mərkəzləri, universitetlər, tədqiqat institutları və digər) innovasiya proseslərindən kənar qalmaları və ya bu prosesdə lokomotiv rol formalaşdıra bilməmələri həmin müəssisələrin təsirsizləşməsinə gətirib çıxarır. Belə vəziyyət isə cəmiyyətin istehlak asılılığını artırır, gələcək rifah üçün yaxşı vədlər vermir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Azərbaycan 3-cü Çin Beynəlxalq Təchizat Zənciri Sərgisində təmsil edilir

**İqtisadiyyat Nazirliyinin dəstəyi və Azərbaycanın Çindəki ticarət nümayəndəliyinin təşkilatçılığı ilə Pekində keçirilən 3-cü Çin Beynəlxalq Təchizat Zənciri Sərgisində (CISCE) Azərbaycan vahid ölkə stendi ilə iştirak edir.**



CISCE-nin "Ağıllı istehsalat" ekspozisiyasında qurulmuş stenddə ölkəmizin əlverişli biznes mühiti, o cümlədən sənaye parkları və Ələt Azad İqtisadi Zonasında investorlar üçün təqdim olunan imtiyazlar, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının potensialı barədə ətraflı məlumatlar əks olunub.

Sərgi çərçivəsində yüksək texnologiyalar, kənd təsərrüfatı, tikinti materialları, yeni materiallar, avadanlıq istehsalı, elektrik avtomobillər, enerji texnologiyaları kimi sahələrdə fəaliyyət göstərən 50-dən çox şirkətlə danışıqlar aparılıb və onlara ölkəmizin biznes mühiti haqqında materiallar təqdim olunub.

Qeyd edək ki, CISCE ticarətin, investisiya əməkdaşlığının və mübadilənin təşviqinə, innovasiyaların birləşdirilməsinə xidmət edir. Sərginin ekspozisiya sahəsi qabaqcıl istehsal, təmiz enerji, ağıllı avtomobil, rəqəmsal texnologiya, sağlam həyat və yaşıl kənd təsərrüfatı təchizat zəncirləri bölmələrindən ibarətdir. Burada qabaqcıl konsepsiyalar, məhsullar və texnologiyalar, həmçinin maliyyə və sığorta, logistika və distribütorluq, biznes konsaltinq və hüquqi xidmətlər kimi xidmətlər nümayiş etdirilib.

## ƏƏSMN-nin fəaliyyət sahələri üzrə 304 minədək e-arayış verilib

**Bu ilin birinci yarımilində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) fəaliyyət sahələri üzrə 303,7 min elektron arayış verilib.**

Son illər əmək, məşğulluq, sosial təminat, əlillik, reabilitasiya və s. sahələr üzrə geniş elektronlaşma proqramı çərçivəsində bir çox e-arayış xidməti yaradılıb.

Bu e-xidmətlər vətəndaşlara iş yeri, əlillik, pensiya, müavinət, təqaüd, maddi yardım, ünvanlı yardım, dövlət tərəfindən mənzil və avtomobillə təmin edilmə, fərdi şəxsi hesab və s. barədə e-qaydada arayış əldə etmələrinə imkan yaradır.

# REGİONLAR

## Naftalanda milli mətbuatın 150 illiyi qeyd edilib

**Milli mətbuatın yaranmasının 150 illik yubileyi ilə bağlı Naftalan Şəhər İcra Hakimiyyətində bir qrup aparıcı media nümayəndələri ilə görüş keçirilmişdir.**



Şəhər icra hakimiyyətinin başçısı Vüqar Novruzov çıxış edərək Azərbaycanda sağlam və peşəkar mətbuatın formalaşmasında, söz və mətbuat azadlığının təmin edilməsində Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin xidmətlərindən danışmışdır. Qeyd edilmişdir ki, bu il 150 illik yubileyi qeyd olunan Azərbaycan milli mətbuatı xalqımızın maariflənməsi, milli ideyaların təbliği və cəmiyyətin formalaşmasında mühüm rol oynayır: "Naftalan Şəhər İcra Hakimiyyəti də hər zaman kütləvi informasiya vasitələri ilə səmərəli və qarşılıqlı faydalı əməkdaşlığa böyük önəm verir. Media ilə qurulan bu əməkdaşlıq ictimai rəyin düzgün formalaşması və şəffaf idarəçiliyin təmin olunmasında mühüm rol oynayır".

Sonra söz kütləvi informasiya vasitələrinin nümayəndələrinə verilmişdir. Onlar çıxışlarında ölkəmizdə mətbuatın azad və maneəsiz fəaliyyət göstərməsi üçün yaradılan əlverişli şəraitdən danışaraq bildirmişlər ki, Azərbaycan mətbuatı dövlət tərəfindən göstərilən ardıcıl və məqsədyönlü dəstək sayəsində davamlı inkişaf yolu keçir. Media sahəsində həyata keçirilən islahatlar, göstərilən yüksək diqqət və qayğı jurnalistlərin peşəkar fəaliyyətinə geniş imkanlar açır.

Tədbirdə Naftalan neftinə, onu dünyada tanıdan beynəlxalq sağlamlıq və turizm mərkəzi sayılan Naftalana həsr olunmuş "Naftalan - Möcüzəni Hiss Et" adlı yeni çapdan çıxmış kitab ilk olaraq, mətbuat nümayəndələrinə təqdim edilmişdir. Sonda milli mətbuatın 150 illiyi münasibətilə media nümayəndələrinə Fəxri fərmanlar və xatirə hədiyyələri verilmişdir.

## Qusarda əkinçilərin problemləri iş başında öyrənilir

**Son illər ölkəmizdə həyata keçirilən aqrar islahatlar səmərəsiz qalmır. Həmin islahatlar sayəsində daxili bazarın kənd təsərrüfatı məhsulları ilə təminatı yaxşılaşır, ixracın həcmi artır, kənd sakinlərinin məşğulluq və gəlir əldə etmək imkanları genişlənir.**



Aqrar sahədə əldə edilən müsbət nəticələrdə Qusar rayonunun da payı var. Rayonda yetişdirilən məhsulların həcmi, gətirəcəyi fayda mütəxəssislər tərəfindən öncədən proqnozlaşdırılır və məhsuldarlığın yüksək olması üçün tədbirlər görülür, o cümlədən aqrotexniki xidmətlər yerinə yetirilir.

Rayon rəhbərliyi də kənd təsərrüfatı sahəsinə xüsusi diqqət verir, mütəmadi ayrı-ayrı təsərrüfatlarda olur, əkin sahələrinə baxış keçirir və yerli fermerlərlə görüşür, problemlərini öyrənir, tədbilər görür. Bu günlər RİH-in başçısı Sahir Məmmədxanov taxıl biçilən sahələrdə olmuş, fermerlərlə söhbət etmiş, onların qarşılaşdıqları çətinliklər və məhsuldarlığın vəziyyəti ilə maraqlanmışdır. Fermerlərin problemlərinin təcili həlli üçün yerindəcə tapşırıqlar vermişdir.

Sonra o, tərəvəz əkinlərinin mövcud durumu ilə tanış olmuş, sahələrdə görülən işlər, suvarmanın vəziyyəti və məhsul yığımına hazırlıq prosesi barədə məlumat almışdır.

Qeyd edək ki, Qusar rayonunda yüksək keyfiyyətli məhsul əldə etmək üçün bütün şərait var. Daxili bazarlarda məhsulun Qusara aid olduğunu bilən kimi müştərilər onu həvəslə alırlar. Çünki artıq bir ilə yaxındır ki, rayonda yetişdirilən məhsullar mütəxəssislər tərəfindən dəfələrlə yoxlanılır. Belə yoxlamalar rayonda kənd təsərrüfatı sektorunun inkişafına, mövcud problemlərin vaxtında müəyyənləşdirilərək aradan qaldırılmasına xidmət edir.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## ● Masallıdan iki xəbər

### Şərəfə kəndi daha işıqlı olacaq

**Masallı rayonunda elektrik təsərrüfatının yenilənməsi istiqamətində işlər davam edir.**

Bu çərçivədə Masallı Elektrik Şəbəkəsinin əməkdaşları Şərəfə kəndində 700 metr uzunluğunda 35 KVA-lıq yerüstü elektrik xəttini yeraltı kabellərlə əvəzləyirlər.

Layihənin məqsədi kənd əhalisinin dayanıqlı və təhlükəsiz enerji təchizatını təmin etmək, həmçinin elektrik şəbəkəsinin müasir tələblərə uyğunlaşdırılmasıdır. Yeraltı elektrik xətləri həm hava şəraitindən asılı olmayan fasiləsiz enerji təminatına, həm də ətraf mühitin estetik görünüşünün yaxşılaşdırılmasına xidmət edir. Eyni zamanda qəza risklərini minimuma endirərək sistemin etibarlılığını artırır.

### Yolların təmiri davam edir

**Əhalinin rahat və təhlükəsiz hərəkətini təmin etmək üçün bir sıra küçə və kənddaxili yollarda təmir-bərpa işləri aparılıb.**

47 saylı Yol İstismarı MMC xeyriyyəçilərin maddi dəstəyi ilə Mahmudavar kəndində uzunluğu 400 metr olan "Xocalı" məhəlləsinə, Miyanku kəndində uzunluğu 460 metr olan şəhid Elvin Mirzəyev adına küçəyə, Sığıncaq kəndində şəhid Mehti Abbasov adına tikilmiş bulaq-kompleksinin qarşısına asfalt örtüyü döşəmişdir.

*S.CAVADOV,*
*"Azərbaycan"*

## Nizami yurdunda Vaqif ruhu

**Azərbaycan ədəbiyyatının və poeziya ənənələrinin yaşadılması, zəngin milli-mədəni irsimizin təbliği və gələcək nəsillərə ötürülməsində rolu olan, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Vaqif Poeziya Günləri hər il olduğu kimi, bu il də iyul ayının ikinci ongünlüyündə qeyd edilir.**



Festivalın rəsmi açılış mərasimi Molla Pənah Vaqifin doğulduğu Qazax rayonunda keçirilib. Qazaxdan başlanan poeziya marafonu qədim Gəncənin zəngin mədəni mühitində davam edərək söz və sənətsevərləri bir araya gətirib. Əvvəl Mir Cəlal Paşayevin Ev-muzeyində "Poeziya saatı" təşkil olunub. Tədbirdə tanınmış yazıçı və şairlər çıxış edərək poeziyanın insan qəlbinə təsir gücündən, onun ruhun dərinliklərinə necə nüfuz etdiyindən danışıblar. Sonra Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyası solistlərinin iştirakı ilə konsert proqramı təqdim olunub.

Qeyd edək ki, Vaqif Poeziya Günləri Heydər Əliyev Fondunun, Mədəniyyət Nazirliyinin və Azərbaycan Yazıçılar Birliyinin təşkilatçılığı ilə keçirilir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Gəncə teatrı beynəlxalq festivalda mükafata layiq görülüb

**Gürcüstanda keçirilən və 10 gün davam edən "Nodar Dumbadze – Gürcü Ədəbiyyatı" adlı beynəlxalq teatr festivalında Azərbaycan, İspaniya, Özbəkistan, Qazaxıstan, İsrail və Yunanıstan teatrları ilə yanaşı, 15 yerli gürcü teatr kollektivi iştirak edib.**



Festivalda Nodar Dumbadzenin və digər gürcü klassiklərinin əsərləri əsasında səhnələşdirilmiş 21 tamaşa təqdim olunub. Azərbaycanı təmsil edən Gəncə Dövlət Milli Dram Teatrı, Aleksandr Tsutsunava adına Ozurqeti Dövlət Dram Teatrı ilə birgə hazırladığı tamaşanı təqdim edib. Tamaşa N.Dumbadzenin "Kukaraça" əsəri əsasında hazırlanmışdır. Bu uğurlu müştərək layihə festivalın "Ən yaxşı müştərək layihə" nominasiyası üzrə qalib gələrək xüsusi mükafata, diplom və hədiyyələrə layiq görülüb.

Tamaşanın bədii rəhbəri Azərbaycan Dövlət Akademik Musiqili Teatrının direktoru Aqil Bəhramlı, layihə koordinatoru Gəncə Dövlət Milli Dram Teatrının aktyoru Yusif Cəfərov, quruluşçu rejissoru Gürcüstanın Əməkdar incəsənət xadimi Vasili Ciqoqidze, quruluşçu rəssamı isə Lomqul Murusidzedir.

*S.ƏLİYEV,*
*"Azərbaycan"*

## "Öz əlim, öz başım"

### Daha çox regionlarda inkişaf edən fərdi sahibkarlığın iqtisadiyyatda rolu və perspektivləri genişdir

**Müasir iqtisadi sistemdə sahibkarlıq, özəl sektor hər bir dövlətin sosial-iqtisadi inkişafının əsas dayaqlarındandır. Bu fəaliyyət növləri içərisində sadəliyi, çevikliyi və geniş fəaliyyət imkanları ilə seçilən fərdi sahibkarlıq xüsusi yer tutur.**

Fərdi sahibkar hüquqi şəxs yaratmadan qısa müddət ərzində fəaliyyətə başlaya bilir ki, bu da bürokratik maneələri minimuma endirir, sahibkara öz ideyalarını sərbəst həyata keçirmək, gəlir əldə etmək və bazarda mövqeyini formalaşdırmaq imkanı verir. O, istədiyi sahədə işləyə, imkanlarını sərbəst idarə edə və lazım gəldikdə öz adından müqavilələr bağlaya bilir. Bu sahibkarlıq növü xüsusən kiçik və orta biznes üçün əlverişlidir. Çünki çevikdir və cəmiyyətin gündəlik ehtiyaclarını tez bir zamanda qarşılayır. Fərdi sahibkarlar bazar şəraitinə tez uyğunlaşa bilir, yeni trendlərə və müştəri tələblərinə sürətlə reaksiya verirlər. Onların fəaliyyət sahələri genişdir, kiçik ticarətdən tutmuş xidmət sahələrinə, kənd təsərrüfatından sənətkarlığa qədər müxtəlif istiqamətlərdə işləyə bilirlər. Bu da cəmiyyətin hər təbəqəsindən olan insanların ehtiyaclarını ödəməyə qapı açır.

Azərbaycanda fərdi sahibkar olmaq üçün mürəkkəb proseslərə ehtiyac yoxdur - bu, onun birinci üstünlüyüdür. İkinci üstünlüyü sərbəst qərarvermə imkanlarının olmasıdır. Çünki bu fəaliyyət növünün qeydiyyat və idarəetmə prosesi sadədir və az vaxt tələb edir. Fərdi sahibkar fəaliyyətini sərbəst şəkildə planlaşdırır, gəlirlərini və xərclərini özü idarə edə bilir ki, bu da bazara daha tez uyğunlaşmağa şərait yaradır. Üçüncü mühüm üstünlük aşağı vergi yüküdür. Azərbaycanda sadələşdirilmiş vergi sistemi çərçivəsində fəaliyyət göstərən fərdi sahibkarlar digər sahibkarlıq subyektlərinə nisbətən daha az vergi ödəyirlər.



Bu qədər üstünlüklərə malik olan fərdi sahibkarlığın ölkəmizdə nə qədət geniş yayıldığını göstərən statistik rəqəmlərə müraciət edək: Dövlət Vergi Xidmətinin məlumatına görə, 2025-ci il iyulun 1-nə kimi hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı 1 milyon 416 mini ötüb. Bu rəqəm ölkədə fərdi sahibkarlığa marağın artdığına dəlalət edir. Belə yüksək göstərici həm də insanların öz işini qurmağa, fərdi şəkildə qazanc əldə etməyə və təşəbbüskar fəaliyyətə meyilli olduqlarını göstərir. Bu artım eyni zamanda dövlətin sahibkarlıq fəaliyyətinin sadələşdirilməsi, vergi yükünün azaldılması və elektron qeydiyyat sistemlərinin tətbiqi kimi islahatlarının real nəticəsidir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, hər dörd fərdi sahibkardan üçü "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq", "Ticarət; nəqliyyat vasitələrinin təmiri", "Nəqliyyat və anbar təsərrüfatı" və "Digər sahələrdə xidmətlərin göstərilməsi" sahələri üzrə qeydiyyatdan keçib. Sahibkarlıqla məşğul olmaq niyyətində olan fərdi sahibkarların əsas hissəsi Bakıda (26,2 faiz), Lənkəran-Astara (10,3 faiz), Qazax-Tovuz (7,9 faiz) və Mərkəzi Aran (7,2 faiz) iqtisadi rayonlarında qeydiyyata alınıb. Fərdi sahibkarların 76,5 faizini kişilər, 23,5 faizini qadınlar təşkil edib.

Elə buradaca əlavə edək ki, son illər Azərbaycanda qadınların da fərdi sahibkarlıq sahəsində fəallığı artmaqdadır. Xüsusən fərdi sahibkarlıqda xanımların iştirakı sosial-iqtisadi inkişafa mühüm töhfə verir. Xanım sahibkarlar əsasən xidmət, təhsil, qida, turizm, gözəllik və əl işləri kimi sahələrdə uğurlu nəticələr əldə edirlər. Onların fərdi şəkildə iqtisadi təşəbbüslər göstərməsi təkcə ailə büdcəsinə təsir etmir, həm də qadınların cəmiyyətdəki iqtisadi rolunu gücləndirir. Dövlət və qeyri-hökumət təşkilatları tərəfindən qadın sahibkarlara yönəlik təlim proqramları, mikromaliyyə dəstəyi və mentorluq təşəbbüsləri onların biznes fəaliyyətini genişləndirməyə şərait yaradır. Qadınların bu sahədə fəallığı həm də regionlarda yeni imkanların açılmasına və sosial sabitliyin möhkəmlənməsinə səbəb olur.

Qadın sahibkarların fəlaiyyəti ilə bağlı Dövlət Statistika Komitəsinin məlumatında yer alan rəqəmlərə nəzər salaq: qadınlar "Digər sahələrdə xidmətlərin göstərilməsi" fəaliyyət növündə mövcud sahibkarların ümumi sayının 37,3, "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq" fəaliyyət sahəsində 26, "Ticarət; nəqliyyat vasitələrinin təmiri" fəaliyyət sahəsində 22 faizini təşkil edir. Sahibkar qadınların 28,4 faizi Bakıda, 10 faizi Lənkəran-Astara, 9,6 faizi Qazax-Tovuz, qalanları digər iqtisadi rayonlarda qeydiyyatdan keçib. Fərdi sahibkarların kişi və qadın nisbətinə, eləcə də regionlar üzrə bölgüsünə baxdıqda aydın görünür ki, bəzilərində qadın sahibkarların sayı ölkə üzrə orta göstəricidən daha yüksəkdir. Məsələn, Qazax-Tovuz iqtisadi rayonunda qadın sahibkarların payı 28,5, Naxçıvanda 27,6, Gəncə-Daşkəsən bölgəsində 26,1, Bakıda isə 25,4 faizdir. Bu rəqəmlər göstərir ki, qadınlar yalnız paytaxtda deyil, regionlarda da öz işlərini qururlar və iqtisadi həyatda fəal iştirak edirlər.

Qeyd olunan statistik göstəricilər fərdi sahibkarlığın ölkə üzrə geniş yayılmasını və onun iqtisadi sistemdə mühüm yer tutduğunu ortaya qoyur və göstərir ki, fərdi sahibkarlıq həm şəxsi təşəbbüsün bir formasıdır, həm də ölkə iqtisadiyyatının daha çevik və dinamik işləməsinə kömək edən mühüm vasitədir. Bu növ sahibkarlığın inkişafı ölkənin sosial-iqtisadi sabitliyinin təmin olunmasında mühüm əhəmiyyət kəsb etdiyi üçün gələcəkdə də həmin istiqamətdə islahatların davam etdirilməsinin vacibliyini ortaya qoyur.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Biləsuvarda ictimai asayişi və yol hərəkəti təhlükəsizliyini daha etibarlı təmin etmək üçün texnoloji tədbirlər görülür

**Biləsuvar rayonunda vətəndaşların təhlükəsizliyinin təmin olunması, ictimai asayişin qorunması və yol hərəkəti qaydalarına əməl edilməsi səviyyəsinin yüksəldilməsi üçün genişmiqyaslı təhlükəsizlik tədbirlərinə start verilib.**

Daxili İşlər Nazirliyi tərəfindən "Təhlükəsiz şəhər" layihəsi çərçivəsində rayon ərazisində ümumilikdə 80 müxtəlif nöqtədə 176 müasir müşahidə kamerasının və 12 radar cihazının quraşdırılması işlərinə başlanılıb. Quraşdırılan kameralar həm şəhər mərkəzini, həm də rayonun ətraf ərazilərini əhatə etməklə ictimai yerlərdə baş verən hadisələrin vaxtında aşkarlanmasına, operativ müdaxilə imkanlarının artırılmasına və ümumi təhlükəsizlik səviyyəsinin yüksəldilməsinə xidmət edəcək. Həmin cihazlar, əsasən, yüksəkintensivlikli yol sahələrində, qəza riskinin yüksək olduğu ərazilərdə və tez-tez sürət həddinin aşılması halları qeydə alınan istiqamətlərdə yerləşdirilir. Avtomatik rejimdə fəaliyyət göstərəcək bu sistem vasitəsilə qayda pozuntularının aşkarlanması daha operativ və şəffaf şəkildə həyata keçiriləcək, sürücülərin məsuliyyət hissi artacaq və nəticə etibarilə yol hərəkəti daha təhlükəsiz olacaqdır.




Görülən bu tədbirlər Biləsuvar rayonunda müasir texnologiyaların tətbiqi ilə ictimai təhlükəsizliyin gücləndirilməsi və vətəndaş rifahının yüksəldilməsi istiqamətində atılmış mühüm addımlardan biridir. Layihənin mərhələli şəkildə icrası, nəticədə rayon ərazisində baş verən cinayət hallarının və yol-nəqliyyat hadisələrinin azalmasına təsir edəcək.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*





# Vətən deyəndə...





● Tarixi irsimiz

# 30 illik “əsir”likdən qurtulmuş müqəddəs məkan – Ağdam Cümə məscidi

**Erməni işğalından azad olunmuş bütün şəhərlər, kənd və qəsəbələrlə bağlı xeyli acılı-şirinli xatirələrimiz var. Üstündən zamanın soyuq küləkləri əssə də, bu xatirələr yaddaşımızda həmişə canlıdır. Onlar ürəyimizdən, qəlbimizdən heç vaxt pozulmur, silinmir.**

Həm Birinci, həm İkinci Qarabağ müharibələrində, həm də Aprel döyüşlərində bir çox bölgələrə ezamiyyətə getmiş, bəzən kədərli, bəzən də sevinc dolu yaddaqalan, unudulmaz hadisələrin şahidi olmuşuq. Gördüyümüz, gərgin anlarını yaşadığımız, şahidi olduğumuz xatirələrə dönmüş bu hadisələr tez-tez əlimizdən tutub bizi arxasınca o illərə, o çağlara aparır.

Başqa bölgələrimiz kimi, Ağdam rayonu ilə də bağlı yaddaşımızda sayagəlməz qədər üst-üstə qalaqlanmış bir az kədərli, bir az “göz”ləri nəmli, bir az da sevincə, fərəhə bürünmüş xatirələrimiz dolaşmaqdadır. Acılı-şirinli bu xatirələrin bütün səhifələri bizim üçün olduqca əziz və doğmadır.

İşğaldan əvvəl Ağdama saysız-hesabsız səfərlərimiz olmuşdu. Onun bir-birinə bənzəməyən kənd-kəsəklərini çox görmüşdük. Bu gözəl diyarın qanlı döyüşlər gedən ön mövqeləri də bizə tanış idi. Həmin qan və barıt qoxulu mövqelərdə yurdumuza keşik çəkən igid zabit və əsgərlərimizlə görüşüb söhbət etmişdik. Hərbçilərimiz torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə son damla qanlarınadək vuruşacaqlarını demişdilər.

Kişi kimi də dediklərinə əməl etmişdilər. Yurdumuzun müdafiəsində cəsarətlə vuruşmuşdular, döyüşlərdə igidlik və qəhrəmanlıqlar göstərmişdilər. Şəhid olmuşdular, amma mövqelərindən geri çəkilməmişdilər. Min təəssüflər olsun ki, erməni qəsbkarları havadarlarına arxalanaraq mövqelərimizə güclü və aramsız hücumlar edərək şəhəri ələ keçirmişlər. Başqa bölgələrimiz kimi, Ağdam da 30 ilə yaxın ermənilərin tapdağında qaldı. Həm yaddaşımıza, həm də tariximizə qara hərflərlə yazılmış həmin illəri bu gün acı xatirələrlə yada salırıq.

Şükürlər olsun ki, 27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində başlanan İkinci Qarabağ müharibəsində uzun illər erməni işğalında qalmış, Qarabağın qapısı hesab olunan Ağdam noyabrın 20-də düşmənlərdən təmizləndi. Şanlı Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında qəsbkar qüvvələri diz çökdürdü. 30 ilə yaxın bağlı qalmış yollarımızı 44 günlük Vətən müharibəsində qazanılmış Zəfəri üzümüzə geniş açdı. Ürəyimiz sevinclə, qəlbimiz fərəhlə doldu. Zabit və əsgərlərimizin qəhrəmanlığı sayəsində əldə olunmuş Qələbə ürəyimizdən kədəri, qəmi həmişəlik olaraq silib təmizlədi.

İndi budur, üzümüzdə sevinc, ürəyimizdə qürur hissləri ilə üstündən illər keçəndən sonra Ağdama gedirik. İkinci Qarabağ müharibəsindən əvvəl ön mövqelərin yerləşdiyi Təzəkənd kəndini keçəndən sonra gördüyümüz uçurulmuş evlər, viranə qoyulmuş yaşayış məntəqələri ovqatımızı korlayır. Erməni qəsbkarları işğal dövründə başqa bölgələrimiz kimi, Ağdam şəhərini də, onun kəndlərini də yerlə-yeksan etmişlər, daşı-daş üstə qoymamışlar. Hər yeri viran etmiş, dağıtmış, kəndləri, qəsəbələri xarabalığa çevirmişlər.

Ermənilərin xaraba qoyduqları Ağdamı görənlərin bəziləri bu gözəl şəhəri Qafqazın Xirosiması adlandırırlar. İşğalçılar 1993-cü ilin iyulunda şəhəri ələ keçirmiş və sonrakı illərdə darmadağın etmişlər. Şükürlər olsun ki, dövlətimizin gücü, qüdrəti ilə başqa bölgələrimiz kimi Ağdam da bu gün yenidən qurulur. Günlər keçdikcə şəhər cənnətə çevrilir, torpağın da, daşın da üzü gülür.

Ermənilərin Ağdamda uçurmadıqları yeganə tikili Cümə məscidi idi. Bəziləri bunu onun dini və tarixi abidə olduğu ilə əlaqələndirirlər. Amma bu, inandırıcı deyil. Çünki erməni qəsbkarları işğal dövründə əllərində saxladıqları ərazilərdə onlarla, yüzlərlə dini və tarixi abidələrimizi uçurub dağıtmışlar. Salamat qalanlarda da donuz, mal-heyvan saxlamışlar. Qəsbkarlar Ağdam məscidini tövləyə çevirmiş, bu müqəddəs məkanı təhqir etmişlər. Bunu sübut edən şəkillər də var. Bütün bunlar onu göstərir ki, düşmən həm dini, həm də tarixi abidələrimizə barbarcasına yanaşmışlar. Bəzi hərbi ekspertlərin rəylərinə görə isə ermənilər Ağdam məscidini növbəti döyüşlərdə oriyentir kimi istifadə etmək məqsədilə saxlayırmışlar. Bu, ən ağlabatan, inandırıcı variantdır.

Bu fikirlər içində ətrafında yeni yaşayış binaları tikilən Ağdam Cümə məscidinə gəlib çatırıq. Həyətin girişində məscidin işğal dövründəki görkəmini özündə əks etdirən şəkillər vurulub. Erməni vəhşiliyi, erməni barbarlığı həmin şəkillərdə açıq-aydın görünür.

Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı sayəsində Ağdam Cümə məscidi işğaldan qısa müddət sonra əvvəlki görkəminə qayıdıb. Məscid əsaslı təmir olunaraq həm doğma ocaqlarına yenicə qayıdan sakinlərin, həm də ziyarətə gələnlərin ixtiyarına verilib.

Günlər keçdikcə Ağdam yavaş-yavaş əvvəlki xoş günlərinə qovuşur. Bu müqəddəs məkana gələnlərin ardı-arası kəsilmir. Onlar kövrək hisslərlə ibadət edir, namaz qılırlar. İllərdən bəri ürəklərində gəzdirdikləri arzularına qovuşan ziyarətçilərin üzü gülür, gözlərindən sevinc süzülür.

Məscid Kərbəlayi Səfixan Qarabaği adlı məşhur memar tərəfindən 1868-1870-ci illərdə tikilmiş məscid əsaslı təmirdən sonra əvvəlki görkəminə düşüb. Üslub və formasına görə ziyarətinə gələnləri heyran edən bu tarixi abidə ömrünün yeni dövrünü yaşayır.

Ağdam Cümə məscidi bir çox unudulmaz, acılı-şirinli məqamları ilə yaddaşımızda qalıb. Erməni qəsbkarlarının 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda azərbaycanlılara qarşı törətdikləri soyqırımı zamanı düşmən gülləsinə tuş gələn soydaşlarımızın meyitlərini məscidə gətirirdilər. Meşələrdə və dağlarda şəhid olanların meyitləri bu məsciddə yuyulub kəfənlənir, haqq dünyasına yola salınırdı. Faciə zamanı doğmalarını, yaxınlarını itirənlər onların meyitlərini tapmaq ümidi ilə bu müqəddəs məkana üz tuturdular. Həmin keşməkeşli günlərdə Ağdam Cümə məscidi yerdən, göydən əli üzülənlərin ümid və inam yeri idi.




Faciənin qan püskürdüyü günlərdə təkcə ölkəmizin deyil, elə beynəlxalq ictimaiyyətin də diqqəti sanki Cümə məscidinə yönəlmişdi. Dünyanın bir çox aparıcı xəbər agentliklərindən gələn jurnalistlər reportajlarına bu müqəddəs məkandan başlayırdılar. Ermənilərin Xocalıda azərbaycanlılara qarşı törətdikləri soyqırımı barədə məlumatları beynəlxalq aləmə buradan yayımlayırdılar.

Uzun müddət erməni əsirliyində qalmış və bu qaniçənlərin əlindən əzab-əziyyətlər çəkmiş, ağır işgəncələrə məruz qalmış soydaşlarımızın Ağdam Cümə məscidi ilə bağlı söylədiklərini xatırlayanda düşmənə olan nifrətimiz daha da artır. 1993-cü ilin iyul ayında rayonun Yusifcanlı kəndində əsir götürülmüş 1939-cu il təvəllüdlü Mirzə Rzayev ağrı-acılarını, dəhşətlərini yaşadığı o günlərdən ürək göynərtisi ilə danışırdı. Mirzə kişi deyirdi ki, ermənilər əsirlərə dözülməz işgəncələr verməklə yanaşı, həm də ən ağır işləri gördürürdülər: “Bir dəfə bizi, 15 əsiri Ağdama söküntü işləri görməyə aparmışdılar. Səhərdən axşama qədər bizi dayanmadan işlətdilər. Daha çox evlərin darvazalarını, qapı və hasarları sökdürdülər. Axşam qaranlıq düşəndə bizi Ağdam Cümə məscidinə gətirdilər. Ermənilər bu müqəddəs məkanda süfrə açıb yeyib-içirdilər. Daşnaklar bizi də konyak içməyə məcbur etdilər. Amma nə qədər işgəncə versələr də, əsirlərdən kimsə onların istəyini yerinə yetirmədi. Dedik ki, biz müsəlmanıq, məsciddə konyak içə bilmərik, bura müqəddəs yerdir, Tanrının evidir. Etirazımızdan qəzəblənən ermənilər əsirləri döyə-döyə məscidin ətrafında qaçmağa məcbur etdilər. Axşama qədər ac-susuz işləyib ədən düşmüşdük. İndi də qaça-qaça bu müqəddəs məkanın ətrafında dolanırdıq. İçki qəbul etməyimizdən əllərini üzən daşnaklar sonra əsirləri məcbur etdilər ki, yüksək səslə qışqırıb: “Yaşasın Ermənistan, rədd olsun Azərbaycan!” deyək. Yenə də kimsə tərpənmədi. Yenə də ermənilərin işgəncələri başladı. Armaturla haramızdan gəldi vururdular ki, dediklərini edək. Əgər bu yaramazların tapşırığını yerinə yetirsəydik, işgəncələri dayandırıb bizə su, çörək verəcəkdilər. Şərəfsizlərin şərti beləydi. Bir az keçmiş adını unutduğum əsirlərdən biri əlini qaldırıb bildirdi ki, mən bu sözü deyərəm. Hamımız asta səslə onu qınayıb dedik, bu kəlmələri dilinə gətirməsin. Amma o qərarında qəti idi. Əsir sıranın qabağına çıxandan sonra üzünü bizə tutub uca səslə dedi: “Qardaşlar, yəqin ki, biz hamımız əsirlikdə ölməyəcəyik. İçimizdən kimsə sağ çıxıb doğma vətənimizə, el-obamıza qayıdacaq, ermənilərin bizə verdiyi işgəncə və əzabları xalqımıza danışacaq. Bəlkə də bəziləriniz bu sözü deməyi boynuma götürdüyümə görə məni qorxaq zənn edirsiniz. Amma hər şey siz fikirləşdiyiniz kimi deyil. Hamınız eşidin, bax mən uca səslə buradan deyirəm, rədd olsun Ermənistan, yaşasın Azərbaycan, yaşasın Azərbaycan!” Bu sözlər onun ağzından çıxan kimi yaxınlığında dayanmış daşnak onu tapança ilə güllələdi. Əsir qardaşımızı öldürəndən sonra işgəncəni dayandırdılar, amma yeməyə nə bir tikə çörək, nə də içməyə bir qurtum su verdilər. Allah ona rəhmət eləsin, çox ürəkli və cəsur insan idi”.

Ermənilər əsirlikdə neçə-neçə belə cəsur oğullarımızı amansızcasına qətlə yetirmişlər. Amma onlar son nəfəslərində də ermənilərə tabe olmamışlar. Ağdam Cümə məscidində öldürülən əsir kimi...

Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsində qazandığı tarixi Zəfər nəticəsində 20 noyabr 2020-ci ildə Ağdam rayonu erməni işğalından azad olundu. Rayonun ərazisi tamamilə Azərbaycan Ordusunun nəzarətinə keçdi. Həmin gün bu barədə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə məruzə edildi. Məruzə Ağdam Cümə məscidinin qarşısından olundu. Zəfər bayrağımız bu müqəddəs məkana sancıldı. Həmin tarixi an əbədi olaraq xalqımızın yaddaşına yazılıb.

Bu məqamda 2021-ci ilin mart ayında azad ediləndən sonra Ağdama olan ilk ezamiyyətimizi xatırlayırıq. Həmin səfər zamanı Ağdamın erməni işğalından azad olunması barədə Ali Baş Komandana Cümə məscidinin qarşısından məruzə edən zabit Riyad Paşayevlə görüşüb söhbət etmişdik. Öyrənmişdik ki, o, Astara rayonunun Şiyəkəram kəndindəndir. 2003-cü ildə orta təhsilini başa vuraraq Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) qəbul olub. 2008-ci ildən taqım komandiri kimi ordumuzun sıralarında xidmətə başlayıb. Vətən müharibəsində ilk günlərdən əks-həmlə əməliyyatlarına qoşulub. Tapqaraqoyunlu və Talış kəndləri istiqamətində vuruşub. Oktyabrın 4-də Suqovuşan uğrunda gedən əks-həmlə əməliyyatları zamanı yaxınlığına düşmənin atdığı minaatan mərmisi düşüb, ayağından yaralanıb. Bir həftədən çox müxtəlif xəstəxanalarda müalicə olunandan sonra yenidən cəbhəyə qayıdıb. Vətən müharibəsində göstərdiyi fədakarlığa görə “Vətən uğrunda” medalına layiq görülüb.

Zabit Riyad Paşayev Ağdamın uzun illər işğalda qalmış torpaqlarına ayaq qoyduqları günlərdən söz açaraq demişdi ki, noyabr ayının 19-da kiçik qruplarla royununun ərazisinə daxil olduq: “Noyabrın 10-da Rusiya, Azərbaycan və Ermənistan rəhbərlərinin imzaladıqları üçtərəfli Bəyannaməyə əsasən ayın 20-də ermənilər Ağdamdan çıxmalıydılar. Amma düşmən qüvvələri bəzi yaşayış məntəqələrində ləngiyib qalmışdılar. Biz həm hərbçiləri, həm də burada qanunsuz məskunlaşıb yaşayan mülki əhalini Ağdamdan qovub çıxardıq. Noyabrın 20-də Ağdam məscidinə Zəfər bayrağını sancıb rayonun erməni işğalçılarından azad olunduğu barədə Ali Baş Komandana raport verdik. Bu mənim həyatımın ən unudulmaz anıdır. Həmin gün ömrümün qürur və iftixar dolu anlarını yaşadım”.

İndi Ağdam Cümə məscidi azad günlərini yaşayır. Xocalıya, Şuşaya, Xankəndiyə, Əsgərana və başqa bölgələrə qayıdanlar mütləq bu müqəddəs məkanı ziyarət edirlər. Gündən-günə Cümə məscidinin ziyarətçilərinin sayı artır.

Bizim də ziyarətimiz başa çatandan sonra yenidən qurulan Ağdama, Əsgərana, Xocalıya, Xankəndiyə və Laçına tərəf istiqamət götürdük. Geri qayıdanda mütləq məscidə yenə baş çəkəcəyik. Yenə Cümə məscidi ilə bağlı acılı-şirinli xatirələrimizə üz tutacağıq.

*Vahid MƏHƏRRƏMOV,*
*“Azərbaycan”*

● Hünər

# İnamın gücü ilə zəfərlərə doğru...

**Zaman ötüb keçir. Ağrısını, acısını hələ də qəlbimizdə, bəzilərimizin isə həm də canında duyduğu Qarabağın və Şərqi Zəngəzurun işğal tarixindən yavaş-yavaş uzaqlaşırıq. Ermənistanın əsarətdə saxladığı otuz ilə yaxın müddətdə dağıtdığı, məhv etdiyi, xarabalığa çevirdiyi həmin ərazilərdə Azərbaycan dövləti tikinti-quruculuq işləri həyata keçirir. Qarabağda, Şərqi Zəngəzurda həyat yenidən canlanır...**





## Düşmənin gizlədə bilmədiyi həqiqət

Vandallar işğal dövründə Qarabağda, Şərqi Zəngəzurda daşı-daş üstündə qoymamışdılar. İkinci Qarabağ müharibəsindən sonra nəinki həmin ərazilərə səfər edən azərbaycanlılar, xarici ölkə rəhbərləri, siyasətçilər, səyyahlar da gördükləri mənzərələrdən dəhşətə gəlirdilər. Və istər-istəməz hər kəsin ilk ağlına gələn bu oldu ki, bu torpaqları işğal edənlər ona yad olduqlarını, burada müvəqqəti qaldıqlarını, Qarabağın, Şərqi Zəngəzurun əsl sahiblərinin bir gün mütləq geri qayıdacaqlarını yaxşı biliblər. Görünən o idi ki, xarici havadarları onları nə qədər ürəkləndirməyə, yağlı vədlərlə şirnikləndirməyə çalışsalar da, Ermənistan rəhbərliyi başda olmaqla işğalçı ermənilər bu həqiqəti heç zaman unutmayıblar. Odur ki, Ermənistan 1990-cı illərdə işğal etdiyi Azərbaycan ərazilərində yalnız istehkamlar qurub, səngərlər qazıb.

Nə qədər yalanlar uydururlarsa, uydursunlar, öz “tarixlərini” özləri yaxşı bilirdilər axı. Cənubi Qafqaza babaları işğal siyasətinin bir hissəsi kimi köçürülmüşdülər. Rusiya ilə İran arasında bağlanmış iki müqavilə - 1813-cü ildə Gülüstan və 1828-ci ildə Türkmənçay müqavilələri ilə Azərbaycan iki yerə bölünmüşdü. Bundan sonra xislətlərində yaltaqlıq, riyakarlıq, namərdlik, satqınlıq olan ermənilər tədricən məmləkətimizə köçürülmüşdülər. Gəlmə ermənilər yerli azərbaycanlılara özlərini fağır, məzlum kimi göstərib, xalqımızın humanistliyindən, qonaqpərvərliyindən istifadə edib sığınacaq almışdılar. Lakin hər dəfə ictimai-siyasi gərginlik yarananda, ixtişaşlar düşəndə gəlmələr əsl simalarını gösrərmişdilər. Yanlarında həmişə boyunlarını bükdükləri, yalnız yaxşılıqlarını gördükləri azərbaycanlılara qənim kəsilmişdilər. Azğınlaşmış ermənilər can deyib, can eşitdikləri azərbaycanlıların evlərini talamışdılar, qətliamlar, qırğınlar, terrorlar, soyqırımları törətmişdilər. Qəddarlıqla həyata keçirdikləri cinayət əməlləri “mükafatsız” qalmamışdı. Nəticədə, köçürüldükləri Azərbaycan torpaqlarının bir hissəsində özlərinə Ermənistan adlı dövlət yaratmağa nail olmuşdular.

Ancaq vandalların tamah dişləri yenə də kəsərdən düşmədi. Azərbaycan torpaqlarından gözlərini çəkmədilər. İşğalçılıq niyyətlərini gerçəkləşdirmək üçün məqam gözlədilər. Təəssüf ki, Azərbaycan xalqı bu həqiqəti 1980-ci illərdə sovet imperiyası çökməyə başlayanda yenidən gördü. Sovet hökuməti ittifaqa daxil olan respublikaların müstəqillik əldə etmək arzularını reallaşdırmalarının qarşısına sədd çəkmək üçün fitnələrə meydan verdi. Erməni quldurları dərhal hərəkətə keçdilər. Məkrli planları onsuz da hər zaman vardı: Azərbcandan yeni ərazilər qoparmaq.

1980-ci illərin sonlarında Azərbaycanın Qarabağ bölgəsindən ağır xəbərlər gəlməyə başladı. Erməni quldurları başladıqları münaqişənin miqyasını getdikcə böyütdülər. Münaqişə alovu Qarabağın və Şərqi Zəngəzurun əksər ərazilərini bürüdü.

O zaman da Azərbaycanın mərd, igid övladları ana vətənin harayına hay verdilər. Yağı düşməndən Qarabağı, Şərqi Zəngəzuru qorumaq üçün sinələrini sipər etdilər. Ancaq müstəqillik yolunda ilk addımlarını atan Azərbaycanın nə ordusu vardı, nə silah-sursatı, nə də hərbi texnikası. Azərbaycanlıların əllərindən ov tüfənglərini belə almış sovet hökuməti erməni quldurlarını o dövrün müasir silahları, hərbi texnikası ilə təmin etmişdi. Hər cür yardım alan ermənilər Qarabağda, Şərqi Zəngəzurda dəhşətli qətliamlar, soyqırımları törətdilər. Günahsız körpələrə, qadınlara, qocalara, əlillərə belə divan tutdular. Bütün dünyaya nə qədər azğın, amansız olduqlarını göstərdilər. 1990-cı ildə Azərbaycanın iyirmi faiz torpaqlarını işğal etdilər. Bir milyon azərbaycanlını işğalçılar evindən, yurdundan qovdular.

Amma otuz ilə yaxın işğal altında saxladıqları Qarabağda, Şərqi Zəngəzurda binə qurmadılar. Həmin müddətdə rəsmi İrəvanın işi, peşəsi özünə havadarlar axtarmaq oldu. Ermənistana himayədarlıq edən bəzi dövlətlərin və beynəlxalq təşkilatların münaqişənin həll edilməsində “rolları” yalnız işğal müddətini uzatmaq oldu. Bununla Azərbaycan dövlətini səmərəsiz sülh danışıqlarından bezdirəcəklərini, Azərbaycan xalqının Qarabağ və Şərqi Zəngəzur torpaqlarının işğaldan azad olunacağına inamını tükəndirəcəklərini düşünürdülər. ATƏT-in Minsk qrupunun bu məsələdə “xidmətləri” isə xüsusi vurğulanmalıdır.

## Qətiyyətli cavab

Bütün məkrli planlara, riyakar oyunlara, ikili standartlara dövlətimizin başçısı, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin qətiyyətli cavabı belə idi: “Xalqımız imkan verməz ki, Azərbaycan ərazisində ikinci erməni dövləti yaradılsın".

Prezident İlham Əliyev ölkəmizin hərbi potensialının gücləndirilməsinin prioritet olduğunu bildirirdi: "Bu, ölkəmizin təhlükəsizliyi üçün lazımdır", - deyirdi. Azərbaycanın ordu quruculuğu sahəsində mühüm işlər həyata keçirilirdi.

Azərbaycan dövlətinin məqsədi Qarabağ və Şərqi Zəngəzur ərazilərini işğaldan sülh yolu ilə azad etmək idi. Bu istiqamətdə ardıcıl olaraq məqsədyönlü işlər həyata keçirirdi. Lakin erməni qəsbkarları danışıqlar yolu ilə torpaqlarımızı qaytarmaq niyyətində deyildilər. Bunu atəşkəs rejimini tez-tez pozmaqla, mövqelərimizi atəşə tutmaqla nümayiş etdirirdilər. Ermənistan silahlı qüvvələrinin 2020-ci il 27 sentyabr səhəri törətdikləri növbəti təxribat səbəbindən İkinci Qarabağ müharibəsi başladı.

Azərbaycanın mərd, igid oğulları qəsbkarların hücumlarını dəf etmək üçün döyüşə atıldılar. Vətən torpaqlarının azadlığı uğrunda gedən bu müqəddəs savaşda zabit və əsgərlərimiz böyük rəşadətlə, cəsarətlə vuruşdular. Çünki İkinci Qarabağ müharibəsinədək artıq formalaşmış, yüksək səviyyədə peşəkarlaşmış Azərbaycan Ordusu uzun illər yağıların tapdağı altında qalmış vətən torpaqlarını əsarətdən qurtamağa hazır idi.

Ağır döyüşlər 44 gün davam etdi. Qəhrəman Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında Qarabağ və Şərqi Zəngəzur torpaqlarını düşməndən azad edə-edə addım-addım böyük Zəfərə yaxınlaşdı.

İkinci Qarabağ müharibəsinin başladığı ilk anlardan xalqımız ordumuzun gücünə, qüdrətinə güvəndi, haqq savaşımızda qalib gələcəyimizə inandı. Arxa cəbhədə uşaqdan böyüyədək hər kəs intizarla ön cəbhədən gələcək qələbə xəbərlərini gözləyirdi. Bu gözləyişdə böyük ümid, həyəcan, sonsuz qürur vardı. Çünki Azərbaycan Ordusunun haqq işi uğrunda vuruşduğunu hər birimiz bilirdik.

Zabit və əsgərlərimiz öz torpalarının azadlığı uğrunda işğalçılara qarşı döyüşürdülər. Onların bir çoxunun yaşı Qarabağın və Şərqi Zəngəzurun işğal tarixindən kiçik olsa da, o torpaqların həsrəti, xiffəti ilə böyümüşdülər. Hər bir zabit və əsgərimiz bilirdi ki, ayağını basdığı, canını düşmən gülləsinə sipər etdiyi doğma Vətən torpaqlarıdır.

Vətən sevgisi, əzəli torpalarımızı azğın düşməndən xilas etmək niyyəti Azərbaycan Ordusuna güc verirdi. Odur ki, ölüm-dirim savaşında Ermənistan silahlı qüvvələrinin zabit və əsgərləri can qorxusu ilə döyüş meydanlarından qaçsalar da, Azərbaycan Ordusunda fərarilik qeydə alınmadı.

Azərbaycan dövləti, xalqı heç zaman yad torpaqlara göz dikməyib. Biz ulu babalarımızın yaşadığı və bizə əmanət etdiyi torpaqlarımızın əsarətdə qalmasına, o yerlərdə yağıların at oynatmalarına dözə bilməzdik. Qalibiyyət qazanmaq Azərbaycan xalqının mənəvi haqqı idi. Bu, ədalətin qələbəsi idi.

*Zöhrə FƏRƏCOVA.*
*“Azərbaycan”*

# Şəhidlərimizin xatirəsi ehtiramla yad edilib

**Torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə yüksələn Alqayev Harun Məhəmməd oğlu və Cəfərov Vüsal Şəfi oğlunun xatirəsinə həsr olunan anım mərasimləri keçirilib.**



Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində keçirilən tədbirlərdə nazirliyinin əməkdaşları, ictimaiyyət nümayəndələri, şəhidin ailə üzvləri, yaxınları və döyüş yoldaşları iştirak ediblər.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, eləcə də Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Anım mərasimlərində çıxış edənlər igid oğullarımızın döyüşlərdə göstərdikləri qəhrəmanlıq və şücaət nümunələrindən söz açıblar.

Tədbirlərin iştirakçılarına şəhidlərimizin həyat və döyüş yolu haqqında ətraflı məlumat verilib, vətənpərvərlik mövzusunda musiqilər səsləndirilib.

Hər iki şəhidimizin ailə üzvləri və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin daim uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya, həmçinin Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# Azərbaycan şəhidlərinin ailə üzvlərindən ibarət qrup Türkiyənin Trabzon şəhərində səfərdədir





**Qarabağ müharibəsi şəhidlərinin ailə üzvlərindən ibarət qrup Türkiyənin Trabzon şəhərində səfərdədir.**

AZƏRTAC xəbər verir ki, şəhidlərin yaxınları və doğmalarının bu şəhərə səfəri Trabzonun Şəhid Ailələrinə Dəstək və Həmrəylik Cəmiyyəti tərəfindən təşkil edilib.

Azərbaycandan gəlmiş qonaqları Trabzonun Ortahisar rayon bələdiyyəsinin sədri Ahmet Kaya qəbul edib. O, görüş əsnasında qəhrəmanların ailə üzvlərinə əlindən gələn dəstəyi göstərməyə hazır olduğunu bildirib. Bələdiyyə sədri əlavə edib: "Türkiyə sizlərin də evidir. "Bir millət, iki dövlət" kəlamına uyğun əməkdaşlıq edən ölkələrimizi qardaşlıq bağları birləşdirir".

Öz növbəsində Trabzonun Şəhid Ailələrinə Dəstək və Həmrəylik Cəmiyyətinin rəhbəri Şeref İşler qeyd edib ki, Azərbaycandan gəlmiş şəhid ailələrinin səkkiz üzvü yeddi gün müddətində Qara dəniz vilayətində qonaq olacaq. Onlar bölgənin görməli yerlərini gəzəcək, yerli ictimaiyyətin nümayəndələri ilə görüşlər keçirəcəklər.

# "Qayıdış könüllüləri" Ağdam rayonunda humanitar minatəmizləmə fəaliyyətinin gedişatı ilə tanış olub










**Minalar və partlamamış hərbi sursatların təhlükəsi Azərbaycan və ümumiyyətlə, bütün bəşəriyyət üçün xüsusi aktuallıq kəsb edən problemlərdən biridir.**




Minalanmış ərazilərin təmizlənməsi və mina təhlükəsi barədə ictimaiyyətin məlumatlandırılması Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) əsas fəaliyyət istiqamətlərindən biridir. Lakin bu fəaliyyətin yalnız texniki işlərlə məhdudlaşmaması, ictimai dəstəyin və vətəndaş məsuliyyətinin artırılması da olduqca vacibdir.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, xüsusilə gənclər arasında mina təhlükəsinə dair maarifləndirmənin aparılması, könüllülərin bu prosesə cəlb edilməsi, həmçinin sosial və təbliğatyönümlü tədbirlərdə gənclərin iştirakı böyük önəm kəsb edir.

Bu məqsədlə ANAMA və Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi, "Böyük Qayıdış" Gənclər Təşkilatı İctimai Birliyinin təşəbbüsü və təşkilatçılığı ilə "Qayıdış könüllüləri"nin Ağdam rayonuna infoturuna start verilib.

İnfotur çərçivəsində könüllülər ANAMA tərəfindən Ağdam rayonunun Nəmirli kəndi ərazisində icra edilən humanitar minatəmizləmə əməliyyatları ilə tanış olub. Ərazilərin təmizlənməsi metodologiyaları, minaaxtaranın istifadə etdiyi alət və avadanlıqlar, mina və partlamamış hərbi sursatların nümunələri nümayiş olunub, minaların təhlükəsi, törədə biləcəyi fəsadlar barədə məlumat verilib.

Mina təhlükəsi ilə mübarizədə ictimai iştirakçılığın və gənclərin fəallığının artırılması, təşəbbüslərinin dəstəklənməsi məqsədilə könüllülərin iştirakı ilə agentliyin Ağdam mobil bazasında panel müzakirələr keçirilib.

Səfər çərçivəsində "Qayıdış könüllüləri" ANAMA-nın yaradılmasının 27 illiyi münasibətilə minaaxtaranlara məsuliyyətli və fədakar fəaliyyətlərinə təşəkkür olaraq fləşmob təşkil edib. Belə səfərlərin nəticəsi olaraq gələcəkdə könüllülər "Böyük Qayıdış" Proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda məskunlaşan əhali arasında mina təhlükəsinə dair təbliğat və təşviqat, maarifləndirmə işlərində öz töhfələrini verə biləcəklər.




# "Uğurumuz idmançılara stimul olacaq"

**"İlk dəfədir ki, qrup hərəkətləri komandamız Universiadada çıxış edir". Bu sözləri mətbuata açıqlamasında Azərbaycanın bədii gimnastika üzrə qrup hərəkətləri komandasının məşqçisi Elnara Hüseynova Almaniyanın Reyn-Rur regionunda keçirilən Ümumdünya Yay Universiadasında qızıl medal qazanmaları barədə danışarkən deyib.**




O, nəticəyə görə xoşbəxt olduğunu bildirib: "Bu, komandamız üçün ilk idi". Qrup hərəkətləri komandasının üzvü Güllü Ağalarzadə də tarixi nəticələri qazanmağı çox sevdiklərini söyləyib: "Avqustun sonunda dünya çempionatı keçiriləcək. Universiada mundiala hazırlıq prosesidir. İlk medalımızı qazandığımız üçün çox xoşbəxtik. Tarixi nəticələr qazanmağı çox sevirik. Bu artıq bizim üçün ənənəyə çevrilib. İnanıram ki, bu uğurumuz digər idmançılara da stimul olacaq. İyulun 20-də iki finalda çıxış edəcəyik. Ümid edirəm ki, səhvsiz başa vuracağıq".

# Güləşçilərimiz 5 medal qazandılar

**Macarıstanın paytaxtı Budapeştdə reytinq turniri davam edir. Yarışın ikinci günündə sərbəst güləş üzrə mübarizəyə yekun vurulub. Turan Bayramov (74 kq) 1/8 finalda amerikalı Deyvid Kara 3:5 hesabı ilə məğlub olub.**

Bu çəkidəki digər təmsilçimiz Maqomed-Başir Xaniyev qazaxıstanlı Alibek Abdikassimov xalçaya çıxmadığı üçün qələbə qazanıbsa, Alibekin həmyerlisi Yeldos Kuanişbaya vaxtından əvvəl qalib gəlib - 13:2. Yarımfinalda bəhreynli Maqomedrasul Asluyevi 4:2 hesabı ilə üstələyən Xaniyev həlledici görüşdə yaponiyalı Kota Takahaşiyə uduzub (0:4) və gümüş medalı boynundan asıb.



Arseniy Djioyev (86 kq) gürcüstanlı Tornike Samxaradze zədələndiyi üçün tər tökmədən 1/4 finala yüksəlib. Milli üzvü daha sonra slovakiyalı Boris Makoyev (3:0) və türkiyəli Osman Göçenə (10:0) gücünü göstərərək adını finala yazdırıb. Olimpiya mükafatçısı, belaruslu Maqomedxabib Kadimaqomedov zədə üzündən xalçaya çıxmadığı üçün Djioyev qızıl medala sahib çıxıb.

Osman Nurmaqomedov (92 kq) bəhreynli Maqomed Şaripovu (6:1) mübarizədən kənarlaşdırsa da, 1/4 finalda son Avropa çempionu, yunanıstanlı Dauren Kuruqliyevə 1:5 hesabı ilə məğlub olub. Bu çəkidəki digər təmsilçimiz Abubakr Abakarov təsnifat mərhələsində amerikalı Trent Hidleylə bacarmayıb - 2:7. Rəqib finala yüksəldiyi üçün təsəlliverici görüşə çıxan Abakarov macarıstanlı Kristiyan Anqyala heç bir şans tanımayıb - 11:0. Bürünc medal görüşü isə baş tutmayıb. Kuruqliyev zədələndiyi üçün güləşməyib və Abakarov yarışı üçüncü pillədə başa vurub.

Beləliklə, millimiz turniri 5 medalla tamamlayıb. Xatırladaq ki, ötən gün İslam Bazarqanovla (57 kq) Əli Rəhimzadə (65 kq) gümüş medal qazanıb. Yığmamız 100 xalla komanda hesabında 3-cü yeri tutub. Millimiz Gürcüstandan cəmi 5, ABŞ-dən isə 2 xal geri qalıb.

# "Neftçi"nin 2 milyonluq transfer hədəfi



**"Neftçi"nin transfer bazarında fəallığı davam edir. "Ağ qaralar"a təklif olunan oyunçuların siyahısı genişdir. Amma baş məşqçi Samir Abasovun israrla sərəncamında gördüyü adlar elə də çox deyil.**

Onlardan birinin kimliyi artıq bizə məlum olub. Bu, Kennedi Boatinqdir. 28 yaşlı legioner hazırda Rumıniyanın "Dinamo" klubuna məxsusdur. Mərkəz müdafiəçisi daha əvvəl Avstriyada LASK, "Riad", "Lustenau" klublarında çıxış edib. Qısa müddətdə Portuqaliyada "Santa Klara"nın formasını geyinib. Dəyəri 2 milyon manata yaxın qiymətləndirilən oyunçu Toqo millisində 10 görüş keçirib.

# Suma "Zirə"də qalır?

**Salifu Sumanın satışı "Zirə" üçün böyük bir problemə dönüb. Son 7-8 ayda adı Avropanın və Asiyanın bir çox klubları ilə yanaşı hallanan vingerin transferi saqqız kimi uzanmaqdadır.**



Ötən müddətdə onunla bağlı o qədər belə xəbərlər yayılıb, nə ucu var, nə bucağı var. Ancaq bu, hələ də davam etməkdədir və görünür ki, proses yenə uzanacaq. Qəsəbə təmsilçisi onu "əldən çıxarmaqla" 1,5 milyon avro qazana bilməyəcək.

Bu barədə Sloveniya mətbuatı məlumat yayıb. Bildirilib ki, qvineyalı gənc "Maribor"la danışıq aparmaqda davam edir. Ancaq mətbuatda yazıldığı kimi, klub bu keçid üçün 1,5 milyon avro xərcləməyə hazır deyil. Maddi cəhətdən müəyyən sıxıntıları olan "Maribor"un bir transferə bu qədər ödəniş etməsi inandırıcı görünmür.

Həmkarlarımızın klub daxilindəki mənbədən əldə etdikləri məlumata görə, "Maribor"un Sumanı heyətinə qatması da sual altındadır. Çünki klub əsasən azad agent statusu daşıyan oyunçulara üstünlük verir.

Salifu Suma Kiyev "Dinamo"su başda olmaqla başqa bir neçə Avropa klubunun da diqqət mərkəzindədir. 21 yaşlı oyunçunun "Zirə" ilə müqavilə müddəti 2027-ci ilin yayına qədərdir.

Məlumata görə, "Maribor"la görüşlər artıq başa çatıb. Balkan təmsilçisi maddi durumunu bir daha gözdən keçirərək, Suma iddiasından geri çəkilib. Bu söhbət demək olar artıq bağlanmış sayılır.

# "Qarabağ"ın rəqibi yeni futbolçu transfer etdi



**"Qarabağ"ın UEFA Çempionlar Liqasının 2-ci təsnifat mərhələsindəki rəqibi olan "Şelburn" heyətini yeni futbolçu ilə gücləndirib. Bu barədə İrlandiya klubunun Mətbuat xidməti məlumat yayıb.**

Dublin təmsilçisi Cek Henri Frensisi transfer edib. Son olaraq İrlandiyada "Slayqo" klubunda oynayan 21 yaşlı yarımmüdafiəçi İngiltərədə "Fulhem" və "Arsenal" klublarının akademiyalarında çıxış edib.

Qeyd edək ki, "Şelburn"la "Qarabağ"ın ilk görüşü iyulun 23-də İrlandiyada olacaq və Bakı vaxtı ilə saat 22:45-də başlayacaq. Cavab matçı isə iyulun 30-da saat 20:00-da Tofiq Bəhramov adına Respublika stadionunda keçiriləcək.

*Hazırladı:*
***Elçin CƏFƏROV, "Azərbaycan"***

## Bazar günü etüdü

# Bizim üçün darıxan küçələr



*Hər gün üz tutduğumuz, bəzən tələsik, bəzən də astaca keçdiyimiz küçələr. Sinəsini geniş açıb, əlimizdən yapışıb bizi getdiyimiz ünvana aparan, canımızı darısqallıqdan, sıxlıqdan, tıxacdan qurtaran küçələr. Nə çoxdur şəhərimizdə bir-birinə bənzəməyən, irili-xırdalı, maşınlı-arabalı, torpağı-daşı daralı küçələr.*

*Görünüşü ilə bir-birinə bənzəməyən, boy-buxunu ilə bir-birindən seçilən, bəzi hissələrdə böyüyən, genələn, bəzi yerlərdə kiçilən, daralan küçələr. Bir az əyri, bir az düz, bir az dolayı, bir az gödək, amma abırlı-həyalı, divarları müxtəlif rənglərlə boyalı küçələr. Geniş, dar, enli-ensiz küçələr, çətin günlərində bir-birinə qohum-qardaş, sirdaş küçələr.*

*Dünyaya sığmayan xatirələrimizin üst-üstə qalaqlanıb yığıldığı, qızınmaq üçün bir-birinə sıxıldığı küçələr. Çoxlu sirlərimizi, gizlinlərimizi daş yaddaşında əbədi olaraq qoruyub saxlayan, heç vaxt heç kimə onların üstünü açmayan küçələr. Hərdən-hərdən bizdən küsüb-inciyən küçələr, çox vaxt da sevinə-sevinə üzümüzə gülümsəyən küçələr. Təəssüflər ki, ildə bir-iki dəfə də qərənfillərlə "bəzənib" göz yaşı axıdan küçələr. Bəzən sevinib ürəkləri açan, qəlblərə işıq saçan küçələr, bəzən də hirslənib soyuq küləklər əsdirən, könülləri küsdürən küçələr.*

*Gələnlərin, gedənlərin bəzilərinə baxmaqdan yorulub dərindən köks ötürən küçələr, hərdən də uzanmaqdan yorulub qəddini bir az dikəldib dincələn küçələr. Tez-tez qazılan, ora-burası cızılan, yanıböyrü deşilən, gah o başından, gah da bu başından yaralanan, parçalanan, haçalanan küçələr. Özü də hiss etmədən, getdikcə daralan, əl-ayağı səkilərdən ayrılan, ağrıları artan, qanı qaralan, sinəsinə dağlar çəkilən, üstünə zir-zibil atılan küçələr.*

*Kasıb, yetim, yazıq, sökük görkəmdə olan, başdan-ayağa toz-torpağa bürünən küçələr. Daş, mərmər, kafel, metlak, beton döşənmiş, asfalt çəkilmiş küçələr. Balaca bir ağac, xırda bir gül koluna həsrət qalmış küçələr, başdan-ayağa yaşıllığa bürünmüş, böyük-böyük, yaraşıqlı ağaclar əkilmiş, rəngbərəng, gözəl-gözəl güllər, çiçəklər əkilmiş küçələr.*

*Özləri, izləri, gözləri, sözləri qalan, amma tez-tez adları, soyadları dəyişən, bəzən axırında gəlib kiçik hissəsi bir-biri ilə birləşən, görüşən və ayrılan küçələr. Yaraşıqlı, işıqlı, sarmaşıqlı, çəngəlli-qaşıqlı küçələr, qaranlığa, zülmətə, işığa, nura həsrət qalmış küçələr. Getdikcə gözəlləşən, qəşəngləşən, çiçəkləşən, qocalmaq bilmədən gəncləşən, güclənib, qüvvətlənib yerlə-göylə əlləşən, ayağının altını görmək istəməyən, özündən çıxıb lovğalanan küçələr. Diqqətdən, qayğıdan, təmizlikdən xeyli kənarda boynubükük qalmış, cavan ikən qocalmış, saralmış, sozalmış küçələr.*

*Nə qədər uzatsalar da, can atsalar da, bir-birilərinə əlləri çatmayan, ünləri yetməyən küçələr. Ha çalışsa da, təkan versə də, dayandığı yerindən tərpənə bilməyən, heç yana qaçıb getməyən küçələr. Üstündən keçən insanları bir-birindən ayırmayan, seçməyən küçələr. Nə yorulan, nə duran, nə yatan, nə də oturan küçələr. Həm gündüzləri, həm də gecələri sevə-sevə sinəsinə sıxıb əzizləyən küçələr. Bəzən insanlarsız qalıb elə hey həsrətlə yollara boylanan küçələr.*

*Bir-birinə oxşamayan bu küçələrdən keçəndə şirin-şirin xəyallara dalırıq. Bəzən acılı-şirinli xatirələrin təsirindən yerimizdə donub qalırıq. Bu anlarda, bu dəqiqələrdə tələsmədən, asta-asta ötənləri, keçənləri bir-bir yadımıza salırıq. Bəzən sevincdən, fərəhdən göylərə ucalırıq, ulduzlara, Aya, Günəşə əl uzadırıq. Belə gözəl anlarımızda ürəyimizdəki dərdlərimizi, sərlərimizi çıxarıb dənizlərə atırıq. Gözəl hisslərin, duyğuların burulğanında sevincdən doğan şadlığa batırıq. Ürəyimizi, qəlbimizi sıxan kədərə, qəmə bir az fərəh qatırıq. Bu gedişlə, bu yerişlə yavaş-yavaş arzularımıza, istəklərimizə çatırıq.*

*Bizə doğmadan doğma olan küçələrdən keçəndə elə bil bir an içində uşaqlaşırıq, cavanlaşırıq, gəncləşirik. Təsadüfən qarşılaşdığımız dostlarımızla, tanışlarımızla sevinclə salamlaşırıq, həvəslə danışırıq, şirin-şirin söhbətləşirik, hərdən də bir az dərdləşirik. Dostlarımızla danışa-danışa qəlbimizə, ürəyimizə yeni yaradıcılıq fikirlərinin toxumlarını əkirik. Sonra da şirin söhbətlərlə, xoş sözlərlə onun üstünə su səpirik. Tanışlarımızla söhbətimiz qurtaranda, sözümüz bitəndə mehribancasına görüşüb sağollaşırıq, yavaş-yavaş bir-birimizdən ayrılıb işimizin, gücümüzün dalınca gedirik. Amma bu sonuncu görüş deyil, biz sevimli küçələrimizdə dostlarımızla, yaxınlarımızla yenə də qarşılacağımıza, yenə də söhbətləşəcəyimizə ümid edirik.*

*Hər addımı, hər qarışı bizə doğma olan bir-birinə bənzəməyən küçələrdən keçəndə ürəyimiz gülür, qəlbimiz açılır. Bu anlarda sanki könlümüzdən ətrafa nur tökülür, işıq saçılır. Əlimizdə işimiz çox olanda, evdən çölə çıxmayanda, doğma küçələrimizdən keçməyəndə onlar üçün yaman darıxırıq. Küçələrimizi görmək, onlarla pıçıldaşmaq, söhbətləşəmək, dərdləşmək üçün tələsik evdən çıxırıq. Elə ilk addımdan çöhrələrindən hiss edirik ki, küçələr gəlişimizi çoxdan gözləyirmiş. Deməli, biz onlar üçün darıxdığımız kimi, onlar da bizim üçün darıxırmış. Ona görə də gərək hər gün küçələrimizə çıxaq, onlara sevgi və məhəbbətlə baxaq, heç birimiz darıxmayaq, sıxılmayaq. Günlər keçdikcə küçələrimizlə bir az da mehribanlaşaq, doğmalaşaq, qardaşlaşaq, dostlaşaq.*

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Bilmək istəyirəm

*Təqaüddəyəm, nəvəmlə birgə yaşayıram. Aldığım pensiya gündəlik ehtiyaclarımızı qarşılamır. Belə halda əlavə sosial yardım ala bilərəm?*

***Sübhi KƏRİMOV,***
***Qobu qəsəbəsi***

✓ - Sualınızda qaldırığınız məsələ "Ünvanlı sosial yardım haqqında", "Azərbaycan Respublikasında 2025-ci il üçün ehtiyac meyarının həddi haqqında" və "Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında" qanunlar, həmçinin Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş "Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi" Qaydaları (bundan sonra – Qaydalar) ilə tənzimlənir.

"Ünvanlı sosial yardım haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, sosial yardımın məbləği ailənin orta aylıq gəliri ilə hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusu arasında yaranan fərq məbləğində hesablanır. 2025-ci il üçün ehtiyac meyarının həddi 285 manat müəyyən edilmişdir. "Orta aylıq gəlir" dedikdə, ailənin gəlirləri ailə üzvlərinin müraciətdən əvvəlki ardıcıl gələn 12 (on iki) ay müddətinə bütün növ gəlirlərinin, o cümlədən ailə üzvlərinə bağışlanmış hədiyyələr, mülkiyyətdən, ailə üzvlərinə məxsus əmlakdan, şəxsi yardımçı təsərrüfatdan əldə olunan pul və natural formada gəlirlərinin toplusundan ibarətdir. Qeyd olunmalıdır ki, sizin pensiyanız da "orta alıq gəlir"iniz hesablanarkən nəzərə alınar.

Beləliklə, əgər sizin pensiyanız 285 manatlıq ehtiyac meyarından aşağıdırsa, o cümlədən nəvəniz sizin himayənizdədirsə və o azyaşlıdırsa, bu zaman siz ünvanlı sosial yardımın ayrılması və alacağınız ehtimal olunan yardım məbləğininin hesablanması üçün DOST mərkəzlərinə müraciət edə bilərsiniz.

*Bir neçə il əvvəl bankdan kredit götürmüşəm. Lakin son aylarda maliyyə çətinliklərinə görə, ödənişləri vaxtında həyata keçirə bilmirəm. Bank əməkhaqqımın tam məbləğini kredit borcunun ödənilməsinə yönləndirə bilərmi?*

***Gülər MƏMMƏDOVA,***
***Xırdalan şəhəri***

✓ - Sualınızla bağlı bildiririk ki, "İcra haqqında" Qanunun 65.1-ci maddəsinə görə, icra sənədi icra edilərkən borclunun əmək haqqından və ona bərabər sayılan digər gəlirlərindən tutmaların məbləği 50 faizdən çox ola bilməz. Eyni zamanda Azərbaycan Respublikası Mülki Məcəlləsinin 964.2-ci maddəsinə əsasən, müştərinin sərəncamı olmadan hesabdakı pul vəsaitinin silinməsinə məhkəmənin qərarı ilə, habelə qanunla müəyyənləşdirilmiş və ya bankla müştəri arasında müqavilədə nəzərdə tutulmuş hallarda yol verilir. Beləliklə, əgər siz kredit üzrə borcu əməkhaqqı kartınızı verən bankdan almısınızsa, o zaman həmin bank Mülki Məcəllənin yuxarıda adıçəkilən 964.2-ci maddəsinə (əgər kredit müqavilənizdə bu şərt əks olunmuşdursa) əsasən, sizin əməkhaqqı hesabınızdakı məbləğin tamamına borcun tutulmasını yönəldərək onu tam şəkildə tuta bilər.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

# Odessa şəhər meri Azərbaycanın diaspor fəalları ilə görüşüb

**Ukraynanın Odessa şəhər meri Qennadi Truxanov Azərbaycan diasporunun fəalları ilə görüşüb.** AZƏRTAC **xəbər verir ki, Truxanov sosial media səhifəsində yaydığı məlumatda görüş zamanı Odessada Azərbaycan mədəniyyətinin elementlərini özündə əks etdirən park konsepsiyasının müzakirə olunduğunu bildirib.**

"Bolşoy Fontan"ın 4-cü stansiyasında 2 hektardan çox yaşıllıq sahəsində salınacaq "Azərbaycan" parkı müasir ictimai məkan olacaq. Azərbaycan diasporunun nümayəndələri ilə birlikdə layihənin konsepsiyasını, həyata keçirilmə mərhələlərini və maliyyə mənbələrini müzakirə etdik", - deyə mer əlavə edib.

Görüşdə soydaşlarımız adından danışan "Birlik" təşkilatının sədri vəzifəsini icra edən Cəlil Astanov bildirib ki, "Azərbaycan" parkı odessalılara gözəl hədiyyə olacaq.

Görüşdən sonra Qennadi Truxanov və Azərbaycanın diaspor fəalları gələcək parkın yerinə gediblər. "Bu, icma, biznes və hökumət arasında real qarşılıqlı əlaqənin nümunəsidir. Odessanın çoxmillətli birlik və qələbə şəhəri olduğunun daha bir sübutudur", - deyə mer əlavə edib.



# BTQ əməkdaşlıq etdiyi xarici tədqiqatçılarla birlikdə Yeni Kaledoniya ilə bağlı araşdırma aparıb

**Bakı Təşəbbüs Qrupu (BTQ) əməkdaşlıq etdiyi xarici tədqiqatçılarla birlikdə yeni araşdırma aparıb. Belə ki, "Yeni Kaledoniya: Kalonial miras, öz müqəddəratını təyin etmək uğrunda mübarizə və 2024-cü ilin böhranı" adlı tədqiqat işində Yeni Kaledoniyada 2024-cü ilin may iğtişaşları, onları doğuran səbəblər, proseslərin gedişi, eləcə də kanak xalqına qarşı repressiyalar və bu xüsusda beynəlxalq təpki və mübarizənin nəticələri araşdırılıb.**

AZƏRTAC xəbər verir ki, 2025-ci ilin mart-iyun aylarında yazılan tədqiqat hadisələrin xronologiyasını, zorakılıq və dağıntıların miqyasını, Fransa hüquq-mühafizə orqanlarının törətdiyi vəhşilikləri, eləcə də region və regionda maraqları olan ölkələrinin, eyni zamanda BMT-nin reaksiyasını əhatə edir. Tədqiqat kanak xalqının etirazlarının kökündə kolonial idarəetmənin durduğunu göstərir, əsarət altında yaşayan xalqların fundamental hüquqları ilə bağlı ciddi çatışmazlıqları təhlil edir.




Bu araşdırmadan həm yerli spesifikliyi, həm də daha geniş siyasi konteksti əks etdirən bir neçə əsas nəticə çıxır. Belə ki, Yeni Kaledoniyadakı 2024-cü il böhranı Fransanın ərazi üzərində nəzarəti güc və inzibati üsullarla — yerli xalqın öz müqəddəratını təyinetmə hüququna hörmət etmədən qorumaq cəhdləri münaqişənin daha da ağırlaşdığını göstərdi. Həmçinin metropoliyanın repressiya, fövqəladə vəziyyət və həbslər şəklində cavabı dialoqa hazır olmadığını və müstəmləkə reflekslərinin hələ də güclü olduğunu göstərdi. Araşdırma Kaledoniyanın statusu məsələsini Fransanın daxili işi olmadığını beynəlxalq hüquq baxımından təhlil edir və ədalətə əsaslanan nizamlanma olmadan davamlı sülhün mümkün olmayacağı qənaətinə gəlir.

İyulun 12-də Fransa və Yeni Kaledoniya arasında imzalanan saziş adıçəkilən araşdırmanın nəticələrinin dəqiq proqnozlaşdırıldığını sübut edir: Adanın statusuna dair qərarı kanak xalqı verməli və mərhələli şəkildə Yeni Kaledoniya tam müstəqil olmalıdır.

# Bəzi yerlərdə 40 dərəcə isti olacaq

Azərbaycanda iyulun 20-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraiti yağmursuz keçəcək. Şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 21-26 dərəcə isti, gündüz 35-38 dərəcə, yarımadanın bəzi yerlərində 40 dərəcəyə yaxın isti olacaq. Atmosfer təzyiqi 756 mm civə sütunundan 753 mm civə sütununa enəcək.

Nisbi rütubət gecə 65-75 faiz, gündüz 35-45 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz olacaq. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman, mülayim şərq küləyi əsəcək, havanın temperaturu gecə 22-27 dərəcə isti, gündüz 36-41dərəcə isti, dağlarda gecə 11-16 dərəcə isti, gündüz 28-33 dərəcə isti olacaq.




**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3655**
**Sifariş 1460**

**Qiyməti 60 qəpik**